www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 5-6 dekabr 2015-ci il Şənbə № 271 (6299) Qiymәti 40 qәpik

**Xəbər**

**Rəsulzadənin büstünün başına keçirilən çuval çıxarıldı**

yazısı səh.2-də

**Gündəm**

## İlin son Qarabağ çağırışları - 2016-ya hansı "miras" saxlanılır?



Həmsədrlər "problemin hərbi yolla həlli yoxdur" deyir, amma sülh danışıqlarını dalandan çıxarmaq istəmirlər; status-kvo köhnə-yeni risklərlə növbəti ilə adlayır...

yazısı səh.13-də

## Antiterror tədbirlərinə qanunvericilikdən başlanıldı

# TERROR BAKIDA - İQTİDAR QANUNLARI SƏRTLƏŞDİRDİ...

Parlament məscidlərdəki dini bayraqları qadağan etdi; xaricdə dini təhsil alan şəxslərin dini mərasim və ayinləri icra etməsi yasaqlandı; dini ekstremizm, yaxud dövlətin konstitusiya quruluşunun zorla dəyişdirilməsinə qarşı mübarizədə polisin səlahiyyətləri artırıldı; bundan sonra dövlətə qarşı çıxanlar Azərbaycan vətəndaşlığını itirməli olacaq; MM-də Rəsulzadənin təhqir edilməsi də müzakirə olundu




yazısı səh. 5 və 12-də

## Bakı-Ankara müttəfiqliyi yeni mərhələdə - dostlar məmnun, düşmənlər məyus...

Əhməd Davudoğlunun səfəri iki ölkə arasında əlaqələri daha yüksək səviyyəyə qaldıracaq; Bakı mesajlarından Türkiyə-Azərbaycan tandeminə qarşı olanların hamısına, o cümlədən Rusiya və Ermənistana məxsusi pay düşür...

yazısı səh.8-də

## Redaktorlar Qarabağ üçün Belçikaya gedirlər

yazısı səh.3-də

## Problemli kreditlər xalqı hara sürükləyir...

yazısı səh.4-də

## "Bakı və Ankaranın daha da yaxınlaşması Kremli qəzəbləndirə bilər"

yazısı səh.9-da

## Yaşlı liderlər yerini gənclərə verərsə..

yazısı səh.3-də

## "Dedi ki, siz məni görməmisiz, mən də sizi..." - Naqiflə dalaşan jurnalist xanım

yazısı səh.6-da

*Ceyms Uorlik:*

## "Azərbaycan və Ermənistan prezidentləri dekabrın sonunda görüşə bilərlər"

yazısı səh.8-də

*Deputat Naqif Həmzəyev:*

## "Rəsulzadə tarixi şəxsiyyətdir"

yazısı səh.12-də

## İş adamı Baytarlıq Xidmətində ondan rüşvət tələb edildiyini açıqladı

yazısı səh.12-də

## Güclü tufan "Neft daşları"nda köşkü dənizə atdı: 3 neftçi itkin düşdü

yazısı səh.2-də

## Parkomat fırıldağı, evakuasiya təhlükəsi

yazısı səh.15-də

## Xədicə İsmayılın həbsindən bir il ötür

yazısı səh.11-də



*Məşədi Natiq Kərimov:*

## "Tezliklə Nardarandakı məsələlərin bitməsini istəyirəm"

yazısı səh.10-da



*Sahibkar Tufan İbadov:*

## "Eldar Mahmudovun dəstəsi oğlumu oğurlamağa cəhd etdi"

yazısı səh.11-də



*Mübariz Əhmədoğlu:*

## "Rusiyanı çökdürmək ssenarisi hazırlanıb"

yazısı səh.9-da

YENİ MÜSAVAT
N 271 (6299) 5 dekabr 2015



## Ziya Məmmədov Çexiyanın Azərbaycandakı səfiri ilə görüşdü

**Nəqliyyat Nazirliyində Çexiyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Viteszlav Pivonka ilə görüş keçirilib. Bu barədə Nəqliyyat Nazirliyindən oxu.az-a bildirilib. Nəqliyyat naziri Ziya Məmmədov son illər Azərbaycanın nəqliyyat-yol kompleksinin fəaliyyətindən, burada həyata keçirilən layihələrdən, aparılan islahatlardan, əldə edilən nailiyyətlərdən danışıb.**

Daha sonra avtomobil nəqliyyatı və avtomobil yolları barəsində ətraflı məlumat verən nəqliyyat naziri Çexiya ilə Azərbaycan arasında nəqliyyat sahəsində əməkdaşlığın daha da inkişaf etdirilməsində tərəflərin maraqlı olduğunu vurğulayıb.

Azərbaycan - Çexiya iqtisadi əlaqələri barədə məlumat verən V.Pivonka çex şirkətlərinin Azərbaycanda uğurla fəaliyyət göstərdiyini bildirib. İqtisadiyyatın bir çox sahələri ilə yanaşı, nəqliyyat sektorunda da əlaqələrin böyük sürətlə inkişaf etdiyini vurğulayan çexiyalı nazir buna misal olaraq Azərbaycanda magistral avtomobil yollarının tikintisində görülən işləri nümunə kimi qeyd edib.

Görüşdə iki ölkə arasında nəqliyyat sahəsində əməkdaşlıq imkanları, perspektiv layihələr və görülən işlər ətrafında fikir mübadiləsi aparılıb

## Saakaşvili Gürcüstan vətəndaşlığından məhrum edildi

**Gürcüstan prezidenti Georgi Marqvelaşvili ölkənin sabiq başçısı Mixail Saakaşvilinin Gürcüstan vətəndaşlığından məhrum edilməsi ilə bağlı sərəncam imzalayıb. "Report" Gürcüstan KİV-inə istinadən xəbər verir ki, bu barədə məlumatı Gürcüstan prezidentinin mətbuat xidməti yayıb.**

## Cəlilabadda məktəb direktorunun inəklərini oğurladılar

**Azərbaycanda məktəb direktorunun inəkləri oğurlanıb. Musavat.com xəbər verir ki, hadisə Cəlilabad rayonunda baş verib. Rayonun Günəşli kənd 2 saylı orta məktəbinin direktoru Kəramət Həsənovun 4 baş inəyini oğurlayıblar.**

Oğrular məktəb direktorunun inəklərini evinin həyətindəki tövləsindən aparıblar. Gecə saatlarında baş verən oğurluqdan məktəb direktoru səhər xəbər tutub. Bir neçə gün əvvəl baş verən oğurluq hadisəsi ilə bağlı polisə məlumat verilib. Lakin hələlik inək oğrularından xəbər yoxdur.

Qeyd edək ki, Cəlilabadda bu cür oğurluq hadisələri tez-tez baş verir. Əsasən də ilin bu mövsümündə. Keçən il də bu mövsümdə rayonda 6-7 iri və xırda buynuzlu heyvanların oğurlanması hadisələri baş vermişdi.

❑ **İlkin MURADOV**

## Güclü tufan "Neft daşları"nda köşkü dənizə atdı: 3 neftçi itkin düşdü

**Dünən saat 12:30 radələrində "Neft Daşları" NQÇİ-nin 501 nömrəli özülündə qəza baş verib. Virtualaz.org SOCAR-ın saytına istinadən bildirir ki, güclü tufan nəticəsində dalğalar estakada döşəməsini üstündəki yaşayış köşkü ilə birlikdə uçurub dənizə atıb. Hadisə baş verərkən buxar aqreqatının maşinisti 1971-ci il təvəllüdlü Cavad Xudaverdiyev, səyyar aqreqatın motorçuları - 1961-ci il təvəllüdlü Bəhmən Cəfərov və 1974-cü il təvəllüdlü Rövşən Məmmədov köşkdə olublar.**

Dənizdə operativ axtarış işlərinə başlanılıb. Güclü küləyin yaratdığı maneəyə baxmayaraq hazırda itkin düşən neftçilərin axtarışı Fövqəladə Hallar Nazirliyinin vertolyotu, həmçinin Xəzər Dəniz Gəmiçiliyinin "Vixr-9" yanğınsöndürən gəmisi, "Avyor" dalğıc gəmisi və "Samir Quliyev" yedək gəmisi ilə davam etdirilir.


## "Qaya Mətbuat Yayımı" MMC!

**- İtənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı sldıqdan sonar abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan**
**"Yeni Mesavat" - 0.40 AZN**
**və bundan əlavə 2500 adda yerli**
**və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,

**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur:


# Rəsulzadənin büstünün başına keçirilən çuval çıxarıldı

**Dekabrın 4-də səhər saatlarında M.Ə.Rəsulzadənin Gəncə şəhəri Dəmiryolçular parkında qoyulmuş büstünün başına keçirilmiş çuval səhər saatlarında çıxarılıb.**

Gəncə Şəhər İcra Hakimiyyətinin əməkdaşları səhər parka gələrək çuvalı çıxarıblar.

Rəsulzadənin büstünün üzərindəki çuval bir neçə il önə keçirilmişdi. Parça ilə bükülmüş büst M.Ə. Rəsulzadənin Gəncədəki yeganə büstüdür. Bu torbanın əvvəlcə parkda aparılan təmir işləri ilə bağlı keçirildiyi deyilirdi. Lakin aradan uzun müddət keçməsinə baxmayaraq çuvalın çıxarılmaması qalmaqala səbəb olmuşdu.

Azərbaycan Xalq Cumhuriyyətinin qurucularından biri olan Məhəmməd Əmin Rəsulzadə son günlər ictimaiyyət arasında daha çox müzakirə mövzusuna çevrilib. Buna səbəb isə Milli Məclisin yeni seçilmiş gənc deputat Naqif Həmzəyevin onun haqqında dediyi sözlərdir. Bu, yalnız cəmiyyətdə deyil, həm də deputat həmkarlarının ciddi narazılığı ilə qarşılanıb. Buna hökumət təmsilçiləri də ciddi reaksiya verdilər.

Bu olaydan sonra çuval öndərin büstü üzərindən götürülüb.





## Nardaranda tutulanların çoxunun adı məlum oldu

**Noyabrın 26-da, dekabrın 1-də və 2-də polisin Nardaran qəsəbəsində keçirdiyi əməliyyat zamanı tutulan şəxslərin əksəriyyətinin adı məlum olub.**

Bunlar "Müsəlman Birliyi Hərəkatı" adlı təşkilatın sədri Bağırov Tale Kamil oğlu, Cəbrayılov Rasim Mirzəbala oğlu, Hüseynov Abbas Məmmədbağır oğlu, Xudaverdiyev İbrahim Məhəmməd oğlu, İsmayılov Aqil Azər oğlu, İsmayılov Etibar Rasim oğlu, Tağızadə Abbas Hafiz oğlu, Quliyev Abbas Əbdülrəhman oğlu, Bünyatov Rasim Sərvər oğlu, Nuriyev Əli Həsrət oğlu, Vəliyev Əlibala Cavad oğlu, Cabbarov Cabbar Əmirxan oğlu, Yarıyev Ramin Məhərrəm oğlu, Ağayev Elmar Seydəmir oğlu, Bünyadov Eldar Əliağa oğlu, Şahbazov Atabala Şahbaz oğlu, Babayev Raci Abbasəli oğlu, Hüseynov Əli Hümət oğlu və Quliyev Mehman Əbülfəz oğludur.

Həmin şəxslər barəsində Cinayət Məcəlləsinin bir neçə maddəsi ilə cinayət işi başlayıb. Tutulanların hər biri barəsində dörd ay müddətinə həbs-qətimkan tədbiri seçilib.

Xatırladaq ki, Nardaranda keçirilən əməliyyatlar zamanı 32 nəfər tutulub

## QAT Nardarana işıq və qazın verilməsini tələb etdi

**"QAT kimlərə görə isə Nardaran sakinlərinin cəzalandırılmasını, qəsəbəyə bu günə qədər işıq və qazın verilməməsini qətiyyətlə pisləyir. Bir qrupun qanun pozuntularına, qanunsuz hərəkətlərinə görə minlərlə qəsəbə sakini, o cümlədən uşaqlar, qadınlar, qocalar əziyyət çəkməli deyil".**

Bu fikirlər QAT-ın Nardarandakı vəziyyətlə bağlı yaydığı bəyanatındandır. Qurum hesab edir ki, bu vəziyyətdən, xüsusilə bu soyuq havalarda insanların bu vəziyyətdə saxlanılmasından dövlət başçısının məlumatı yoxdur, ona düzgün məlumat verilməyib: "Çox güman ki, vəziyyətin bu hala çatdırılması məmur özbaşınalığının, bəlkə də həddindən artıq "xidmət" göstərmək istəyinin nəticəsidir. Xüsusi olaraq qeyd etməliyik ki, Nardaran sakinləri Qarabağ müharibəsində fəal iştirak etmiş, onlarla şəhid vermişlər. Qəsəbənin ağsaqqalları daim cəbhə bölgəsində olmuş, əsgərlərə mənəvi və maddi dəstək vermişlər. Onlar bu gün də QAT-ın sıralarında mübarizələrini davam etdirirlər. Bu insanlara qarşı diqqətli olmaq gərəkdir".

**QAT bəyan edib ki, hüquq müdafiəçiləri də məsələyə bu qədər susqun qalmamalıdır:** "Hesab edirik ki, hüquq müdafiəçiləri monitorinq qrupu yaratmalı, qəsəbədə insan haqlarının vəziyyəti ilə bağlı monitorinq aparmalıdırlar. İstənilən bir şəxsin, hətta hansısa erməninin haqqının cüzi şəkildə pozulmasına dərhal reaksiya verən hüquq müdafiəçilərimizin minlərlə nardaranlının işıqsız, qazsız qalmasına, digər təzyiqlərə məruz qalmasına bu cür biganəliyi başadüşülən deyil. Biz hesab edirik ki, dövlət başçısı bu məsələyə müdaxilə etməli, minlərlə insanın ağır vəziyyətdə qalmasına razı olmamalı, vəziyyətdən çıxış yolunun tapılması üçün tapşırıqlarını verməlidir".

QAT sonda xəbərdarlıq edib ki, qəsəbəyə təcili olaraq işıq və qazın verilməsi bərpa olunmasa, bir qrup QAT üzvü Nardarana gedərək orada yerli sakinlərlə birlikdə soyuq evlərdə yaşamağa başlayacaq: "Buna da imkan verməsələr, bizi Nardarana buraxmasalar, öz ofisimizdə aclıq aksiyasına başlayacağıq".

❑ **Cavid TURAN**

## "Günəşli" neft yatağında güclü yanğın olub

**Dünən axşam saatlarında "Günəşli" neft yatağında qaz sızması nəticəsində güclü yanğın başlayıb. Virtualaz.org saytının əldə etdiyi məlumata görə, yanğın yatağın 10-cu platformasında başlayıb. SOCAR-dakı mənbələr faktı təsdiqləyiblər. Ölənlər və xəsarət alanlar barədə hələ məlumat verilmir.**


## "Elm" tədris mərkəzi

**MAGIC LANGUAGES**

➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)

**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05




## Akif Çovdarov üşüyür…

**MTN-in Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin sabiq rəisi, general-mayor Akif Çovdarov istintaq təcridxanasında... üşüyür... Ağır cinayətlər törədən general Bakı İstintaq Təcridxanasındakı saxlama şəraitindən şikayət edir.**

MTN-in zərərsizləşdirilən mütəşəkkil cinayətkar qruplaşmasının ən qəddar personası olan A.Çovdarov ona qarşı irəli sürülən çoxsaylı ağır cinayət ittihamları ilə razılaşmır. Üstəlik, həbsinin "sifarişli və qərəzli olduğunu" iddia edir. Məlumata görə, Akif Çovdarov həbsinin kimlər tərəfindən sifariş verildiyini bildiyini də deyir. Mənbənin bildirdiyinə görə, A.Çovdarov saxlanılma şəraitindən narazıdır, kamerasının "soyuq olmasından" şikayətlənir. Üstəlik, ürəyində, mədəsində ciddi problemlərin olduğunu əsas gətirərək müntəzəm həkim müayinəsi altında saxlanılmasını istəyir.

A.Çovdarova qarşı 308.2 (Vəzifə səlahiyyətlərindən sui-istifadə, bu Məcəllənin 308.1-ci maddəsi ilə nəzərdə tutulmuş əməllər ağır nəticələrə səbəb olduqda və ya seçkinin (referendumun) nəticələrinə təsir məqsədilə törədildikdə), 311.3.1 (Rüşvət alma (passiv rüşvətxorluq), qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən), 311.3.2 (Rüşvət alma (passiv rüşvətxorluq) təkrar törədildikdə), 311.3.3 (Rüşvət alma (passiv rüşvətxorluq) külli miqdarda törədildikdə), 311.3.4 (Rüşvət alma (passiv rüşvətxorluq) hədə-qorxu tətbiq olunmaqla törədildikdə) maddələri ilə ittiham olunur.

Bundan başqa, onun barəsində Cinayət Məcəlləsinin 145.3-cü (Qanunsuz azadlıqdan məhrum etmə, iki və ya daha çox şəxsə qarşı törədildikdə; təqsirkar şəxs üçün aşkar surətdə hamilə vəziyyətində olan qadına qarşı törədildikdə; yetkinlik yaşına çatmayan şəxs barəsində törədildikdə; bir qrup şəxs, qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən törədildikdə; zərərçəkmiş şəxsin həyatı və ya sağlamlığı üçün təhlükəli olan zor tətbiq etməklə törədildikdə; silahdan, yaxud silah kimi istifadə edilən əşyalardan istifadə etməklə törədildikdə, bu əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda) maddəsi ilə də cinayət işi başlanıb.

❑ **E.HÜSEYNOV**

YENİ MÜSAVAT
N 271 (6299) 5 dekabr 2015



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Yaşlı liderlər yerini gənclərə versə...

## Sərdar Cəlaloğlu: “Görün gənclərin idarə elədiyi ölkələr xoşbəxtdir, yoxsa yaşlı adamların idarə elədiyi ölkələr”

**Azərbaycan parlamentinin eks-spikeri, hazırda ABŞ-da yaşayan Rəsul Quliyev bildirib ki, biz əgər demokratiya, hüquq bərabərliyi yolunu seçiriksə, o zaman ölkədə normal müxalifətin olması əsas şərtdir. Lakin müxalifətdəki köhnə siyasi liderlər getməlidirlər: “Onlar yerlərini heç kimə vermədən, sadəcə, istefa verib getməlidirlər.**

Hökumət iki il bundan əvvəlkinə nisbətən, bu gün normal müxalifətin olmasında maraqlıdır. Ona görə onların meydanı tərk etməsi və yerlərini gənclərə verməsi üçün hansısa addımlar atılmalıdır. Məsələn, onlara pensiya kəsilməli, lazımi təminat verilməlidir. Belə olarsa, əminəm ki, bu proses daha da sürətlənər və yeni nəsil müxalifətdə öz yerini tapa bilər ”.

Bəs köhnə siyasi liderlər getsə, yerlərinə gənc siyasətçilər gəlsə müxalifətin vəziyyəti, ölkədə siyasi səhnədə nə olar?

**ADP sədri Sərdar Cəlaloğlu** bildirdi ki, dünya təcrübəsində 50 yaşdan yuxarı siyasətə gələn insanların fəaliyyəti daha çox uğur gətirir. Dünyanın heç bir normal ölkəsində belə bir eksperiment aparılmır ki, yaşlı, təcrübəli siyasi liderlər getsin, yerinə təcrübəsiz uşaqlar gəlsin, guya dövləti xilas edəcəklər: “Azərbaycanda xalq hərəkatından ortaya çıxan siyasi liderlər hələ indi-indi siyasətdə tam iştirak eləmək, səmərəli işləmək yaşına gəlib çatıblar. İkincisi, siyasət bioloji proses deyil, sosial prosesdir. Ağlın, təfəkkürün, şüurun yaşa aidiyyəti yoxdur. Siyasət ictimai şüurun ən yüksək formasıdır. Gərək insan tam yetişsin. Üçüncü amil ondan ibarətdir ki, Azərbaycanda indiki nəsil siyasi liderlər elə bir həyat yolu keçiblər ki, bizdən sonra heç kəs o həyat yolunu keçə bilməyəcək. Bu, Azərbaycanın müstəmləkəçilikdən xilas olması, müstəqil dövlət əldə etməsi, Azərbaycanda demokratikləşmə istiqamətində mübarizə ilə bağlıdır. Bu gün 25 yaşında olan gənc həmin hadisələr vaxtı heç dünyaya gəlməmişdi. Belə bir təcrübəyə malik insanları siyasi səhnədən uzaqlaşdırmaq, təcrübəyə malik olmayan insanları yalnız gəncdir deyə gətirib siyasi partiyalara rəhbər qoymaq Azərbaycanda müxalifəti təcrübəsizləşdirməkdən başqa bir şey olmazdı. Dördüncüsü, demokratiya tələb edir ki, hər bir şey təbii seçmə ilə olsun. Əgər Rəsul Quliyev dediyi kimi, doğrudan da bu gün böyük bacarıqlara malik gənc siyasi liderlər varsa, həmin gənclər hansısa yaşlı siyasi liderin kənara çəkilməsi olmadan da kifayət qədər güc toplayacaq və lider olduğunu sübut edəcək və yaşlı liderin yerini təbii olaraq tutacaq. Yoxsa ki, ”mən çıxım gedim, filankəs, gəl sən lider ol” yanaşması ilə lider yetişəsi deyil. Bu, yanaşmanın tətbiqi müxalifəti daha da ağır duruma gətirib çıxarar”.



Sərdar Cəlaloğlu

**S.Cəlaloğlu onu da dedi ki, siyasətdə naşı olan gəncin müxalifət partiyalarının başına gəlməsinin xeyirdən çox zərəri ola bilər:** “Bəzi adamlara gənclərin dəliqanlılığı, təcrübəsizliyi, hadisələri proqnozlaşdıra bilməməsi lazımdır ki, çaxnaşmalar yaratmaq asan olsun. Ona görə də istəyirlər ki, belə adamlar partiyaların başına gəlsin və hər dəqiqə ölkədə destablizasiya olsun. Biz isə bunu istəmirik. Biz nə qədər çətinliklərlə üzləşsək də, nə qədər məhrumiyyətlərə məruz qoyulsaq da dövlətin saxlanması naminə güzəştli mövqe tuturuq, bəzən addımlarımızı ləngidirik. Dünyanın bir çox ölkələrində vaxtilə gənc siyasətçilərin hakimiyyətə yiyələnməsi həmin ölkələrə heç də uğur gətirməyib. Qəddafi 28 yaşında gəlmişdi. Şimali Koreyanın prezidentinin bu gün 32-33 yaşı var. Bəşər Əsəd 28 yaşında Suriyanın prezidenti oldu. Bu ölkələrin nə gündə olduğu hamıya bəllidir. Təcrübə göstərir ki, çox gənc yaşında lider olan, ölkə başçısı olan insanlar daha çox diktaturaya meyllənir. Bu gün dünyada gənc siyasi liderlərin liderlik etdiyi ölkələrə də baxın, yaşlı, oturuşmuş liderlərin liderlik etdiyi ölkələrin də vəziyyətinə baxın. Görün gənclərin idarə elədiyi ölkələr xoşbəxtdir, yoxsa yaşlı adamların idarə elədiyi ölkələr”.

❑ **Etibar SEYİDAĞA**

# Redaktorlar Qarabağ üçün Belçikaya gedirlər

**Azərbaycanın bir qrup qeyri-idman yazarı olan jurnalisti Avropa Liqasının qrup mərhələsinin sonuncu turunda Belçikada baş tutacaq “Anderlext” - “Qarabağ” oyununda iştirak etmək üçün bu ölkəyə yollanır. Media mənsubları dekabrın 8-də Brüsselə səfər edəcək.**

Oyundan əvvəl jurnalistlər klubun baş məşqçisi Qurban Qurbanovla və komandanın üzvləri ilə görüşəcək, onlara mənəvi dəstək olmağa çalışacaqlar. Eyni zamanda azərbaycanlı jurnalistlərin Belçikada avropalı həmkarları, səfirlik və diaspora nümayəndələri ilə görüşləri də nəzərdə tutulub. Həmin görüşlərdə Qarabağ haqqında məlumatlar görüş iştirakçılarına çatdırılacaq. Jurnalistlər özləri ilə Azərbaycan həqiqətlərini özlərində əks etdirən əyani vəsaitlər də aparacaqlar. Belçikadan olan jurnalistlərlə Azərbaycan KİV təmsilçiləri arasında informasiya mübadiləsi ilə bağlı əməkdaşlıq ələqələri müzakirə olunacaq.

Səfər heyətində təmsil olunan musavat.com saytının şef redaktoru **Xalid Kazımlı** musavat.com-a açıqlamasında öncə heyətin tərkibi barədə məlumat verdi. Dedi ki, heyətdə “Musavat.com”un, “Qafqazinfo”nun, “Aznyus”un, “Azadinfo”nun, “Azxeber.az”ın və başqa saytların şef-redaktorları var. Müsahibimizin sözlərinə görə, səfər xərcini "Azersun Holdinq" ödəyir. X.Kazımlı vurğuladı ki, təşəbbüs onlardan gəlib: “Holdinq ödəməsə, başqa sponsor tapacaqdıq”.



**Xalid Kazımlı:** “İstəyirik təkcə idman tədbiri olmasın, işə bir az siyasət də qataq”



**Elbrus Ərud:** “Demək istəyirik ki, Qarabağın məsələsi təkcə futbol deyil. Bu, həm də ciddi siyasətdir”

**X.Kazımlı jurnalistlərin özləri ilə bayraq aparacaqlarını da vurğuladı:** “Elə bir fikir var. İstəyirik təkcə idman tədbiri olmasın, işə bir az siyasət də qataq. Necə deyərlər, bu səfəri siyasiləşdirək”.

**Səfər çərçivəsində jurnalistlərin səfirlik əməkdaşları, diaspor fəalları ilə görüşləri nəzərdə tutulub. Müsahibimiz imkan taparlarsa, belçikalı həmkarları ilə də görüşəcəklərini bildirdi. Heyətdə qeyri-idman sahəsindən yazan jurnalistlərin olması da diqqət çəkən məqamdır. X.Kazımlı dedi ki, bu heyətin nüvəsi keçən il eyni məramla Kiyevə səfər edən jurnalistlərdən ibarətdir:** “Sadəcə, 4 yeni və gənc həmkarımızı cəlb etmişik. Doğrusu, bu dəfə bütün bu işlərin təşəbbüskarı və icraçısı Elbrus Ərud oldu. Bəzi detalları o bilir. Ancaq gender bərabərliyi pozulub, bilirik, bu dəfə qadın jurnalistlər yoxdur”.

X.Kazımlı səfər çərçivəsində bir günlük Hollandiyaya da baş çəkib qayıtmaq istədiklərini dedi.

**Qafqazinfo.az saytının rəhbəri Elbrus Ərud isə musavat.com-a açıqlamasında bildirdi ki, səfərlə bağlı texniki məsələlər dünən yekunlaşıb. Bu gündən başlayaraq təşkilatı məsələləri və keçirəcəkləri görüşləri də planlaşdıracaqlar:** “Hər şeydən əvvəl deyim ki, heç nə etməsək belə, fakt olaraq siyasi media təmsilçilərinin belə bir səfərə getməsi maraqlıdır. Yəni biz demək istəyirik ki, Qarabağın məsələsi təkcə futbol deyil. Bu, həm də ciddi siyasətdir. Ona görə də düşünürük ki, orada olacağımız üç gün ərzində bir neçə görüş keçirək. İdman jurnalistləri onsuz da həm milli komandanın oyununda, həm də digər klubların çıxışlarında iştirak edirlər. Mən təşəbbüs etmişəm ki, məhz Qarabağ xaricdə oynayanda bir qrup jurnalist getsin. Həm komandaya dəstək olsun, həm də ən azı qayıdanda hərə bir yazı yazacaq ki, bu da həm ölkədə futbola marağı artıracaq, həm də Qarabağ klubu ilə Qarabağ məsələsini ən azı müqayisə edəcək. Bizə qələbə lazım oldu ki, bu, çox maraqlı layihədir. Sağ olsun, ”Azərsun” ki, mənim əsaslandırma məktubumu yüksək qiymətləndirib səfərin maliyyəsini həll etdi”.

Qeyd edək ki, “Qarabağ” klubunun Avroliqa çərçivəsində keçirdiyi səfər oyunlarında qeyri-idman sahəsində çalışan Azərbaycan jurnalistlərinin qrup halında iştirakı ənənəyə çevrilməkdədir. Ötən il ilk səfər Kiyevə təşkil olunmuşdu. Bu səfərlərin təşkilatçısı jurnalistlər özləri olsa da, layihəyə maddi dəstək “Azərsun Holding” tərəfindən verilir.

❑ **Sevinc TELMANQIZI**

# Gülə bilmək xoşbəxtliyi...



**Hüseynbala SƏLİMOV**

**Hətta uşaqlar üçün də elə kitablar, elə əsərlər yazmaq mümkündür ki, uşaq nədir, böyüklər belə onu əllərindən yerə qoymasınlar... Amerika yazıçısı M.Tven haqqında fikirləşəndə ağlıma gələn ilk fikir bu, olur.**

Ona görə də oxuyanda ki, bu həftə onun anadan olmasından 180 il keçir, düşündüm ki, gərək bu haqda bir -iki kəlmə yazım. Əslində mən nə yazıramsa ilk növbədə özümüzdən yazıram. İndi M.Tven də özümüzdən yazmaq, özümüzə boylanmaq üçün bir kiçik bəhanədir və mən sadəcə, bu fürsəti əldən vermək istəmədim...

M.Tvenə gəldikdə isə onunla ilk tanışlığım məktəb illərindən başlayıb və onun oxuduğum ilk əsəri də “Hekliberri Finnin macəraları” olub. Təbii ki, bir az sonra onun əsas əsərini də - “Tom Soyyerin macəraları”nı da tapıb oxudum. Fəqət, elektrik aldığım ilk əsəri Hek Finn haqqındakı kitabı olmuşdu və mən bu günə qədər də həmin əsəri xatırlayıram...

M.Tvenin əsas səciyyəvi cəhəti nə idi? Bəli, o, Amerika cəmiyyətinə, onun həyat tərzinə və qaydalarına, elm və təhsil, hətta düşüncə tərzinə belə gülməyi bacarırdı...

Elə yazıçılar var ki, onlar bir güzgü, ayna kimidirlər. Biz bu güzgüyə baxıb orada əvvəlcə özümüzü görürük. İlk reaksiyamız da bu, olur ki, yəni doğrudan da bu bizlərik? Fəqət, bir azacıq keçir və özümüzü tanımağa, özümüz özümüzə gülməyə başlayırıq...

Düşünürəm ki, bütün xalqların həyatında belə yazarlar olub. Hətta rus ədəbiyyatını götürsək, Tolstoy, Dostoyevski və təbii ki, Saltıkov-Şedrin olub. Elə Azərbaycan ədəbiyyatı üçün də bu, xarakterikdir. Bizim də Mirzə Cəlilimiz, Haqverdiyevimiz olub. İndi bizdə bir xalq kimi yazı keyfiyyətlər varsa, ilk növbədə onlara borclu olmalıyıq...

Onları səciyyələndirən nə idi? Bu adamlar - Mirzə Cəlillər, Haqverdiyevlər öz xalqına heç vaxt həqarətlə, necə deyər, yuxarıdan aşağı baxmırdılar...

Yox, onlar belə deyildilər... Sadəcə, gülə-gülə ağlayır və bizi də əvvəlcə yaxşıca gülməyə, sonra da bir yaxşı-yaxşı düşünməyə vadar edirdilər. Onların bizə verdiyi ən böyük dərs nə idi? Ümumiyyətlə, Mark Tvenlər, Saltıkov-Şedrinlər və Mirzə Cəlillər bizə nəyi təlqin etmək istəyirdilər?..

Mənə həmişə elə gəlib ki, onlar ilk növbədə sevməyi öyrədirdilər. Bəli, sevməyi - öz xalqını, öz insanlarını sevməyi öyrədirdilər. Mən bu adamların əsərlərində nifrət görmürəm...

Niyə gizlədək? Bəzən bizi əhatə edən gerçəklik adamı o qədər bezdirir ki, hər şeyə, özümüzə də, cəmiyyətə də nifrət etməyə başlayırıq...

Amma onlar belə deyildilər. Həm də mənə elə gəlir ki, onlar bu cəmiyyətin dəyişəcəyinə, onun islah olunacağına ürəkdən inanırdılar. İnanmasaydılar bu qədər israrla yazmazdılar, cəhalətlə və geriliklə bu qədər əzmlə vuruşmazdılar...

Hər bir insan, xüsusən də düşünən kəslər üçün əsas da budur: sevmək... Bəli, bir neçə gündür ki, hamı paytaxtın bir kəndində baş verən hadisələrlə yaşayır. Hamı orada nə baş verdiyini anlamağa cəhd edir. Etiraf edirəm ki, ilk baxışda qorxunc fenomenlə üzləşdiyini düşünürsən. Amma bu, bir qədər tanış hadisədir, çünki onun adı cəhalətdir...

Sadəcə, yada salmaq lazımdır ki, belə bir hadisə ilə Mirzə Cəlil, Sabir hər gün rastlaşırdılar. Qorxmurdular, nifrət etmirdilər, onu dəyişməyə və islah etməyə çalışırdılar...

İndi həmin hadisə ilə bağlı deyilən fikirlərə də diqqət yetirirəm. Bir qədər acıq, hətta qəzəb var... Amma buna ehtiyac yoxdur - necə olsa da, nə cür olsa da, həmin kəndin əhalisi də bizim insanlarımızdır. Onlar bizim bir parçamızdı, biz onları artıq bir nəsnə kimi kəsib ata bilmərik...

Cəhalətə qarşı ən böyük silah isə maarifçilikdir, gülüşdür. Özü də xoş məramlı, xoş niyyətli bir görüş... Biz onları da başa düşməyə, anlamağa cəhd etməliyik, əks-təqdirdə nə qədər çalışsaq belə istədiyimizə nail ola bilmərik...

Unutmayaq ki, əsrin əvvəlində az qala bütün Azərbaycan belə idi. Mirzə Cəlillər və Sabirlər o Azərbaycanı dəyişdilər...

Bizə nə olub? Haradadır bizim sözümüzün və məntiqimizin gücü? Doğrudanmı, biz elə bir hadisə ilə qarşılaşmışıq ki, o, Azərbaycanın əvvəlki təcrübəsində olmayıb?..

Bir az əvvəl dedim ki, əsrin əvvəlində bütün Azərbaycan belə idi... Ona görə də çox da dilxor olmayaq. Əsas isə odur ki, gərək, yazı adamları, söz adamları öz missiyalarını - anlamaq və anlatmaq missiyasını unutmasınlar...

YENİ MÜSAVAT
N 271 (6299) 5 dekabr 2015



# Əhməd Davudoğlunun səfəri və bölgədən qovulan Rusiya

Azər RƏŞİDOĞLU

**Rusiya-Türkiyə münasibətlərindəki gərginlik artmaqdadır. Belə bir vaxtda Türkiyənin baş naziri Əhməd Davudoğlu Bakıya səfər etdi. Azərbaycan və Türkiyə strateji müttəfiqlər olduqlarını bir daha sübuta yetirdilər.**

Ə.Davudoğlunun Bakıda Dağlıq Qarabağ münaqişəsi ilə bağlı verdiyi bəyanatlar da diqqəti çəkdi. Görünən budur ki, Türkiyə münaqişənin həllində maraqlıdır. Lakin Moskva ilə “soyuq savaş” yaşayan Ankaranın Qarabağla bağlı Bakıya açıq dəstək verməsi İrəvanla yanaşı Moskvanı da qıcıqlandırır. Kənar baxışla görünən budur ki, münaqişə hərbi əməliyyatlar müstəvisinə keçərsə, bu və ya digər baxımdan Ankara prosesə qatılmış olacaq. Belə olduqda, Ankara-Moskva qarşıdurması daha da dərinləşə bilər ki, Türkiyə bunda maraqlı deyil. Ankara münaqişənin həllində dinc vasitələrin işə salınmasına çalışır. Digər tərəfdən, Türkiyə qlobal layihələrə cəlb olunub və bunların gerçəkləşməsi qardaş ölkənin maraqlarına cavab verir. Enerjidaşıyıcılarına malik olmadığından Türkiyə tranzit ölkə kimi aparıcı rol ala bilər. Bu baxımdan, Cənubi Qafqazda hərbi münaqişənin başlaması Ankaranın maraqlarını zərbə altına qoyur. Daha bir məqam isə ondan ibarətdir ki, Dağlıq Qarabağ məsələsindəki hər hansı bir inkişaf “erməni məsələsi”nin yumşalmasına gətirir. Hazırkı geosiyasi durum Qarabağ münaqişəsi ilə bağlı hər hansı addım hərbi əməliyyatlar təhlükəsini azaldır. Bunun nəticəsində Ermənistan-Türkiyə-Azərbaycan arasında kommunikasiyaların açılması ideyası meydana çıxa bilər.

Türkiyədə keçirilən son parlament seçkilərində AKP iqtidarı daha da möhkəmləndi. İndi AKP-yə diplomatiyada da yeni müttəfiqlər lazımdır. Bu baxımdan, Türkiyə diplomatiyası Rusiyanın Cənubi Qafqazdan qovulmasına yardımçı ola bilər.

Ortaya çıxan iddialara görə, Ermənistan Dağlıq Qarabağda azərbaycanlıların yaşadıqları 6 rayonu mərhələ-mərhələ Azərbaycana qaytarmağa razıdır. Füzuli, Ağdam, Cəbrayıl, Qubadlı və Zəngilanın Azərbaycana qaytarılacağı barədə zondaj xarakterli məlumatlar yayılmaqdadır. Bu məlumatlara inansaq, növbəti mərhələdə Dağlıq Qarabağın statusunu müəyyənləşdirmək üçün region bir müddətliyə müvəqqəti hökumətə veriləcək. Status müəyyən edildikdən sonra Kəlbəcər rayonu da Azərbaycana qaytarılacaq. Buna qarşılıq olaraq Azərbaycan Ermənistanın şose və dəmiryolunu açacaq.

Nəhayət, Ermənistan və Dağlıq Qarabağ arasındakı sərhəd bölgəsinə beynəlxalq sülhməramlılar yerləşdiriləcək. Bu qüvvələrin tərkibində tərəf və müdaxiləçi ölkə kimi Rusiya yer almaya bilər. Bakı, Ankara və Vaşinqtonun çalışdığı da elə budur.

İndi bu sual aktualdır - Qarabağ danışıqları ilə bağlı ziddiyyətli məlumatlar haradan qaynaqlanır? Məsələ ondadır ki, Dağlıq Qarabağ münaqişəsi həll edilməmiş Türkiyə-Ermənistan münasibətləri normallaşarsa, bu, əlbəttə ki, Bakı-Ankara münasibətlərinə mənfi təsir göstərəcək. Ona görə də Türkiyə bu və ya digər dərəcədə Dağlıq Qarabağ münaqişəsinin həllində hər hansı irəliləyişin baş verməsində maraqlıdır ki, Ankara-İrəvan münasibətlərinin yaxşılaşması Bakı-Ankara əlaqələrinə mənfi təsir göstərməsin. Bu gün Türkiyənin Ermənistanla münasibətləri normallaşdırması yönündəki addımlarla müqayisədə Azərbaycan üçün daha təhlükəlisi Ankara və Moskva arasındakı yaxınlaşması ola bilərdi. Türkiyə və Rusiya münasibətləri isə gərginləşməkdə davam edir.

Parlament seçkilərindən sonra Ankaranın Rusiyadan uzaqlaşması ehtimal edilən idi. Bunun obyektiv səbəbləri də var. Rusiya ilə münasibətləri pozulan Türkiyə həm də islam, xüsusən türk dünyasına yaxınlaşa bilər.

Ankaranın türk-islam dünyasının liderinə çevrilmək cəhdləri də mövcuddur. Hər iki vektorda dəyişmələr Azərbaycan üçün ciddi suallar ortaya çıxarır. Bakı sona qədər qardaş Ankaranın yanında olacaqmı? Milli maraqlarımız münasibətlərin daha da istiləşməsini tələb edir.

Rusiya isə tarana gedir və Türkiyəni də öz təsir dairəsinə salmaq üçün hətta silaha əl atacağını açıqlayır. İstisna deyil ki, Bakıda keçirilən görüşlərdə Ə. Davudoğlu bu məsələni də müzakirə edib. Bakının mövqeyi Ankara üçün vacibdir...

# Problemli kreditlər xalqı hara sürükləyir?

## Ekspertlərə görə, 2016-cı il bank sektoru üçün ağır il olacaq

**Hazırda Azərbaycan əhalisinin ən böyük problemlərindən biri də qaytarıla bilməyən kreditlərdir. Demək olar ki, vətəndaşların böyük əksəriyyətinin bir və ya bir neçə banka kredit borcu var. Əhalinin aztəminatlı hissəsinin nisbətən kiçik, orta təbəqənin isə daha yüksək həcmdə kredit borcu var ki, yaşanan son iqtisadi problemlərdən sonra onların ödənilməsi müşkül məsələyə çevrilib.**

Nəticədə, son məlumatlara görə, ölkə üzrə problemli kreditlərin həcmi 1,6 milyard manata çatıb. Vəziyyət o həddə çatıb ki, kredit borcuna görə dağılan ailələrin, intihar edən şəxslərin, oğurluq hallarının sayı artıb. Banklara olan borcuna görə həm maddi, həm də psixoloji gərginlik yaşayan insanlar bundan çıxış yolu tapa bilmir. Bölgələrdə insanlar kütləvi şəkildə kredit borclarını qaytarmaqdan imtina edir. Bəs görəsən, bu problemin həlli yolu nədir?

“Yeni Müsavat” problemli kreditlər məsələsini gündəmə gətirərək məsələni ekspertlərlə müzakirə edib.

**İqtisadçı ekspert Natiq Cəfərli problemi kreditlərin yaranmasında bankların kredit siyasətini günahkar bilir. Qeyd edir ki, banklarda risk menecmentliyinin zəif olması hazırkı problemin əsas səbəbidir:** “Hər bir vətəndaşın banklara borcunun olması, kredit xəttinin olması normal bir haldır. Ancaq dünya təcrübəsi ilə müqayisə etsək, Azərbaycanda fərq ondan ibarətdir ki, uzun illər boyu manat stabil idi, məzənnə dəyişməz olaraq qalırdı. Manat bahalı bir valyuta idi. Azərbaycan bankları çox asan bir sistem tapmışdılar. Xaricdən aşağı faizlə ucuz kreditlər götürürdülər, əsasən də dollar şəklində cəlb edirdilər. Bu kreditlərin faiz dərəcələri beynəlxalq kredit faizi civarında 5 faizdən artıq olmurdu. Sonradan Azərbaycanda onu manata çevirərək çox yüksək faizlə, bəzən 30-35 faizlə əhaliyə verirdilər. Bəzən istehlak kreditləri xətti ilə, bəzən avtomobil kreditləri xətti ilə bu əhaliyə verilirdi. Əhali də başqa gəlir mənbələri olmadığından bank kreditlərindən istifadə edərək onları ödəməyə çalışırdı. Əhali məişət və digər texniki avadanlıqların alınması, avtomobillərin alınması və sair bu kimi yollarla kreditlərdən istifadə edərək çox yüksək faiz ödəyirdi”.

**Natiq Cəfərlinin sözlərinə görə, bu il baş verən iqtisadi hadisələr bank sektorundakı neqativ halların fəsadlarını ortaya çıxardı:** “İki mühüm hadisə baş verdi və bu sistem ciddi şəkildə pozuldu. Birincisi, təbii ki, fevral ayında olan kəskin devalvasiya idi. Bu bank sisteminə ciddi zərbə vurdu. Bankların xaricdən aldığı ucuz kreditlər birdən-birə 35 faiz bahalaşdı və banklar 35 faiz daha çox kredit cəlb etməyə məcbur oldular. Dollarla kredit alan vətəndaşların da vəziyyəti xeyli dərəcədə ağırlaşdı və problemli kreditlərin həcmi artdı. İkinci önəmli məsələ isə odur ki, iqtisadi aktivlik zəiflədi və ölkənin gəlirləri azaldı. Bu tendensiya gələcəkdə daha da sürətlə davam edəcək. Bu iki önəmli hadisə həm bank sektoruna, həm də vətəndaşlara çox ciddi şəkildə zərbə vurdu. Artıq hər ay problemli kreditlərin həcmi artır, bankların özlərinin ayaqda durma qabiliyyəti getdikcə zəifləyir. Yaxın dövrdə banklarla bağlı problemlərin artdığının, bir çox bankların bağlanmasının və ya birləşməsinin şahidi olacağıq. Bu iki hadisə Azərbaycanda bank sektoruna çox ciddi təsir göstərdi. Azərbaycan vətəndaşları isə illərdir bu sistemə öyrəşmişdilər. Bəzi insanlar bir bankdan aldıqları krediti digər bankdan alınan kredit hesabına bağlayaraq yenidən borc alırdılar. Bankların özündə də risk menecmenti çox aşağı səviyyədədir.

Xarici ölkədə kredit verilməsində problem yaranmaması üçün həm kredit faizləri aşağı faizdən götürülür, həm də vətəndaşların kredit tarixçəsi yaradılır. Vaxtında krediti ödəyən vətəndaşa ucuz faizlə kredit təklif olunur. Yəni vətəndaşın kredit tarixçəsi nə qədər yaxşıdırsa, faiz bir o qədər az olur. Bizdə isə belə bir təcrübə yoxdur. O səbəbdən Azərbaycanda 2015-ci ilin əvvəlində problemli kreditlərin həcmi 900 milyon manat idisə, indi 1,6 milyard manata çatıb. İlin sonuna qədər bunun yenə də artacağı gözlənilir. Artıq proses idarəolunmaz hal alıb və bank sektorunun çökməsi ilə nəticələnə bilər. Təəssüf ki, hökumət də bunun həlli üçün bir addım atmır, problem zamanın axarına buraxılıb və getdikcə dərinləşir. 2016-cı il bank sektoru üçün ağır il olacaq".



Natiq Cəfərli



Əkrəm Həsənov

**Vəkil Əkrəm Həsənov isə banklarla hüquqi mübarizə müstəvisində vətəndaşların da bir çox hüquqlarının olduğunu vurğuladı:** “Ümumən götürəndə vətəndaşların müflisliyi haqda qanun qəbul edilməlidir. Həmin qanuna əsasən kreditini qaytara bilməyən şəxslərin krediti silinməlidir. Həmin vətəndaşlar müflis elan olunmalıdır. Bu o deməkdir ki, vətəndaşdan heç kəs heç nəyi tələb edə bilməz. Amma bütün müflislərin siyahısı hamıya elan olunmalıdır. Məsələn, internet saytda. Yəni qoy hamı bilsin ki, bu adamlar müflis olublar və onlara borc verməkdə ehtiyatlı olsunlar bundan sonra. Bu qayda bütün qabaqcıl ölkələrdə var. Bu yaxınlarda Rusiyada da tətbiq olunmağa başladı. Dediyim məsələ bütün kreditlərə aiddir: həm manat, həm də xarici valyutada”.

**Dollarla götürülən kreditlərin ödənilməsində yaşanan çətinliyə gəlincə, Əkrəm Həsənov qeyd etdi ki, bu məsələ Konstitusiya Məhkəməsinin qərarı ilə tənzimlənməlidir:** “Konkret olaraq xarici valyutaya gəldikdə, bu ilin may ayında Konstitusiya Məhkəməsi banklara tapşırıb ki, maliyyə imkanları daxilində vətəndaşların marağına uyğun güzəştlər etsinlər. Lakin təəssüf ki, banklar icra etmir bunu. Buna görə də bu məsələnin icrası təmin olunmalıdır, o cümlədən məhkəmə yolu ilə. Vətəndaşlar haqqını tələb etməlidir. Bu məsələnin başqa həll yolu da var: hökumət devalvasiya həddində (35%) vətəndaşların xarici valyutadakı borcunu qismən özü bağlaya bilər. Amma yəqin ki, indiki durumda büdcə bunun öhdəsindən gəlməz. Nəhayət, vətəndaşlar özləri də fəal olmalıdır. Kredit müqavilələrinin 99%-də banklar qanunları kobud şəkildə pozublar. Müqavilələrə qanunsuz müddəalar daxil ediblər. Həmin müqavilələri tam etibarsız da hesab etdirmək olar və ya ən azı məhkəmə yolu borc məbləğini azaltmaq olar. Sadəcə, problem odur ki, bunun üçün vətəndaşlara peşəkar hüquqşünas yardımı lazımdır. Buna da pulları yoxdur. Çıxış yolu vətəndaşların birləşməsidir. Məsələn, bir banka borcu olan 40-50 nəfər birləşib bir hüquqşünas tuta bilər. Bu halda hər bir vətəndaşın ödədiyi pul çox olmayacaq. Mənim yanıma demək olar ki, hər gün bu problemlərlə bağlı insanlar gəlir, məktub yazırlar və s. Əksəriyyətinə pulsuz məsləhətlər verirəm, ərizə yazıram və s. Amma hamısını məhkəmədə pulsuz təmsil etmək fiziki cəhətdən mümkün deyil. Ona görə də təklif edirəm ki, birləşin, birgə hərəkət edin. Amma təəssüf ki, bizdə hamı öz problemini ayrıca həll etmək istəyir. Məsələyə ümumi baxış, birləşmə olmasa, problem qalacaq”.

**Ekspertin fikrincə, problemli kreditlər həll edilməsə, bu ilk növbədə bank sistemini çökdürəcək, iqtisadiyyatı zəiflədəcək, eyni zamanda insanlarımızın həyatı və sağlamlığı üçün də təhlükə olaraq qalacaq:** “Təəssüf ki, problemli kreditlərin kökü Mərkəzi Bankın banklar üzərində səmərəsiz nəzarətidir. Mərkəzi Bankın rəhbərliyi banklarla qohumluq-dostluq münasibətləri qurub, buna görə gözükölgəlidir. Belə vəziyyətdə nəzarət mümkün deyil. Buna görə də Mərkəzi Bankın rəhbərliyi dəyişdirilməli, sağlamlaşdırma aparılmalıdır. Yeni rəhbərlik pis bankların lisenziyasını geri almalıdır. Sağlam banklar qalmalıdır. Onlara dövlət kömək də edə bilər sonra. Yoxsa indiki Mərkəzi Bank rəhbərliyi ilə əhalinin bank sisteminə etimadı get-gedə tam itəcək”.

❑ Nərgiz LİFTİYEVA

YENİ MÜSAVAT
N 271 (6299) 5 dekabr 2015

# Antiterror tədbirlərinə qanunvericilikdən başlanıldı

# İqtidar qanunları sərtləşdirdi - bundan sonra...

## Parlament məscidlərdəki dini bayraqları qadağan etdi; xaricdə dini təhsil alan şəxslərin dini mərasim və ayinləri icra etməsi yasaqlandı; dini ekstremizm, yaxud dövlətin konstitusiya quruluşunun zorla dəyişdirilməsinə qarşı mübarizədə polisin səlahiyyətləri artırıldı; bundan sonra dövlətə qarşı çıxanlar Azərbaycan vətəndaşlığını itirməli olacaq



**Milli Məclisin 4 dekabr tarixli plenar iclası parlament sədrinin 1-ci müavini Ziyafət Əsgərovun sədrliyi ilə keçirildi və çox gərgin müzakirələrlə yadda qaldı. Nardaran hadisələrindən sonra qəbul olunması birmənalı şəkildə zərurətə çevrilən "Dini ekstremizmə qarşı mübarizə haqqında" qanun layihəsini deputatların müzakirəsinə İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov təqdim etdi. O, məruzəsində bildirdi ki, Azərbaycanda dini modelin ən düzgün forması mövcuddur:**

"Azərbaycanda dövlət həmişə dinin yanında olub və yanındadır. Başqa ölkələr bu sahədə bizə qibtə edə bilər. Lakin bəzi hallarda görürük ki, dini pərdə altında bəzi dövlətlərin ideologiyaları Azərbaycana ixrac olunmaqdadır. Qanunun əsas məqsədi bu ideologiya ixracının qarşısının alınması, Azərbaycanda klassik İslam modelinin saxlanmasıdır. Əvvəllər insan hüquqları adı altında müxtəlif ölkələrdə məkrli niyyətlər həyata keçirməyə çalışıblar. İndi isə bəziləri din pərdəsi altında bunu həyata keçirməyə çalışırlar. Bu qanunla belə hərəkətlərin qarşısını almağa çalışırıq".

**S.Novruzov dedi ki, belə bir qanun xeyli əvvəldən qəbul edilməliydi:** "Xaricdə oxuyanlardan bəziləri sonradan Azərbaycana qayıdıb dini ekstremizmlə məşğul olurlar. Belə halların qarşısı alınmalıdır". Komitə sədri Azərbaycanda min nəfərə qədər gəncin xaricdə ayrı-ayrı ekstremist qruplaşmalarda iştirak etdiyini də vurğuladı.

**Deputat Zahid Oruc çıxışında bildirdi ki, dini ayinlər zamanı yığılan vəsaitlərin hesabatını aparmaq lazımdır:** "Dünyada terrorizmlə fəal mübarizə gedir və terrorizmin maliyyələşdirilməsi özü bir cinayətdir. Düşünürəm ki, bütün ziyarətgahlarda toplanan ianələrin hesabatı aparılmalıdır. Nə qədər vəsait yığılır, nə qədər xərclənir, məlum deyil. Deyilənlərə görə, təkcə Nardaranda dini ayinlər zamanı bir milyon manata yaxın pul yığılıb. Göründüyü kimi, bu vəsait qəsəbənin inkişafına deyil, terrorizmin maliyyələşdirilməsinə və silah alınmasına sərf edilir".

**Deputat Musa Qasımlı da təhlükənin miqyasının geniş olduğunu bildirdi:** "Əgər vaxtında tədbirlər görülməsə, bir gün cümə namazından çıxdıqdan sonra radikal dini qüvvələrin arasında çox ciddi qarşıdurmaların şahidi olarıq". Deputat vaxtilə Marqaret Tetçerin "Şah niyə devrildi" sualına özünün verdiyi cavabını xatırlatdı. Tetçer Şahın devrilməsinin birinci və əsas səbəbi kimi məscidlərin siyasiləşməsini göstərib: "Ona görə də məscidlərin siyasiləşməsinə qətiyyən yol verməK olmaz, məscidlər dini ibadət yerləridir".

**Fazil Mustafa "gərək bu qanunu vaxtında qəbul edəydik" deyə bildirdi:** "Dövlət üçün ekstremizmin təhlükəli üç növü var: siyasi ekstremizm, etnik separatizm və dini ekstremizm, sonuncu ən təhlükəlidir. Təklif edirəm ki, yaxın zamanlarda siyasi, etnik və dini ekstremizmə qarşı mübarizə barədə qanunu qəbul edək".

**Fəzail Ağamalı bildirdi ki, bu qanunun İslamla bağlılığı barədə söylənilənlər yolverilməzdir:** "Məgər İŞİD-i İslam yaradıb? Tale Bağırzadənin İslama nə aidiyyəti var? Xahiş edirəm ki, kimlərsə bu qanunun guya İslama qarşı olması barədə yozmalar aparmasınlar".

**Qüdrət Həsənquliyev isə bildirdi ki, kimsə bizi öz dinimizə qarşı çıxmaqda ittiham edə bilməz:** "Mən hakim partiyanın təklif etdiyi bu qanunu dəstəkləyirəm. İndiyədək həm ölkə prezidenti, həm də birinci xanım səviyyəsində İslam və dinimizin qorunması istiqamətində böyük addımlar atılıb. Bu addımlar ölkədə yüksək qarşılanıb. Hesab edirəm ki, biz İslamı gözdən salanları ifşa etməliyik və dinimizi qorumalıyıq. Nardaranda gizlənmiş bir qrup şəxs dinimizi gözdən salmağa çalışırdı".

**Deputat təklif etdi ki, qanunun müvafiq bəndində jurnalistlərin hüquq-mühafizə orqanları tərəfindən operativ şəkildə lazımi məlumatlarla təmin olunması da əks olunmalıdır:** "Çünki jurnalist hər hansı keçirilən əməliyyatla bağlı dəqiq bilə bilməz ki, hansı məlumat dövlət sirridir, hansı məlumat isə yox. Bunu yalnız hüquq-mühafizə orqanlarının aidiyyəti şəxsləri bilə bilər. Ona görə də hesab edirəm ki, jurnalistlər lazımi məlumatlarla operativ olaraq təmin olunmalıdır".

**Vitse-spiker Bahar Muradova qeyd etdi ki, bu qanun və bundan sonra da qəbul olunacaq bu kimi qanunlar İslama qarşı deyil:** "Deputatlarımızdan xahiş edirəm ki, yeni hazırlanan "Dini ekstremizmə qarşı mübarizə haqqında" qanun layihəsini yalnız Nardaranda baş verən hadisə ilə əlaqələndirməsinlər. Kimsə bu qanunu İslama qarşı olmaqda ittiham edə bilməz. Avropada da terror hadisələri baş verir. Bunu açıq şəkildə dinlə əlaqələndirirlər. Burada əsas məsələ din deyil, siyasətdir".

**B.Muradova dedi ki, Nardaranda baş verən hadisələr hər kəsi narahat edir:** "Məsələyə daha geniş və qlobal baxmalıyıq. "Dini ekstremizmə qarşı mübarizə haqqında" qanun layihəsində günün tələblərini əks olunur. Bəzi dövlətlər Azərbaycanda insanları din pərdəsi altında və ya başqa yolla şirnikləşdirirlər və öz ideyalarını həyata keçirmək istəyirlər. Azərbaycan vətəndaşları öz dini inanclarını yerinə yetirərkən, həm də fikirləşməlidirlər ki, Azərbaycan dünyəvi dövlətdir. Din mədəniyyətimizin bir hissəsidir. Dövlət vətəndaşlarının yanındadır və onları bundan sonra bu qanunla daha yaxşı qoruya biləcək. Çalışırıq ki, insanları dini ekstremizmə yuvarlanmaqdan xilas edək".

**Ziyafət Əsgərov isə məscidlərdə siyasi müzakirələrin aparılmasının yolverilməz olduğunu bəyan etdi:** "Nə vaxtdan məscid siyasi diskussiya meydanı olub? Hər birimizin dindən az-çox məlumatımız var. Dindarın siyasətlə nə işi var? Dindar məscidə gedib namaz qılmalıdır, siyasi diskussiyalar, dövlət əleyhinə kampaniyalar aparmalı deyil. Nardaranda hara baxırdın, qara bayraqlar asılıb. Dində bu cür bayraq anlayışı varmı? Burada Quran oxuyan insanlar əyləşib. Onlara müraciət edirəm, Quranda belə hallar varmı? Azərbaycanda yalnız bir bayraq dalğalana bilər, o da üç rəngli Azərbaycan bayrağıdır. Bura müstəqil Azərbaycan dövlətidir və onun öz bayrağı var. Bu bayrağı bizə ötən əsrin 90-cı illərinin əvvəlində ulu öndər Heydər Əliyev qazandırıb".

Bundan sonra bir oxunuşla qanun qəbul edildi.

**"Dini etiqad azadlığı haqqında" Qanuna əlavə və dəyişikliklərin müzakirəsi zamanı deputat Fazil Mustafa bildirdi ki, layihədə əksini tapan dini bayraq anlayışı yolverilməzdir:** "Sən niyə başqa bayraqdan istifadə etməlisən? Bu dövlətin bir bayrağı var, xoşun gəlmir, çıx, get bu ölkədən!"

**Deputat Qənirə Paşayeva dedi ki, qanunda yalnız İslam dinindən söhbət getməməli, bu sözü dini ayin və mərasimlər ifadəsi ilə əvəzləmək lazımdır:** "Qanundan bayraq ifadəsini isə ümumiyyətlə çıxartmaq lazımdır. Vahid İslam və ya İslam dini bayrağı anlayışı yoxdur. Hərə İslam bayrağı adı ilə müxtəlif bayraqları dini ibadət yerlərindən, dini mərasimlərin, tədbirlərin keçirildiyi yerlərdən asır. Bizim dövlət bayrağımızda müsəlman ölkəsi olmamız, İslam dini yaşıl rənglə özünün əksini tapıb. Ona görə də dini ibadət yerlərində, dini mərasimlərin keçirildiyi yerlərdə də dövlət bayrağımız asılmalıdır, başqa bayraqlar deyil".

**Deputat Tahir Kərimli müzakirələr zamanı konkret təklifi olanların da dinlənilməsinin arzuolunan olduğunu dedi və əvvəlki qanunun müzakirəsində ona söz verilməməsindən şikayətləndi:** "3 minə yaxın vətəndaşımız xaricdə təhsil almağa göndərilib. Dövlətə qarşı kim təbliğat aparırsa, ona qarşı mübarizə aparılmalıdır, xaricdə təhsil alıb-almamasına baxmayaraq".

**Gənclər və idman komitəsinin sədri Fuad Muradov gənclərin müxtəlif təriqətlərə cəlb olunması məsələsinə toxunaraq bildirdi ki, qanunla bu cür hərəkətlərin qarşısı alınacaq:** "Əminəm ki, biz bu qanunla digər dinlərin təsiri altında olanların Azərbaycanda dağıdıcı fəaliyyətlərinin, gənclərin müxtəlif bilinməyən təriqətlərə cəlb olunmasının qarşısını alacağıq".

İclasda iştirak edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı dedi ki, İslamda yaşıl rəngdən söhbət gedir, o da bizim bayrağımızda əksini tapıb. Bu mənada, biz də qanuna dini ibadətgahların qarşısında başqa atributların asılmasını qadağan edən müddəa əlavə edə bilərik.

Dəyişikliklərdən sonra dini ayin və mərasimlərin aparılmasının yalnız Azərbaycanda dini təhsil almış şəxslərə həvalə edilməsi barədə dəyişiklik qəbul edildi.

Bundan sonra "Polis haqqında" Qanuna əlavələr təsdiqləndi. Dəyişikliklər terrorçuluq və ya dini ekstremizm, yaxud dövlətin konstitusiya quruluşunun zorla dəyişdirilməsi ilə bağlı cinayətlərin qarşısı alındığı zaman polisə silahdan birbaşa istifadəyə imkan verilir.

"Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" qanun layihəsini Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli təqdim etdi. Qeyd edək ki, layihəyə əsasən Azərbaycan Respublikası vətəndaşlığının itirilməsi ilə bağlı 18-ci maddəyə yeni əlavələr edilib. Beləliklə, Azərbaycan vətəndaşı terror fəaliyyətində iştirakı və AR Konstitusiya quruluşunun zorla dəyişdirilməsi hərəkətlərinin həyata keçirilməsi və Azərbaycan vətəndaşının dini ekstremist fəaliyyət və ya dini təhsil adı altında xarici dövlətdə hərbi təlim keçməsi, düşmənçilik zəminində dini məzhəblərin yayılması və ya dini ayinlər adı altında xarici dövlətdə dini münaqişələrdə iştirak etməsi və ya həmin fəaliyyətə digər şəxsi cəlb etməsi, yaxud bu məqsədlə silahlı qrup yaratması Azərbaycan vətəndaşlığının itirilməsi ilə nəticələnir.

**Deputat Qüdrət Həsənquliyev bu məsələnin gündəlikdən çıxarılmasını təkidlə xahiş etdi. Bildirdi ki, düzəliş ölkə konstitusiyasına ziddir:** "Konstitusiyanın 53-ci maddəsinə əsasən kimisə vətəndaşlıqdan məhrum etmək olmaz və qanun layihəsi müzakirədən çıxarılmalıdır". Deputat konstitusion dövlətə qarşı çıxış edən şəxslərə qarşı silah tətbiqinə səs verən deputatların özlərinin konstitusiya maddəsinə zidd qanun qəbul etməsini yolverilməz saydı.

**Ziyafət Əsgərov isə bildirdi ki, Konstitusiyanın 53-cü maddəsinə görə, heç kəs heç bir halda kəs vətəndaşlıqdan məhrum edilə bilməz:** "Burada da söhbət vətəndaşlıqdan məhrumetmədən getmir. Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Qanunun 18-ci maddəsində də vətəndaşlıqdan məhrumetmədən yox, vətəndaşlığı itirmədən söhbət gedir". Ə. Hüseynli də 1-ci vitse-spikerin dediklərini təsdiqlədi.

Qanun layihəsi səsverməyə çıxarılaraq 2 nəfər əleyhinə olmaqla, qəbul edildi.

Əli Hüseynli İnzibati Xətalar Məcəlləsinə edilən dəyişiklikləri də nəzərə çatdırdı. Layihəyə görə, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi səbəblər istisna olmaqla, dünyəvi icbari ümumi orta təhsil üzr dərs gününün şagird tərəfindən 1 ay ərzində 7 gündən çox buraxılmasına görə 100 manat miqdarında cərimə tətbiq edilir.

**Deputat Elmira Axundova Nardaran hadisələrinə görə Azərbaycan polisinə minnətdarlıq etdi. Bildirdi ki, terrorçuluqla mübarizədə Azərbaycan hüquq-mühafizə orqanlarının əməkdaşları qəhrəmanlıq göstəriblər. Lakin layihə barədə danışarkən dedi ki, pul məsələsini məktəbə gətirmək yaxşı deyil:** "Rüşvətlə qarşı yeni təhsil naziri Mikayıl Cabbarov mübarizə aparır. Yuxarı siniflərdə varlı valideynlər məktəb direktoruna əvvəlcədən pul ödəyəcək ki, uşağı rahat repetitor yanına getsin, kasıb təbəqə isə cərimələnəcək. Bunu cərimə ilə həll etmək mümkün olmayacaq. Bunun başqa yolu axtarılmalıdır".

E. Axundova dedi ki, pul cərimələri neqativ halların çoxalmasına və alverə gətirib çıxardacaq.

**Q.Həsənquliyev isə dedi ki, Azərbaycanın bəzi bölgələrində və Nardaranda valideynlər övladlarını 4-cü sinifdən dərsə buraxmırlar:** "Guya dinə görə uşaqları yayındırlar. Söhbət gedir ki, bu uşaqlar təhsildən yayınırlar. Elmdə, təhsildə ən inkişaf etmiş ölkələrdə buna görə valideynlik hüququndan məhrum edilirlər. Uşağı təhsil almağa qoymayanda başqa problemlər ortaya çıxır. Cəmiyyət savadlı olmalıdır ki, savadlı qadınlar, savadlı insanlar konstitusiyaya uyğun cəmiyyət qursun".

Dəyişikliklər səsə qoyularaq qəbul edildi.

**Parlamentin iclasında Məhəmməd Əmin Rəsulzadəni aşağılayan ifadələr işlətmiş deputat Naqif Həmzəyevlə bağlı məsələ də müzakirə olundu. Həmçinin Naqif Həmzəyev məsələyə dair mətbuat nümayəndələrinə açıqlama verib. Həmin materialları qəzetimizin 12-ci səhifəsində oxuya bilərsiniz.**

❑ **Elşad PAŞASOY**

YENİ MÜSAVAT
N 271 (6299) 5 dekabr 2015

**Milli Məclisin Gəncədən olan deputatı Naqif Həmzəyevlə bağlı baş verən son qalmaqal cəmiyyətin gündəmindədir. Artıq məsələ Milli Məclisdə də müzakirə olunub. Üstəlik, qalmaqala səbəb olan mövzu - M. Ə. Rəsulzadənin büstünün örtüklə tutulması da həll olunub. Görünən budur ki, mövzu ölkə gündəmində önəmli bir yer tutub.**



# "Dedi ki, siz məni görməmisiz, mən də sizi..." - Naqiflə dalaşan jurnalist xanım

## Naqif Həmzəyevi ifşa edən "Yeni Müsavat"çı Xalidə Gəray hekayəni detalları ilə danışır: "Gəncədə yaşayan ailəmə görə narahatam"

*Biz hadisənin qəhrəmanı, bu sözləri mətbuata və geniş ictimaiyyətə çatdıran "Yeni Müsavat" qəzetinin əməkdaşı Xalidə Gərayla detallı söhbət etdik. Olay səs-küy yaratdığı üçün ortada da çox ciddi suallar var. Hadisənin başlanğıcından, son nöqtəsinə, replikalara, ayrıntılara qədər...*

***- Öncə sənin yolunun Gəncəyə necə düşməsindən başlayaq. Necə oldu ki, bu səfərdə iştirak etdin?***

- "Demokratik İslahatçı Gənclər" İctimai Birliyinin sədri Vüsalə Hüseynli "Səfir olsaydım, Azərbaycanı necə təmsil edərdim", adlı layihə çərçivəsində bir sıra mətbuat orqanları nümayəndələrini Gəncəyə səfərə dəvət etmişdi. Onlardan biri də mən idim.

***- Bəs necə oldu Naqif Həmzəyev həmin tədbirə gəldi və jurnalistlərlə görüşdü?***

- Biz artıq tədbir yekunlaşandan sonra Gəncəni tərk etməyə hazırlaşırdıq. Vüsalə xanım bildirdi ki, icra hakimiyyətindən rəsmi nümayəndə jurnalistlərlə görüşmək istəyir. Sözün düzü, bilmirdim ki, Naqif Həmzəyev yeni seçilən deputatdır. Mən onu icra hakimiyyətinin birinci müavini kimi tanıyırdım. Gəncədəki səviyyəli restoranlardan birində süfrə arxasında əyləşdik. Onunla görüşümüz də həmin restoranda baş tutdu.

***- Restorana sizi kim dəvət etdi?***

- Bizə Vüsalə xanım dedi ki, restorana yemək yeməyə gedirik. Amma orda oturanda mənə məlum oldu ki, süfrəni icra hakimiyyətindən kimsə təşkil edib. Mən artıq süfrəyə əyləşəndə Naqif Həmzəyev süfrə başında idi, həmkarlarımla söhbət edirdi. Özünü təqdim edirdi ki, hansı universiteti bitirib, hansı fəaliyyəti olub. Bildirdi ki, gənclərin, jurnalistlərin dostudur, istənilən sualları cavab verməyə açıqdır. Təhsil haqqında da danışanda bildirdi ki, Gəncə şəhərində tarix fənnindən Bəhram müəllimdən dərs alıb. Mən də bildirdim ki, Bəhram müəllimin ən sevimli tələbələrindən biri də mən olmuşam. *(X.Gəray Gəncədə böyüyüb, təhsilini də orda alıb, 10 il boyunca Gəncə Musiqi Kollecində pedaqoq işləyib -S.T.)*

***- Bəs söhbət necə oldu ki, Məhəmməd Əmin Rəsulzadəyə gəldi və bu səs-küy doğuran fikir səsləndirildi?***

- Naqif bəy süfrədə əyləşənlərə bildirdi ki, istənilən sualı mənə ünvanlaya bilərsiz, mən cavablamağa hər zaman hazıram. Birinci Gəncədə işsizliklə bağlı sualım oldu. Dedim ki, bu şəhərdə işsizlik hökm sürür. Bildirdi ki, bu problemlə bağlı bir neçə layihə və proqramlar işlənir, gələcəkdə bu problem həll olunacaq. İkinci sualım uzun müddətdir ki, narahatçılıq doğuran digər məsələ - Gəncədə Rəsulzadənin büstünün başına torba keçirilməsi ilə bağlı oldu. Sual verdim ki, bu problem niyə həllini tapmır? Sualımdan Naqif Həmzəyev diksindi, onun xoşuna gəlmədi. Bildirdi ki, Rəsulzadənin büstü Gəncənin Dəmir Yolu İdarəsinin ərazisinə aiddir, bu məsələnin bizə heç bir aidiyyəti yoxdur. Sual verdim ki, həmin idarənin Gəncə ilə heç bir əlaqəsi yoxdurmu? Bildirdi ki, "niyə fikirləşirsiz ki, məhz Gəncədə Rəsulzadənin büstü, heykəli olmalıdır? Ümumiyyətlə, mən elə bir lider, tarixi şəxsiyyət tanımıram. Mənimçün bir lider var, o da ümummilli lider. Mənim bu fikrimlə Gəncənin bütün gəncləri razıdır". Bundan sonra çaş-baş qaldım. İstədim ona tarixi xatırladıb deyim ki, Şərqdə ilk demokratik respublikanın... qurucusu Rəsulzadədir. Bu sözü ağzımda qoydu və cümləmi tamamlaya bilmədim. Mübahisəyə başladı ki, "tarixi məndən yaxşı biləcəksiz? Heç bilirsiz o Rəsulzadə cümhuriyyəti qurmaq üçün nələr edib? Yaxşı şəxsiyyət olsaydı, qurduğu respublikanı qoruyub saxlayardı..."

***- Bu mübahisə ikinizin arasında gedirdi? Digər həmkarlar qoşulmuşdu polemikaya?***

- Həmin vaxt ikimizin arasında gedirdi. Mübahisənin qızışdığını görən Vüsalə Hüseynli tez-tez mənə tərəf narazı baxışlarla baxır və söhbəti bitirməmi istəyirdi. Daha sonra isə söhbətə qoşulub bildirdi ki, "əgər Rəsulzadə yaxşı kişi olsaydı, arvadına sahib çıxardı".

***- Müzakirələr zamanı bu cümlənin müəllifinin Naqif Həmzəyev olması barədə rəy daha güclü idi... Deməli, ilk olaraq bunu Vüsalə Hüseynli səsləndirib...***

- Yazımda da qeyd etmişdim ki, bu, kənar müdaxilələr zamanı deyilən fikir idi.

***- Bəs Naqif Həmzəyev bu fikrə hansı formada dəstək verdi?***



Vüsalə Hüseynli

**"Vüsalə Hüseynlinin arqumentlərindən biri də bu idi ki, süfrəni icra hakimiyyəti təşkil edib və biz buna görə mübahisə etməməliyik. Bu situasiyada özümü mənəvi terrordan qorumaq üçün məcburən yazını yazmayacağımla bağlı söz verdim. Amma hesab edirəm ki, bu, məslək və həqiqəti oxucuya çatdırmaq adına deyilmiş müqəddəs yalandır"**



- Bu sözdən sonra Gəncənin hansısa qəzetində çalışan yaşlı bir jurnalist *(X.Gəray onun adını xatırlaya bilmədi-S.T.)* dedi ki, Rəsulzadə bizim nə qədər sərvətimizi talayıb, mənimsəyib. Bunun ardınca da Naqif Həmzəyev dedi ki, "bəli, Rəsulzadə öz ailəsinə sahib çıxa bilməyib, İrəvanı və digər torpaqlarımızı satıb. O, xarici qüvvələrlə də əlaqədə olub, Azərbaycan əleyhinə işlər görüb. Bu barədə tarixçilər daha yaxşı bilir. Əgər siz onlara müraciət etsəniz, onlar həqiqəti sizə deyəcəklər". Bundan sonra Rəsulzadənin ailəsi barədə geniş müzakirə başladı. Artıq jurnalistlər öz narazılıqlarını bildirməyə başladılar. Hətta lent.az saytının əməkdaşı Ləman Mustafaqızı sərt reaksiya verərək bildirdi ki, tarixi şəxsiyyətin şəxsi həyatını müzakirə etməkdənsə onun Azərbaycan üçün xidmətlərini müzakirə edin. Ləman xanım söhbəti daha da böyüdən Gəncədən olan qocaman jurnalistə bildirdi ki, əgər söhbəti davam etsəniz, mən də sizi təhqirə keçəcəm.

***- Belə başa düşdüm ki, mübahisə get-gedə böyüyüb...***

- Bəli. Bundan sonra Naqif Həmzəyev dedi ki, "niyə bu büstün Gəncədə olmasını istəyirsiz? Tarixə baxanda görərsiz ki, Rəsulzadə cümhuriyyəti Gəncədə yox, Tiflisdə qurub". Sonra dedi ki, "qoy bu məsələ ilə müsavatçılar məşğul olsunlar. Müsavatçılardan kimsə Rəsulzadənin büstünün başına torba keçirilməsi ilə bağlı bir dəfə də olsun həmin quruma zəng edib, maraqlanıblarmı? Amma biz YAP-ın üzvləri cümhuriyyətlə bağlı ötən il Gəncənin Gülüstan qəsəbəsində İstiqlal Parkı açmışıq. Hər il 28 Mayı təmtəraqlı bayramla keçirir, küçələrə 10 min adam çıxara bilirik".

***- Mübahisə necə yekunlaşdı?***

- Təbii, bu cür neqativ söhbətdən sonra hamı süfrə arxasından durdu. Naqif Həmzəyev bir neçə dəfə mənə yaxınlaşdı və mənimlə yanaşı, bütün jurnalistlərə bildirdi ki, bu, rəsmi görüş deyildi. Mən sizi görməmişəm, siz də məni.

***- Kontur arqumentlərdən biri də budur ki, jurnalist olaraq sən orda bir qədər emosional davranmısan, mübahisə etmisən, hətta peşə etikasını pozmusan... Doğrudurmu?***

- Doğrudur, mən ora jurnalist kimi getmişdim, amma Rəsulzadə ilə bağlı hədyanlarından sonra Naqif Həmzəyevlə vətəndaş kimi mübahisə etmişəm. Hesab edirəm ki, Naqif Həmzəyevin orada bir azərbaycanlı kimi Azərbaycan Cümhuriyyətinin yaradıcısı Rəsulzadəni aşağılaması böyük yanlışlıq idi. Onun fonunda mənim jurnalist etikasını pozmağım və yaxud da emosional mübahisə etməyim müqayisəyə gəlməz.

***- Mübahisə yaradan daha bir məqam isə sənin orda deyilənləri yazmayacağınla bağlı söz verməndir. Həqiqətən də yazmayacağına söz vermisənmi?***

- Orda jurnalistlərdən biri replika atdı ki, "gəlin Rəsulzadəni də vətən xaini elan edək və bu məsələ bitsin". Mübahisənin kritik həddə çatdığını və həmin an özünün də ciddi səhv etdiyinin fərqinə varan Naqif Həmzəyev bildirdi ki, "bu rəsmi görüş deyildi və qətiyyən bu barədə yazmaq lazım deyil". Orda mənə Vüsalə Hüseynli və ona dəstək verən bəzi həmkarlarım tərəfindən basqılar oldu ki, süfrə arxasında bu cür mübahisə etmək doğru deyil. Hətta Vüsalə xanım dedi ki, bura mübahisə yeri deyil. Əgər jurnalist kimi sualların varsa, başqa yerdə Naqif Həmzəyevə suallarını verib, cavab ala bilərsən. Vüsalə Hüseynlinin arqumentlərindən biri də bu idi ki, süfrəni icra hakimiyyəti təşkil edib və biz buna görə mübahisə etməməliyik. Bu situasiyada özümü mənəvi terrordan qorumaq üçün məcburən yazını yazmayacağımla bağlı söz verdim. Amma hesab edirəm ki, bu, məslək və həqiqəti oxucuya çatdırmaq adına deyilmiş müqəddəs yalandır.

***- Səninlə eyni tədbirdə iştirak edən həmkarlarının bu məsələdəki mövqeyi fərqli oldu. Bu cür qalmaqal barədə yazmayanlar oldu, yazıb da faktı təhrif edənlər də. Onlarla bu barədə danışmısanmı? Həmrəylik nümayiş etdirəcəklərmi növbəti mərhələdə?***

- Ümumiyyətlə, nəyə görəsə Rəsulzadə adından çəkinən həmkarlar var. Fikirləşirəm ki, buna görə onlar bu məsələni yazmadılar. İş yerlərindən ehtiyatlandıqları üçün susqunluq nümayiş etdirənlər də oldu. Olayın bir əvvəli, bir də axırını təsvir edib, faktı təhrif edənlər oldu. Ad çəkmək istəmirəm, amma onları anlayır və seçimlərinə görə incimirəm. Yazını yazdığım üçün mənə təşəkkür edən həmkarlarım arasında həmin tədbirdə iştirak edənlər də vardı. Hətta bildirdilər ki, məhkəmə olarsa, mənə dəstək olmağa hazırdılar.

***- Hazırda çox adamın bizə verdiyi suallardan biri də budur ki, "Yeni Müsavat"ın əlində bu sözlərin deyilməsi ilə bağlı sübutlar varmı?***

- Bəli, var. Özü də hər iki formatda. Sağ olsunlar, tədbirdə iştirak edənlər də bu qalmaqalı qeydə alıb, bizə yollayıblar. Lazım olan mərhələdə də bunu məhkəməyə və ictimaiyyətə təqdim edəcəyik.

***- Ailən, övladların Gəncədədir. Bu cür səs-küylü olaydan sonra onlara görə narahatsanmı?***

- Əlbəttə ki, narahatam. Ailəsi, övladları olanlar bilir ki, bu cür qalmaqallar Azərbaycan kimi ölkədə necə nəticələr verə bilər. Lakin mövzu Rəsulzadə olunca, bunlar arxa plana keçir. Rəsulzadə müsavatçıdır, bu, doğru. Lakin bəzi iqtidaryönlü məmurlar hazırkı müxalifətə, müsavatçılara böyük kin bəsləməklə elə fikirləşirlər ki, Rəsulzadə də müsavatçı olduğu üçün ona bu cür yanaşmaq, hər cür qara yaxmaq olar. Hesab edirəm ki, Naqif Həmzəyevin timsalında baş vermiş bu hadisə həmin şəxslərə ciddi dərs olacaq. Onlar anlayacaqlar ki, Rəsulzadə iqtidarın, müxalifətin, yapçıların, müsavatçıların deyil, güneyli-quzeyli, bütöv Azərbaycanın, türk dünyasının lideri, tarixi şəxsiyyətidir.

❑ **Sevinc TELMANQIZI**

**Heç kəs belə olacağını gözləmirdi. Heç kəs proqnozlaşdıra da bilməzdi ki, belə alınacaq, ölkənin ictimai-siyasi fəal kəsimi bu hadisəyə bu cür reaksiya verəcək, ajiotaj yaranacaq. Bu, həmin gün idi ki, ölkə əhalisinin diqqəti Nardarandaydı. Orada ajiotaj vardı, hər saat yeni xəbərlər gəlirdi və millət o hadisəni müzakirə edirdi.**

**Xalid KAZIMLI**

# Bir müəllimin iki şagirdinin Rəsulzadə qovğası



Birdən-birə, adi bir yazıyla insanların diqqəti Nardarandan Gəncəyə yönəldi, qeyri-rəsmi bir görüşdə baş vermiş qalmaqallı hadisə ölkənin bir nömrəli müzakirə mövzusuna çevrildi.

O yazının müəllifi əməkdaşımız Xalidəydi. Xalidə Gəray.

O da gəncəlidir, özü də doğulma-böyümə gəncəlidir, əsərinin qəhrəmanı gənc deputat Naqif Həmzəyevlə həmyerlidir.

Ən qəribəsi odur ki, onların hər ikisinin tarix müəllimi eyni müəllimdir. Hərəkatçıların da yaxından tanıdığı Bəhram müəllim. Bir dönəm, adı “Yeni Müsavat” olanda, Rəsulzadə firqəsinin də üzvü olub...

Gəl gör ki, onlar şəhərdə xüsusi nüfuza malik müəllimlərindən fərqli dərs alıblar, daha dəqiqi, onun dediyi dərsdən fərqli nəticələr çıxarıblar.

Xalidə hesab edir ki, Azərbaycana müstəqillik bəxş etmiş qurucu liderlərin rəhbəri Məhəmməd Əmin Rəsulzadənin tarixi xidməti danılmamalıdır, şəxsiyyəti barədə artıq-əskik söz işlədilməməlidir.

Naqif Həmzəyev hesab edir ki, müstəqillik tarixi boş şeydir, əsas indidir, ona deputat mandatını indiki rəhbərlər verib, ona görə də o, “tarixi şəxsiyyətləri tanımır”.

Bəlkə də Xalidənin yerində başqa jurnalistlər olsaydı, digər həmkarları kimi o da susub oturardı, dinməzdi, gənc deputat həmyerlisi ilə münasibətini korlamazdı.

Ancaq Rəsulzadənin qurduğu partiyanın adaşı olan qəzetimizin gənc əməkdaşı xoşagəlməz ifadələrin qarşısında susmayıb, dillənməyi vacib sayıb və söhbət böyüyüb deputatla onun dilləşməsinə gətirib çıxarıb.

Əgər Xalidə böyük öndər Rəsulzadəyə sayğısızlıq edən deputatın sözünü kəsmədən, sakitcə dinləsəydi, yenə kimsə deyə bilərdi ki, jurnalistin məkrli niyyəti olub, oturub adamın “özünü yandırmasını” gözləyib, sonradan yazsın, sensasiya yaratsın.

Ancaq elə olmayıb, əməkdaşımız qəlbinin hökmü ilə deputatla mübahisəyə qalxıb, məclisdə pərtlik yaranıb, qalmaqal düşüb.

Məhz bu yerdə gənc deputata yarınmaq istəyən başqa jurnalistlər də söhbətə müdaxilə edib, daha canincədən ifadələr işlədiblər (detalları, həmin replikaları bilirsiniz). Yeri gəlmişkən, “o nə liderdir ki, arvadına sahib çıxa bilməyib” kimi olduqca yaramaz ifadənin müəllifi tədbirin təşkilatçısı Vüsalə Hüseynova olub. Bunu Naqif Həmzəyev deməyib, bu söz onun sözünə qüvvət vermək üçün deyilib.

Söhbət böyüyüb, qalmaqal yaranıb deyə bu hadisəni yazmaq vacib idi. Ona görə ki, bu sözgəlişi dilə gətirilmiş, söhbət əsnasında təsadüfən keçmiş bir söz deyil. Həmzəyev konseptual olaraq dövlətimizin banisini qəbul etmir, ona qarşı hədyanlar işlədir və olduğu dar auditoriyada özünə, sözünə dəstəkçilər tapır.

O dar auditoriyada elə olmuşdu, Xalidə orda təklənmişdi *(ona yalnız bir həmkarımız aktiv, biri də passiv dəstək verib)*, amma söhbət qəzetimizin vasitəsilə geniş auditoriyaya çıxanda Həmzəyev təkləndi.

Budur, dörd gündür ölkənin ictimai-siyasi fəalları ondan danışır, söyür-yamanlayırlar. Həmin yazıya gələn ağır sözlü şərhlərin sayı-hesabı yoxdur. Müzakirələr davam edir. Minlərlə fəal deputatın, obrazlı desək, “kəlləsini” tələb edir, mandatının ləğv olunmasını istəyir.

Bu, hamıya dərs olmalıdır. Tarixi şəxsiyyətlərə, xüsusilə də canını, həyatını, ailəsini vətən uğrunda fəda etmiş, heçdən bir bayraq ucaltmış, dövlət qurmuş adama qarşı nəsə deyəndə hamı sözünün dalını, qabağını fikirləşməlidir.

Bir də heç kəs əbəs yerə yaxa yırtmasın, bütün tariximiz “Azərbaycan” adlı yeganə milli dövlətimizi 1918-ci ildə Rəsulzadənin rəhbərlik etdiyi kişilər yaratmasaydılar, bu gün də dövlətsiz xalq olaraq onun-bunun tapdağı altında qalacaqdıq.

Ona görə də biz bu gün biz onların qaldırdığı bayraqla hər zaman qürur duymalıyıq, xidmətlərinin haqqını verməliyik.

Corc Vaşinqton, Tomas Cefferson, Con Adams, Ceyms Medison, Aleksandr Hamilton, Bencamin Franklin, Tomas Peyn, Con Cey ABŞ üçün kimdirlərsə, bizim üçün də Məhəmməd Əmin Rəsulzadə, Fətəli xan Xoyski, Nəsib bəy Yusifbəyli, Əlimərdan bəy Topçubaşov, Xəlil bəy Xasməmmədov, Həsən bəy Ağayev və başqaları odur.

Tarixi şəxsiyyətlərimizi yanlışları, doğrularıyla qəbul edib, sayğıyla anmalıyıq. Keçmişə nifrət püskürəndə olmur, adamı hoydu-hoyduya götürürlər.

İndi Naqifi müdafiə edənlər də var. Dilində küfr tutulmuş şəxsi necə müdafiə etmək olar? Gəncliyindən, siyasi konyukturaya uyması üzündən səhvə yol verib, ağzının üstünə “şillə alıb”. Buraxın, dərsini də alsın, dəstək verib qızışdıracaqlar, çıxıb, “düz deyirəm, demişəm, əcəb eləmişəm, hələ filan-filan şeylər də eləyib” deyəcək, tamam-kamal badımcanlığa girəcək.

Öz liderinə sayğı göstərilməsini istəyən şəxslər də belə məsələlərdə diqqətli və həssas olsalar, yaxşı olar.

Rəsulzadə barlı ağaclar əkmiş, bağ salmış, ancaq bağının bar-bəhrəsini dadmamış bir bağbandır, müstəqil Azərbaycanın gülünü dərib, meyvəsini yeyə-yeyə bağbana hörmətsizlik edənlər yaxşı-yaxşı düşünsünlər. Nə pis iş görüb o? Nə işiniz var? Nə istəyirsiniz?

# Dinlə bağlı yeni qanun birmənalı qarşılanmır

**Nardaran hadisələrindən sonra ölkəmizdə dini ayinlər, mərasimlər, dini şüarlar və dini bayraqların asılması ilə bağlı qaydalar sərtləşdirildi. Artıq “Dini etiqad azadlığı haqqında” Qanuna ediləcək dəyişikliklər layihəsi parlamentdə qəbul olunub.**

Qanuna əsasən, İslam dininə aid ayin, mərasimlər yalnız Azərbaycan vətəndaşları tərəfindən icra oluna bilər. Xaricdə təhsil alan vətəndaşlarımızın dini ayin və mərasimlər aparmaları qadağan olunub. Əgər bu hal baş verərsə, 1000 manatdan 5000 manata qədər cərimə və ya 1 ilədək azadlıqdan məhrumetmə cəzası nəzərdə tutulur.

Göründüyü kimi, kifayət qədər sərt qərarlardır. Hazırda Azərbaycanda 2166 nəfər xaricdə təhsil alan dini kəsimin nümayəndəsi var. Kifayət qədər ciddi rəqəmdir. Bu şəxslərin xaricdə təhsil almalarında dövlətin böyük rolu var. Belə ki, dövlət bu şəxslərin təhsil almaları üçün kifayət qədər vəsait xərcləyib. Bəzi ekspertlər hesab edirlər ki, bu qərarın müzakirəyə çıxarılması Nardaran hadisələrinin fonunda birbaşa Hacı Tale Bağırzadə ilə bağlıdır. Hacı Tale də xaricdə təhsil alan ilahiyyatçılardan sayılır. O, İranın Qum şəhərində dini təhsil alıb.

Qeyd edək ki, “Dini etiqad azadlığı haqqında” Qanuna edilən dəyişikliklər ictimaiyyətdə heç də birmənalı qarşılanmayıb. Qərar ətrafında ikitirəlik yaranıb. Qərarın əleyhinə çıxanlar lehinə olanlardan qat-qat üstünlük təşkil edirlər. Onlar hesab edirlər ki, ölkəmizdə dini təhsilin səviyyəsi aşağı olduğundan qanuna belə dəyişikliklərin edilməsi doğru deyil.



**Fazil Mustafa:** “Məsələnin bu formada həllində ehtiyatlı olmaq lazımdır”



**Əvəz Zeynallı:** “Dini daha dərindən bilən xaricdən gələnlərdir”

**Deputat Fazil Mustafa qərarı doğru hesab etmədiyini söylədi:** “Əvvəldən belə qərar var idi. İndi daha çox aktuallaşmağa başladı. Qərara münasibətim müsbət deyil. Hesab edirəm ki, Dini Qurumlar üzrə Dövlət Komitəsinin lisenziya vermək hüququ yaradılsın. Bunun əsasında problem öz həllini tapmalıdır. Əks halda, bunu başqa cür həll etmək çətin olacaq. Bu qanunların qəbul edilməsi ilə xaricdə təhsil alanların işdən kənarlaşdırılması cəhdi kimi başa düşülməməlidir. Sadəcə, belə görünə bilər. Burada dini ayin və mərasimlərdən söhbət gedir. Hansısa dini pedaqoji fəaliyyətdən söhbət getmir. Bu şəxslərin xaricdə təhsil almalarında dövlətin çəkdiyi xərclər danılmazdır. Məsələnin bu formada həllində ehtiyatlı olmaq lazımdır. Müəyyən mənada problemlər yaranar. Burada problemlər qalmaqdadır. Çalışılmalıdır ki, məsələ bu qədər şişməsin. Xaricdə təhsil alma ilə bağlı bəzi xoşagəlməz nəticələr ola bilər. Xaricdə təhsil alan dindarla yerli təhsilə yiyələnən dindar arasında ciddi fərq var. Bu baxımdan hesab edirəm ki, bu məsələdə problemlər qalacaq”.

**Dini təhsil almasa da, Türkiyədə ali təhsil alan “Xural” qəzetinin baş redaktoru dini qanunlara edilən dəyişikliklərin əleyhinə olduğunu söylədi:** “Qanuna edilən dəyişiklikdən xəbərim var. Dini sərtləşdirmələrin, cəzalandırmaların, cərimələrin artırılmasının əleyhinəyəm. Xüsusilə xaricdə təhsil alan tələbələrin dini icmaya rəhbərlik etmələrinin qarşısının alınması kökündən yanlışdır. O zaman bu dövlət həmin şəxsləri xaricə niyə göndərirdi? Bu tələbələr İran, Türkiyə və başqa yerlərdə təhsil alanda dövlət niyə maraqlanmırdı? İllərdir biz bu barədə yazırıq ki, dövlət məsələyə əl qoymalı, tələbələri nəzarətdə saxlamalı, bu şəxslərin problemləri ilə məşğul olmalıdır. Biz oxuduğumuz dövrdə də dövlət bizimlə maraqlanmadı. Çox güman ki, indi də elədir. Xaricdə təhsil alan tələbənin ölkəmizdə hər hansı bir dini icma rəhbərliyi tərəfindən uzaqlaşdırılması çox pis bir tendensiyasının əsasını qoya bilər. Çünki dini daha dərindən bilən xaricdən gələnlərdir. Bu şəxsləri uzaqlaşdırıb, yerlərinə kimləri təyin edəcəyik? BDU-nun ilahiyyat fakültəsi bu tələbi yerinə yetirirmi? Azərbaycanda yüksək təhsil verən dini məktəblər yoxdur. Bununla dindən xəbəri olmayan ortada gəzən mollara rəvac veririk. Cəzalandırma asandır. Bunu Tale Bağırzadəyə görə edirlər. Xaricdə təhsil almış dəyərli kadrlar var. Onların bir çoxunu tanıyıram. Hesab edirəm ki, bu, yanlış qərardır. Azərbaycan yanlış bir istiqamətə gedir”.

**Ə.Zeynallı xaricdə oxumuş şəxslərin təhsil almalarında dövlətin rollarından da söz açdı:** “Axı Azərbaycanın yüksək təhsil verən universitetləri yoxdur. Ölkəmizdə din çox bərbad vəziyyətdədir. İslam dini qeyri-peşəkarlar tərəfindən təhrif olunub. Bunun qarşısını almaq üçün xaricdə təhsil almış tələbələrə ehtiyacımız var. Xaricdən gələnlərə etibar etmirsiniz, yerlərdə də kadr yetişdirmirsiniz. Bəs bunların axırı nə olacaq?”

❑ **Cavanşir ABBASLI**



# Beş ayaqlı dana

Zamin HACI
zaminhaci@gmail.com

**Xarici işlər naziri Elmar Məmmədyarovun Belqradda, ATƏT Nazirlər Şurasının iclasında çıxışından bir parçanı oxudum və açığı, o iclasa qatılanlara yazığım gəldi. Örnək üçün, Elmar müəllim orda belə cümlələr işlədib "ATƏT-in daxili tarazlığının üç ölçüsü təhlükəsizlik baxımından pozulub və Avropa qitəsində sülhün qorunub saxlanılmasına dair müfəssəl təhlükəsizlik konsepsiyasının özəyi kimi, iştirakçı dövlətlər arasında ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərin güc tətbiq etmək və ya təhdid etməklə pozulmasından çəkinməyə dair öhdəlik götürülməsinə ehtiyac olması barədə tam konsensus olmuşdur". Necə deyərlər, erməni budaq cümləsi. Bu şəkildə diplomatiya aparmaqla xaricilərı necə tərəfdarımız edə bilərik?**

Halbuki bu cür əlləm-qəlləm cümlədənsə Elmar müəllim qısa və konkret şəkildə belə deyə bilərdi: "ATƏT siyasi dustaqlara azadlıq istəməkdənsə mənim xaricə qaçan səfirlərimi tutub versinlər". *(Özüm qəsdən yanlış cümlə qurdum, hər halda, bunu Elmar müəllimin dediyi bilinməlidir - Z.H.)* Hamı, o cümlədən biz də başa düşərdik nə deyir. Deyəsən Elmar müəllim "diplomatik danışıq" ifadəsini tamam yanlış anlayıb. Diplomatın hər şeyi açıq demədiyi aydındır, amma heç olmazsa örtülü dediyi də anlaşılan qrammatika və leksikonda olmalıdır.

Əlbəttə, çox başımızı ağrıtmayaq, belə səfeh informasiyalarla beynimizi doldurmayaq. Nəyimizə lazımdır ATƏT? Ən düzgün yol rayonlarda dananın beş ayaqlı buzov doğması ilə maraqlanmaqdır. Dünən belə xəbər oxudum, Şamaxıda olmuşdur, çox ürəyim açıldı, çünki çoxdandır bu möhtəşəm hadisə baş vermirdi. Azərbaycanın dünya mədəniyyətinə, dünya tarixinə, dünya informasiya məkanına bəxş etdiyi unikal hadisələrdən biri şübhəsiz ki, danaların beş və ya altıayaqlı buzovlar dünyaya gətirməsidir. O biri hadisə fındıqların və arı pətəklərinin üzərində "İnşallah" yazılmasıdır. Düzü, ikinci hadisəyə son çağlar nəsə az rast gəlinir, şübhəlidir. Ola bilər yaradan bizdən üz döndəribdir, mesaj vermək istəyir ki, əgər siz Nardaran kəndindən polis qüvvələrini çıxarmasınız daha çox qənim olaram.

Ümumiyyətlə, çox kövrək qəlbli camaatımız var. Bizim uşağın müəllimi bunun tipik örnəyi sayıla bilər. Biz valideynlər həmin müəllimlə qorxa-qorxa danışırıq, çünki küsüb gedir. Bir də görürsən müəllimə bir həftə işə gəlmədi, əvəzinə ayrı müəllim göndərdilər. Maraqlanırsan, sən demə, hansısa valideyn bu müəllimdən direktora şikayət eləyib, direktor da *(rəhmətliyin balası, sənə lazımdır bu?)* çağırıb müəllimi yüngülvari danlamışdır. Vəssalam. Bu söhbət müəllimin xətrinə dəydiyi üçün qərara alıb məktəbdən küssün. Hər dəfə belə olanda bütün valideynlər, məktəb kollektivi, məktəbi əvvəllər qurtarmış uşaqlar və onların yeddi arxa dönəni - hamımız yığışıb xahiş-minnətə gedirik, deyirik, itin-qurdun olaq, qayıt yerinə qoy Günəşi, Ayı, qayıt sahmana sal bu kainatı! Vallah, sizə anekdot kimi gələ bilər, ancaq gerçək əhvalatdır. Başqa ölkədə danışsan bəlkə gülərlər, biz isə yaşayırıq.

Elə buna bənzər birisini dünən usta qonşum nəql eləyib. Qonşumun kiçik briqadası var, təmir-tikinti işləri görürlər. Sulutəpə tərəfdə bir hacının *(qonşu bunu xüsusi vurğuladı, bilmirəm qəsdi nə idi, yəqin Nardaran hadisələrindən sonra dövləti sevən hər kəs belə titulları xüsusi qeyd etməyə borcludur)* evini təmir edirmişlər. Xeyli zəhmət haqları yığılıb qalıb, üstəlik hacı ağa bir müddətliyə varıb gedibdir Dubay şəhərinə. Bunlar da əllərində olan materialları işlədib qurtarıblar, dağılışıb gediblər evlərinə. Nəhayət, Dubaydan qayıdan hacı bunlara irad tutub. Deyib gərək hardansa borc tapıb material alaydınız, təmiri dayandırmayaydınız.

Dünəndən bəri hər dəfə qonşumun bu söhbəti yadıma düşəndə gülməyim gəlir, çünki insan həyasızlığına abidə qoymaq lazım gəlsə, yəqin üz hissəsi o hacıdan götürülməli olardı.

İndi söz əlaqədar təşkilatlarındır.

# Bakı-Ankara müttəfiqliyi yeni mərhələdə - dostlar məmnun, düşmənlər məyus...

## Əhməd Davudoğlunun səfəri iki ölkə arasında əlaqələri daha yüksək səviyyəyə qaldıracaq; Bakı mesajlarından Türkiyə-Azərbaycan tandeminə qarşı olanların hamısına, o cümlədən Rusiya və Ermənistana məxsusi pay düşür...



**Türkiyə baş naziri Əhməd Davudoğlunun Bakı səfəri gözlənildiyindən də effektli və əhəmiyyətli oldu. Söhbət qardaş ölkə hökumət başçısının verdiyi olduqca mühüm açıqlamalar və mesajlarla yanaşı, Azərbaycan prezidenti İlham Əliyevin də Türkiyəyə münasibətdə sərgilədiyi adekvat, hətta Moskvada qıcıq yaradacaq qədər cəsarətli mövqeyindən gedir.**

Əhməd Davudoğlu və İlham Əliyevin görüşdən sonrakı mətbuat konfransında səsləndirdikləri bəyanatlar göstərdi ki, iki ölkə münasibətlərinə "Su-24" insidentinə görə gərginləşmiş Ankara-Moskva əlaqələrinin neqativ təsiri olmayıb və gözlənilmir. Əksinə, rəsmi Bakı aydın şəkildə işarə vurdu ki, əsas strateji müttəfiqini nəinki bu məsələdə, digər aktual məsələlərdə də tək buraxmaq niyyətində deyil və müdafiə eləməkdə davam edəcək.

İlham Əliyevin söylədiyi "Azərbaycanla Türkiyə bütün məsələlərdə bir yerdədir" sözləri bu mənada Türkiyənin köhnə-yeni rəqiblərinə açıq xəbərdarlıq mesajı sayıla bilər. Bu mesaj özündə incə şəkildə "Su-24" olayından dolayı situasiyanı da ehtiva edir və Ankaraya qarşı rəsmi Moskvanın 24 noyabrdan sonra səsləndirdiyi ittihamları Bakının rədd eləməsi anlamına gəlir.

Üstəlik, Bakı təkcə sözlə kifayətlənməyəcək, Türkiyənin Rusiyadan enerji asılılığını azaltmaq üçün Ankaranın bütün qayğılarını bölüşəcək, onun yeni planlarında yer alacaq və ya ən azından, bu planlara dəstəkçi olacaq, bu məqsədlə həmçinin TANAP-in inşası sürətləndiriləcək, habelə Rusiyada yasaqlanan Türkiyə malları üçün yeni bazarlar tapılmasına kömək edəcək və s.

Diqqətçəkicidir ki, Davudoğlu Türkiyənin də istənilən məsələdə qeyd-şərtsiz Azərbaycanın yanında, onun düşmənlərinin isə önündə olduğunu bəyan elədi. Bura öncəliklə Dağlıq Qarabağ məsələsinin ədalətli həlli və ölkəmizin təhlükəsizliyinin, müdafiə qabiliyyətinin gücləndirilməsi və hərbi sənayesinin inkişaf etdirilməsi daxildir.

Beləcə, tərəflər gündəmdəki bütün aktual və kəskin mövzular üzrə "qırmızı xətləri" cızdılar ki, bu da səfərin digər mühüm nəticəsi hesab oluna bilər. Əslində "Siam əkizləri" kimi yaxın olan Azərbaycan-Türkiyə tandemi üçün son gəlişmələr təbiidir, normaldır. Ən önəmlisi, yeni situasiyada artıq Moskva da anladı ki, Türkiyə-Azərbaycan müttəfiqliyi quru bəyanatlardan ibarət deyil, uzun müddətədir.

Şübhəsiz ki, o üzdən səfərdən Azərbaycanla yanaşı, Türkiyə tərəfi də məmnun qalacaq. Hər halda, bir daha yəqinlik hasil oldu ki, iki qardaş ölkənin dostluğu, qardaşlığı və strateji müttəfiqliyi regionda və dünyada gedən neqativ proseslərin hamısının, habelə iki ölkə hökumətlərinin maraqlarının fövqündədir, sarsılmazdır, əbədidir.

Bu xüsusda böyük regional güc kimi Türkiyə baş nazirinin **"İşğal altındakı torpaqlarının son qarşı qaytarılanadək Azərbaycanın yanındayıq", "Dünyada heç bir dövlət Türkiyə və Azərbaycan qədər yaxın deyil", "Azərbaycan bayrağı harada dırsa, Türkiyə də orada olacaq"** kimi açıqlamaları indiki qəliz regional durumda və Kremlin təhdidləri fonunda ölkəmiz üçün son dərəcə mühüm əhəmiyyət daşıyır.

Bakı açıqlamaları və mesajları həmçinin Rusiyanın Qarabağa dair hərbi xarakterli müdaxilə planlarına qarşı çəkindirici gücdədir və sərhədlərin qeyd-şərtsiz açılmayacağı barədə Ermənistana açıq mesajdır, paralel surətdə Moskvaya Qarabağ kartından sonsuzadək öz bildiyi kimi istifadəyə imkan verilməyəcəyinə, yeni Qarabağ savaşı başlarsa, Ankaranın tərəddüdsüz Bakının yanında yer alacağı barədə xatırlatma-xəbərdarlıqdır.

***

Əhməd Davudoğlunun Putinə göndərdiyi açıq və sərt mesajlar da Bakıda səslənməsi baxımından ikiqat sanbala malikdir. Baş nazirin Putini ciddi olmağa səsləməsi, onun İŞİD-lə neft alveri mövzusunda ittihamları qətiyyətlə rədd eləməsi, Putini üzbəüz dialoqa çağırması özlüyündə çox şey deyir və qardaş dövlətin heç bir güc qarşısında əyilməyəcəyi, öz nüfuzu ilə siyasi bazarlıq yapmayacağı barədə Kreml də daxil, dünya güclərinə xəbərdarlıqdır.

**Sitat: "15 gün əvvəl ortada olmayan, "Su-24"ün vurulmasından sonra üzə çıxan "Türkiyə İŞİD-dən neft alır" yalanlarından istifadə eləməyin. Əgər belə bir şey var idisə, 15 gün əvvəldən deyərdiniz. Soyuq müharibə dövrünün təbliğatından əl çəkin. Türk və rus xalqları arasında heç bir problem yoxdur və olmayacaq. Buradan Moskvaya və bütün rus xalqına səslənirəm. Rus xalqına qarşı heç bir kin və nifrətimiz yoxdur. Türklər və ruslar Avropa ilə Asiya tarixini birlikdə formalaşdırmış iki böyük xalqdır. Rus xalqı şərəfli xalqdır, biz onlara hörmət edirik. Lakin bilməlidirlər ki, türk xalqı da şərəfli xalqdır və hörmət etdiyi xalqlardan hörmət gözləyir. Putinə çağırış edirəm. Gəlin, məsələləri üz-üzə danışaq...»**

***

Rezüme yerinə qeyd edək ki, baş nazir Əhməd Davudoğlunun səfəri iki ölkə arasında əlaqələrin daha yüksək səviyyəyə keçməkdə olduğunu nümayiş etdirdi. Bu kontekstdə Bakıda verilən mesajlardan Türkiyə-Azərbaycan tandeminə və qardaşlığına qarşı olanların hamısına, ələlxüsus Rusiya və Ermənistana mühüm pay düşür...

❑ **Siyasət şöbəsi**



# Həmsədr: "Azərbaycan və Ermənistan prezidentləri dekabrın sonunda görüşə bilərlər"

**Azərbaycan və Ermənistan prezidentləri arasında görüş bu ayın sonu keçirilə bilər. APA-nın xəbərinə görə, bu barədə ATƏT-in Minsk Qrupunun amerikalı həmsədri Ceyms Uorlik twitter səhifəsində yazıb.**

"Bu ayın sonunda Ermənistan və Azərbaycan prezidentlərinin görüşünün təşkili üçün çalışırıq", - deyə o qeyd edib.

**Türkiyənin baş naziri Əhməd Davudoğlunun dekabrın 3-də Azərbaycana başlanan səfəri başa çatdı. Xarici işlər naziri Mövlud Çavuşoğlunun Bakı səfərindən bir həftə sonra qardaş ölkənin baş nazirinin gəlişi, onun Azərbaycan prezidenti ilə keçirdiyi görüşdən sonra mətbuat konfransında verdikləri açıqlamalarda çox mühüm və tarixi mesajlar var. Əksər siyasi ekspertlər iki qardaş ölkə arasında yeni bir mərhələnin başladığını qeyd edirlər.**

# "Bakı və Ankaranın daha da yaxınlaşması Kremli qəzəbləndirə bilər"

## Ekspertlərə görə, bununla belə, Azərbaycan ən əvvəl öz milli maraqlarından çıxış eləməlidir...

**Politoloq Qabil Hüseynli** hesab edir ki, Əhməd Davudoğlunun səfəri regionda son vaxtlar cərəyan edən sürətli proseslər baxımından dəyərləndirilməlidir. Şübhəsiz ki, bu səfərləri zəruri edən çox ciddi geosiyasi, iqtisadi, strateji amillər də var: "Rusiya-Türkiyə münasibətləri kəskinləşməkdədir. Türkiyə diplomatiyası çox fəal işləyir və bu diplomatiya Rusiya ilə münasibətlərin kəskinləşməsinin qarşısını almaq üçün müxtəlif yollar axtarır. Türkiyədə belə hesab edirlər ki, Azərbaycan Rusiya-Türkiyə münasibətlərindəki gərginliyin səngiməsində müəyyən rol oynaya, barışdırıcı missiyanı həyata keçirə bilər. Bu nöqteyi-nəzərdən Əhməd Davudoğlunun Azərbaycana səfərində yəqin ki, bu məsələlər də müzakirə olunub. Bu səfərin həm də nəbzyoxlama məqamı da var. O da ondan ibarətdir ki, Azərbaycan Dağlıq Qarabağ problemini həll eləmək üçün Rusiya ilə münasibətlərin yüksək inkişafına nail olub. Azərbaycan üçün indi çox kritik məqam yetişib. Türkiyə, hər halda, özü üçün bir daha yəqinlik hasil eləmək istəyirdi ki, Azərbaycan Rusiya ilə kəskinləşən münasibətlərdə hansı rolu oynaya, hansı mövqeni tuta bilər. Türkiyə baş naziri Azərbaycandan dəstək istədi. Azərbaycan prezidenti də Türkiyəyə qardaş ölkə olaraq dəstək verdiyini son bir həftə atdığı addımlarla ortaya qoymuş oldu. Eyni zamanda mətbuat konfransında da bundan sonra hər zaman dəstək verəcəyimiz bəyan edildi. Türkiyənin baş nazirinin Bakı səfərini hər iki ölkə üçün uğurlu sayıram. Bu səfərin nəticələri olacaq".

**Politoloqun sözlərinə görə, Türkiyə Dağlıq Qarabağ probleminin həlli istiqamətində həm beynəlxalq diplomatiyada öz səylərini bir daha Azərbaycana çatdırdı, həm də Ermənistanla sərhədi açmaqla bağlı üzərinə götürdüyü öhdəliklərə sadiq olduğunu vurğuladı. Türkiyə baş nazirinin belə bir mövqeni ortaya qoyması Azərbaycana lazım idi:** "Əgər Azərbaycan Dağlıq Qarabağda antiterror əməliyyatlarına başlasa və Türkiyəni dəvət edərsə, Türkiyənin öz köməyini əsirgəməyəcəyini də yəqin ki, Əhməd Davudoğlu Azərbaycan rəhbərliyinin diqqətinə çatdırıb. Davudoğlunun səfərini Türkiyə ilə Azərbaycan arasında ümumi strategiya formalaşdırılması baxımından xüsusilə səmərəli hesab etmək olar".


Qabil Hüseynli

**Politoloq Elxan Şahinoğlu deyir ki, Türkiyə ilə Azərbaycan arasında indiki mərhələdə münasibətlərin daha da istiləşməsi, Azərbaycanın Türkiyəyə qucaq açması Rusiyanı qəzəbləndirə, Moskva Azərbaycanı hədəf götürə bilər:** "Türkiyə xarici işlər naziri Mövlud Çavuşoğlunun dərhal Azərbaycana səfər etməsi, Türkiyə baş nazirinin Qarabağın azad olunması üçün Türkiyənin addımlar ata biləcəyini bəyan eləməsi artıq Rusiyadakı müəyyən dairələri qıcıqlandırmışdı. Bunun ardınca Azərbaycanın Türkiyənin yük maşınlarına Mərkəzi Asiyaya keçmək üçün şərait yaratması, baş nazirin Bakı səfəri, aparılan müzakirələr Rusiyada müəyyən qüvvələrdə narazılıq yarada bilər. Lakin Rusiya hökuməti anlamalıdır ki, Türkiyə Azərbaycanın hərbi-strateji müttəfiqidir, Türkiyə ilə Azərbaycanı çox ciddi tellər bağlayır, Azərbaycan Türkiyə ilə münasibətləri soyudası deyil. Türkiyə ilə münasibətləri əvvəlki tempdə davam etdirmək lazımdır. Hərbi əməkdaşlığı da proqrama uyğun olaraq həyata keçirmək vacibdir. Rusiya necə qəbul edir-etsin, biz öz milli maraqlarımız nəyi tələb edirsə, ona uyğun addımlar atmaqda davam etməliyik. Türkiyə ilə münasibətlər gərginləşdiyi üçün şübhəsiz ki, artıq Rusiyada Azərbaycanla da münasibətlərə bir az fərqli baxışlar olacaq. Əgər Türkiyə ilə münasibətlər yaxşı olanda Azərbaycanla da münasibətlər yaxşı idisə, Türkiyə ilə sıx əməkdaşlığımıza Moskva normal yanaşırdısa, indi bu münasibətlər Rusiyada müəyyən qıcıq yaradacaq. Son 4-5 gündə Qarabağda cəbhə xəttində əsgər ölümləri ilə nəticələnən atəşkəs pozulması halları təsadüfi sayıla bilməz. Amma Azərbaycan bundan çəkinməməli, öz siyasətini davam etdirməlidir. Bəziləri məntiqsiz fikirlər işlədərək deyirlər ki, Rusiya nüvə dövlətidir onunla hesablaşmaq lazımdır. Rusiya nüvə dövlətidir deyə hər kəs öz maraqlarını qurban verməlidir? Sabah Rusiya Xankəndi hava limanına təyyarəsini endirmək istəsə, biz seyr edib deməliyik ki, Rusiya nüvə dövlətidir, ona baş qoşmayaq? Biz də Türkiyə kimi öz ərazimizi qorumalı olacağıq".

❑ **Etibar SEYİDAĞA**

# "Rusiyanı çökdürmək ssenarisi hazırlanıb"

## **Politoloqdan şok açıqlamalar:** "Gözlənilən müharibə əslində Rusiya-Türkiyə müharibəsindən çox, Rusiya-ABŞ müharibəsi olacaq"

**Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu Ankaranın Rusiyanın Türkiyəyə qarşı tətbiq etdiyi sanksiyalara cavab tədbirləri görməyi planlaşdırmadığını bildirib. Bu barədə Mövlud Çavuşoğlu Belqradda rusiyalı həmkarı Sergey Lavrovla keçirdiyi görüşdən sonra bildirib: "Bu günə bizdə Rusiyaya qarşı cavab tədbirlərinin görülməsinə dair qərar yoxdur".**

Nazir Türkiyə və Rusiya arasında əlaqə kanallarının açıq saxlanılmasının vacib olduğunu qeyd edib.

Rusiya tərəfi isə Türkiyəyə qarşı embarqolarını artırmaqda və hədələr yağdırmaqda davam edir. Prezident Vladimir Putinin dilindən Türkiyəyə qarşı ən sərt ittihamlar səslənir. Rusiyada bütün səviyyələrdə anti-Türkiyə kampaniyası tam sürətlə davam edir, Ankarada isə rəsmi dairələr Moskvanın ittihamlarını arqumentlərlə cavablandırmağa çalışırlar. Türkiyəyə iqtisadi sanksiyaların tətbiqi ilə davam edən qarşıdurma özü ilə birlikdə bir neçə önəmli sual doğurub. Rusiya hakimiyyətinin hədələri blefdir, yoxsa tarixdə növbəti Rusiya-Türkiyə müharibəsinin anonsudur?

Bir çox siyasi təhlilçilər hesab edir ki, Kreml əslində blef edir. Bəzi siyasi təhlilçilər isə prosesin sonunda müharibə göründüyünü düşünürlər.

**Politoloq Mübariz Əhmədoğlu da bu cür düşünənlərdəndir. M.Əhmədoğlu "Yeni Müsavat"a açıqlamasında dedi ki, əslində nə Rusiya, nə də Türkiyə müharibə istəmirdilər. Çünki müharibənin onlara böyük fəlakətlər gətirəcəyini bilirlər. Rusiya ilə Türkiyə arasında müharibəni istəyən ABŞ-dır. Məqsəd Rusiyanın bütün rezervlərinin silaha xərclənməsinə və sonda Rusiyanın çökməsinə nail olmaqdır:** "ABŞ Rusiyanın gündən-günə güclənməsini, Putinin reytinqinin pik həddə çatmasını həzm edə bilmirdi. Öncə Rusiyanı Ukraynada müharibəyə cəlb eləmək və bu vasitə ilə çökdürmək istədilər. Göründə ki, dəhşətli müharibənin Avropanın ortasında olması Avropa ölkələrinə də böyük zərbələr vurar, plan dəyişdi və Rusiyanı Suriya bataqlığına çəkmək, sonra isə Türkiyə ilə qarşı-qarşıya gətirmək ssenarisi dövriyyəyə buraxıldı. İndi baş verənlər və gözlənilən müharibə əslində Rusiya-Türkiyə müharibəsindən çox, Rusiya-ABŞ müharibəsi olacaq. Artıq NATO qüvvələrinin Türkiyə ərazisinə gətirilməyə başlanması da üfüqdə müharibənin göründüyünü deməyə əsas verir. ABŞ Rusiyanın bütün pullarının hərbə xərclənməsi, Rusiyanın SSRİ-nin gününə düşməsi üçün iş aparır. Necə ki, SSRİ-ni çökdürdülər, indi də Rusiyanı çökdürmək ssenarisi hazırlanıb. Bu ssenaridə qazanan ABŞ olacaq, ziyan çəkən Türkiyə, ən böyük zərbə alan isə Rusiya olacaq. Rusiyanın bütün iqtisadiyyatı hərbiyə işləyəcək və nəhayət, Rusiya çökəcək.


Mübariz Əhmədoğlu

Artıq Türkiyə başa düşür ki, müharibə onun maraqlarına uyğun deyil. Korrekt davranışları da bununla bağlıdır. Xatırladım ki, təyyarə olayından əvvəlki dövrlərdə bir neçə hallar olub ki, müəyyən gərginliklərdə Rusiya Türkiyəyə çox korrekt münasibət sərgiləyib. İndi Putinin sərt danışmağına baxmayın. Putinin indi tətbiq etdiyi sanksiyaların və hədələrinin məqsədi var. Putin Türkiyəni etiraf etməyə məcbur eləmək istəyir ki, Ankara Rusiyaya qarşı addımı əslində ABŞ-ın atdığını etiraf etsin".

Bu arada Putinin Türkiyəyə qarşı təkcə iqtisadi sanksiyalardan istifadə etməyəcəyi, Türkiyəyə ölümcül təhdid hazırladığı barədə rusiyalı politoloq Stanislav Belkovski açıqlama verib. O deyib ki, Moskva kürdlərə iqtisadi və maliyyə dəstəyi verəcək. Bu dəstək Türkiyə üçün ağrılı olacaq.

Kürdlərdən isə Moskvanı məyus edəcək, Türkiyənin isə xeyrinə olan addım atılıb. APA-nın "Daily Sabah" nəşrinə istinadən verdiyi xəbərə görə, İraq Kürdüstanı parlamentinin rəhbəri Şerko Cavdat deyib ki, Rusiya Müdafiə Nazirliyi tərəfindən İŞİD-in Türkiyəyə neft göndərməsinin sübutu kimi təqdim edilən görüntülərdə əks olunan yanacaq daşıyan avtomobillər İŞİD-ə yox, İraq kürdlərinə məxsusdur.

Ş. Cavdatın sözlərinə görə, sözügedən avtomobillər İraq Kürdüstanından Türkiyənin Ceyhan terminalına doğru hərəkət edir. Bunu hər kəs bilir, burada sirr yoxdur.

Parlament spikeri Rusiyanın təqdim etdiyi sübutların etibarlı mənbələrə əsaslanmadığını qeyd edərək, kürd peşmərgələrinin İŞİD-lə mübarizə aparan əsas qruplardan biri olduğunu və Rusiyanın neft şirkətlərinin İraq Kürdüstanında fəaliyyət göstərdiyini xatırladıb.

Qeyd edək ki, dekabrın 2-də Rusiya Baş Qərargah rəisinin müavini Sergey Rudskoy İŞİD-in nəzarətində olan ərazilərdən Türkiyəyə neft daşındığını təsdiqləyən faktlara malik olduqlarını bildirib və videogörüntülər yaymışdı. Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan isə ittihamları rədd edərək heç kimin Türkiyəyə iftira atmağa haqqı olmadığını bəyan edib.

❑ **Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 271 (6299) 5 dekabr 2015

# "Tezliklə bu məsələlərin bitməsini istəyirəm"

## Məşədi Natiq Kərimov Nardaran hadisələri ilə bağlı "Yeni Müsavat"a danışdı: "Azərbaycanın işığa 53 milyon borcu var. Amma təkcə Nardaranın 42 milyon borcu olduğunu deyirlər"

**Noyabrın 26-da Nardaranda baş verən hadisə bütün Azərbaycanı silkələdi. 7 nəfərin həlak olduğu faciədən keçən müddət ərzində proseslər səngimək bilmir. Əksinə, hər keçən gün proseslər artan xətlə gedir.**

*Nardaran Ağsaqqallar Şurasının sədri Məşədi Natiq Kərimovdan noyabrın 26-dan bu günə qədər gedən proseslərlə bağlı ümumi dəyərləndirmə aldıq.*

***- Məşədi, ümumiyyətlə, Nardaranda nə baş verir?***

- Baş verənləri bir sözlə ifadə etmək olmaz. Daha dəqiq fikirlər söyləmək üçün keçmişə və indiki zamana müraciət etmək lazım gəlir. 2002-ci ildən sonra hakimiyyətin bəzi məsələlərdə müsbət rolu oldu. İşıq probleminin həll olunmasını misal çəkə bilərəm, məlum hadisələrə qədər. Amma qaz problemi indiyə qədər həll olunmamış qaldı. Mənim üçün əsas müəmmalı qalan məsələ 42 milyon borcumuzun olması barədə açıqlama oldu. 5 ay bundan qabaq işıq idarəsinin işçiləri gəlmişdilər. Danışıqlar zamanı 400-500 min borcdan söhbət gedirdi. Beş ay ərzində milyonlarla işıq yandırmışıq? Bu barədə hökumətə məlumat vermişik. İnanırıq ki, ölçü götürüləcək.

***- Sizcə, bu proseslərdən sonra borclarınız silinə bilərmi?***

- Borc məsələsində çoxlu suallarımız var. Onsuz da iş yoxdur. Ona görə də, 40 il işıq verməsələr belə, bu borcu silmək gücümüz yoxdur. Silinə də bilməz. Hansı hesabdan silinəcək? Çox absurd rəqəmdir. Bütün Azərbaycanın işığa 53 milyon borcu var. Amma təkcə Nardaranın 42 milyon borcu olduğunu deyirlər. Haradan çıxarıblar bu rəqəmi? Dünən anadan olan uşağın, evdə xəstə olan anaların taleyini düşünsünlər. O zaman məlum dairələrə sual ünvanlayıram. Nə üçün banklarda mənimsənilən milyardların söhbətini etmirsiniz? O pullar nə oldu? Bu məbləği kimin ayağına yazdınız? Sadəcə, biabırçılıqdır. Milyardlarla pulları məhv etdilər. Adını Hacı qoyan insan dənizdə hansı hoqqalardan çıxdı, hamıya məlumdur. Bununla hara gedib çıxacağıq? Nə istəyirlərsə, eləsinlər. Göydə Allah var. Bizim yapışacağımız yeganə varlıq hazırda odur. Allah hər şeyi görür. Öz yaxalarını cırıb, hakimiyyətin yuxarı mərtəbələrinə özünü göstərməyə ehtiyac yoxdur. Bir müddət keçəndən sonra həmin şəxsin necə insan olması məlum olacaq. Tarixdə də belə olub. Müstəqillik illərimizdən bəri bu dəfələrlə olub. Hamıdan çox qışqıran ən alçaq adam olub. Bir sözüm var. Ölkəmizdəki şiə və sünniləri sələfilərlə heç vaxt qarışdırmasınlar. Bu çox mühüm məsələdir.

***- İşıq problemindən danışarkən işsizliyə toxundunuz. Nardarandakı son hadisələrin bu problemin həllinə köməyi dəyəcəkmi?***

- İşsizlik məsələsi 1% belə həll olunsa, böyük məsələdir. Nardaran Azərbaycanın tərkib hissəsidir. Təkcə Nardaranda bu problemin həll olunması mümkün deyil. Bütün Azərbaycanda həll olunmalıdır. İqtisadi tənəzzül var. Hazırda ölkəmizdə işsizlik hər yerdə hökm sürür. Daimi işdən söhbət edirəm. Məlum hadisələrdən sonra işləyən bəzi insanlar da azad olundular. Nə qədər çalışsaq da, mümkün olmadı. Lazımi addımları atdıq. Görüşə böyük ehtiyac var. 2002-ci ildə kəndin ağsaqqallarını görüşə apardılar. Həmin vaxt silah söhbəti, ümumiyyətlə, işlənmədi. Həmin vaxt düzdür, polislər arasında atılan daşlardan yaralananlar oldu. Amma biz tərəfdən onlara bir güllə yarası belə olmadı. Amma indiki hadisələri necə qurdular, hələ də bilmirik. Ölən dindarlarımız da oldu. Onlara Allahdan rəhmət diləyirəm. Onlar da bizim seyidlərdir. Rəhmətlərini qazanıblar.

***- Tutulan şəxslərə qarşı artıq ağır ittihamlar irəli sürülüb...***

- Bu məsələdə ürəyimizi ağrıdan tutulan şəxslərin məhkəməsi olmadan onların terrorist adlandırılmaları oldu. Bu şəxslər dağlarda deyillər ki, terrorçu olsunlar. Ev şəraitində idilər, evdən də həbs olundular. Hadisə ilə bağlı çoxlu sayda çəkilişlər var. Hadisələri obyektiv işıqlandıran mətbuat orqanları oldu. Bütün jurnalistlərə təşəkkür edirəm ki, məsələmizi bütün dünyaya çıxardılar. 2002-ci il hadisələrində səfirliklər, Avropa Şurasının ölkəmizdəki nümayəndələri və başqa təşkilatlar proseslərdə iştirak edirdilər. Gecə-gündüz bizimlə bir yerdə idilər. Həmin ildə çox tanınmış şəxslərlə görüşdük. Heydər Əliyevin əmri ilə burada iki gün iclas keçirildi. Ondan sonra məsələ həll olunmadığına görə güc tətbiq olundu. Bizdən güllə yarası alanlar oldu. Bir nəfər də şəhid oldu. İndi tamam başqa situasiyadır.

***- Situasiyanın dəyişdiyini deyirsiniz. Buna səbəb nədir?***

- 2002-ci ildən bu yana hakimiyyət və dövlətdə böyük dəyişikliklər var. Hazırda Nardaranda xüsusi təyinatlılar, daxili qoşunlar var. Buradakı məsələ tamam başqa formaya gəlib çıxdı. İlk gündən terrorist damğası vuruldu. Milli Məclis vasitəsilə bizə qarşı istədikləri qərarları qəbul etmək istəyirlər. Artıq bəzi məsələlər ortaya atılıb. Bunların hamısı əvvəlcədən hazırlanmış ssenarinin tərkib hissəsidir. Başqa cür düşünmək mümkün deyil. Əgər başqa plan olsaydı, əvvəldən danışıqlar gedərdi. Ziyalıları, axundları, kənd nümayəndələrini çağırıb söhbət edə bilərdilər. Bu işi çox incəliyi ilə qurdular. Tarix əvvəl-axır öz yerini alacaq. Tarix elə bir şeydir ki, üstündən 10 il keçsə də, həqiqət üzə çıxacaq. Kim cinayətkardırsa, doğrudan da silah gəzdirirsə, özlərini qanundan kənara qoyublar. Bunun üçün qanunun ən sərt forması ilə cəzalandırılmalıdırlar. Amma əməliyyat şəklində buna ehtiyac yox idi. Biz sələfi deyilik. Əməliyyat keçiriləndə çəkiliş aparılmalıdır. Bizim üçün qaranlıq olan məsələlər var. Hamıya deyirəm ki, silah məsələsi bizdə olmamalıdır. 35 ildir siyasi səhnədəyəm. Silah gəzdirməyi heç vaxt qəbul etməmişəm. Əgər silahın varsa, demək, qardaşlarına qarşısan. Xüsusi təyinatlılar da övladlarımızdır. Onlar da bu vətənin övladlarıdır.

***- Hadisələrin fonunda ən çox adı hallanan Hacı Tale Bağırzadədir. Nardaranın bu vəziyyətə gəlməsində bu şəxsin necə rolu oldu?***

- Hacı Tale alim, gəncdir. Ailəlidir. Bu şəxsi iki dəfə ifadə verməyə çağırmısınız. O zaman niyə buraxırdınız? Şübhələriniz vardısa, bu şəxsi saxlayardınız, onda heç bu faciə də yaşanmayacaqdı. Kəndimizə olan hücumda Hacı Tale faktorunun önəmi yoxdur. Yalnız Hacı Tale problemi olsaydı, bunu hər bir yolla həll etmək olardı. Gözümüzün qabağında bu şəxsi bir dəfə "Bandotel"ə, bir dəfə də Yasamal polisinə apardılar. Bu məsələni böyüdüb bu hala gətirmək lazım deyildi. İstəsələr Hacı Taleni bir dəfə də çağırardılar. Əgər getməsəydi, yığışardıq və deyərdik ki, qonağımızsan, gözümüz üstə yerin var, amma məsələni bu yolla həll etmə. İnternetdən onun çıxışlarına qulaq asmışam. Dindən, xanım Zeynəbdən danışıb. Həddən artıq sərt danışmağına görə kəndin adamlarından 10 nəfər nüfuzlusuna deyə bilərdilər ki, bu şəxs həddən artıq hakimiyyətə qarşı sərt danışır. Biz də yolunu tapardıq. Sadəcə Nardaranla bağlı xüsusi plan hazırlayırdılar. Amma yolunu tapa bilmirdilər. Azərbaycanda tutduğu vəzifədən asılı olmayaraq, kimin nə ilə məşğul olduğunu



**"Bəzilərinin yaxalarını cırıb, hakimiyyətin yuxarı mərtəbələrinə özünü göstərməsinə ehtiyac yoxdur"**

xalqımız gözəl bilir. Həmin şəxslər barədə əmr gələndə hamıya məlum idi. Bəzi şəxslərin milyardlara sahib olduqları bəllidir. Ad çəkmək istəmirəm. Azərbaycan kiçik ölkədir. Ona görə hər kəsin kimliyi bəllidir. Qan məsələsi, insanlara verilən zülm tarixə yazıldı. Beyinlərdən heç vaxt silinməyəcək. Hakimiyyət başqa cür düşünür. Camaatı çətinliyə salmaq olmaz. İşıq problemini həll etmək lazımdır. Mağazalardan kardonlar toplayıram, yaş odunları yandırmaq üçün. Biz cəhənnəm, dözərik. Bəs xəstəxanalar, məktəblər necə olsun? Ayın 26-dan bura görün neçə gün keçib. Bir dəfə də işıq verilməyib. Hamıya demişəm ki, hava qaralan kimi evlərinizə gedin. Gecə xüsusi təyinatlılar əllərində silahlar gəzirlər. Tezliklə bu məsələlərin bitməsini istəyirəm. Camaat arasında nüfuzlu şəxslərlə söhbət etmək lazımdır. Problemləri həll etmək lazımdır. 98% işsizlik var. Bu problem insanları başqa işlərlə məşğul olmağa sövq edir.

***- Telekanalların səsləndirdiyi versiyalara inanırsınızmı?***

- Müraciət edirəm ki, yığışdırın bu söhbətləri. Millətin dini inancı, hissləri ilə oynamağınız bəsdir. İyrənc verilişlərinizdən əl çəkin. ANS-də "Beş Barmaq" verilişinə baxdım. Maştağadan yanacaq alıb işıq motoru vasitəsilə bir verilişə baxa bildim. Şükürlər olsun ki, işıq yoxdur Nardaranda. Verilişə baxa-baxa bu qənaətə gəldim. Camaatı qızışdırmaqla məşğuldurlar. Hər bir məsələdə təmkinli olmaq lazımdır. Hamıya səbir arzulayıram. Ədalətli olmaq lazımdır. Ölülərin məsələsi çox pis formada həll olundu. Bu ədalətdirmi? Ata-ananın övladının qəbrindən xəbəri yoxdur. Onların vəziyyəti ağırdır. Ata deyir ki, övladım ölməyib. Əgər ölübsə, meyitini göstərməyi tələb edir. Bu məsələlər belə davam edə bilməz. Hamımız azərbaycanlıyıq. Bəzi deputatlar ağızlarına gələni danışırlar. Bunlara ehtiyac yoxdur. 20-yə yaxın yüksək rütbəli şəxs hazırda həbsdədir. Gedib onlardan danışsınlar, cəsarətləri varsa. Onlara onsuz da inanan yoxdur. Qanundan xəbərimiz var. Heç kəsi məhkəməsiz günahlandırmaq olmaz. Sadəcə, ittiham etmək olar.

***- Hacı Talenin rolunun hadisələrdə olmadığını deyirsiniz. Bəs əsl səbəb nədir?***

- Bir məsələ ilə təkcə polis orqanları məşğul olmursa, demək, başqa nəsə var. Əgər əmri yerinə yetirmirsənsə, fəsadları ola bilər. Düşüncələrimi tam ortaya qoymaq yaşım deyil. Hadisələrə düzgün qiyməti verilməlidir. Camaatla hökumət arasında məsələlərin bu yerə gətirilməsinə heç kəs razı deyil. Nardaran da Azərbaycanın ayrılmaz hissəsidir. Burada hamı ağılsız deyil.

***- Nardaran hadisələrinin timsalında dinlə bağlı müəyyən qərarlar qəbul edildi. Doğrudurmu?***

- Bu qərarlar doğru deyil. Zaman keçəcək, bu qərarların işləməməsi sübut olunacaq. Hazırda məscidlərə rəhbərlər qoyulur. Çoxu dostumdur. Onlar da xaricdə oxuyublar. Çünki Azərbaycanda yüksək səviyyəli dini təhsil almaq mümkün deyil. Qərarlar qəbul edə bilərlər, amma həmin qərarlar özləri tərəfindən pozulacaq. İşləməyi mümkün deyil. Dini kəsimi əhatə edən qanun işləyə bilməz. Uşaqların təhsilləri ilə bağlı da qərar qəbul edilir. Bu qərarlar kimə lazımdır? Boş-boş qərarlardır. Məscidə gedəndə dəfələrlə görmüşəm. Dini qurumların rəhbərləri olan məclisdə belə danışmaq üçün xaricdə oxuyan şəxslərə daha çox söz verilir. Hətta onların özləri buna şərait yaradıblar. Çünki onlar bilirlər ki, xaricdə oxuyanlarla onların təhsilləri arasında fərq çoxdur. Hər sahənin mütəxəssisi danışmalıdır. Şeyxin yaxınlarının belə məclislərdə bu şəxslərə söz verdiklərini görmüşəm. İmkan yaratmaq lazımdır ki, bu şəxslər Azərbaycanın xeyrinə çalışsınlar. Çalışırlar da.

***- Son olaraq, hazırda Nardaranda vəziyyət necədir?***

- Vəziyyət hazırda əvvəlki kimidir. Qeyri-qanuni vəziyyət hökm sürür. Tətbiq edilən rejimin mahiyyəti özlərinə belə bəlli deyil. Kortəbii qərarın sonu belə olmalı idi.

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 271 (6299) 5 dekabr 2015

# “Eldar Mahmudovun dəstəsi oğlumu oğurlamağa cəhd etdi”

## Sahibkar: “Başıma silah dirəyib “Land Cruzer” və “BMV-X5”i əlimdən aldılar”

**“2004-cü ildən 2015-ci ilə kimi onun təşkil etdiyi kriminal qrup mənim 500 min manata qədər pulumu reketlik yolu ilə əlimdən alıb. Bu qrupa rəhbərlik edən MTN-in yüksək çinli məmurları, şəxsən Eldar Mahmudov olub” - redaksiyamıza müraciət edən Binəqədi rayon sakini Tufan Aydın oğlu İbadov belə deyir.**



Bakının Dərnəgül qəsəbəsindəki bazarda metaldan olan tikinti materiallarının topdan və pərakəndə satışı ilə məşğul olduğunu deyən sahibkar quldurluq, reketlik, adam oğurluğuna cəhd, fiziki və mənəvi işgəncələrlə üz-üzə qaldığını diqqətə çatdırır.

Redaksiyamıza bir neçə məktub təqdim edən T.İbadov deyir ki, Eldar Mahmudov vəzifədə olduğu vaxtda onun ətrafının əməllərindən dövlət orqanlarına şikayətlər edib. Amma şikayətləri onun özü üçün əməlli-başlı başağrısına çevrilib. Baş prokuror Zakir Qaralova, Baş Prokuror Yanında Korrupsiyaya Qarşı Mübarizə İdarəsinə, milli təhlükəsizlik nazirinin əvəzi general Mədət Quliyevə yazdığı məktubların surətini təqdim edən T.İbadov (https://www.youtube.com/watch?v=I-fkd4OL1Pw&feature=youtu.be) deyir ki, E.Mahmudovun işdən çıxarılması bir çox sahibkarları ümidləndirib: “Bizim başımıza açdıqları oyunları Allah heç kimə göstərməsin. Çünki müstəqil Azərbaycan inkişaf etdiyi, ölkəmizin dünya ölkələri içərisində ən yüksək reytinq qazandığı bir vaxtda "Alik" ləqəbli Almurad Şura oğlu Məmmədovun bir Azərbaycan ailəsinin başına gətirdiyi bəla, oyun nə Allah, nə də hüquq-mühafizə orqanları tərəfindən qəbuledilməzdir. Mən mətbuatda hörmətli prezidentimizin çıxışlarını diqqətlə izləyirəm. Möhtərəm prezidentimiz dəfələrlə deyir ki, sahibkarlara mane olan məmurlar və başqa şəxslər bu dövlətin, vətənin düşmənləridir. Ona görə də bütün bu deyilənlərdən belə nəticə çıxarıram ki, bir sahibkar kimi mənim başıma gətirilən bu oyunların başında MTN-in sabiq rəhbərliyi durub. Məni bu qrupun üzvləri, kriminal aləmdə “Alik” kimi tanınan Zəngilan rayon sakini, onun ətrafı - Qasım Bayramov, Ərşad, Fuad, Elnur və başqalarıdır. Bu adamlar sahibkarlara hədə-qorxu gəlir. Sonradan MTN-in sahibkarlardan haqq yığanı Məhərrəm ortaya çıxıb pul alır. Kriminal aləmlə və sabiq MTN rəhbərliyi ilə işləyən Qasım Bayramov məni ölümlə təhdid edərək 300 min manat pulumu alıb. Dəfələrlə şikayət etmək istəmişəm. Lakin sabiq MTN işçiləri şikayətlərimin qarşısını alıblar. Bu şəxslər MTN-in kassiri və qoçusu olan Qasım Bayramovun oğlu və qaynıdır".

**T.İbadov ölkə rəhbərliyinə və baş prokuror Zakir Qaralova müraciət edərək üzləşdiyi qanunsuzluqların araşdırılmasını istəyib:** “Başıma gətirilən müsibətlər, üzləşdiyim reketliklərlə bağlı Baş Prokurorluğun İstintaq İdarəsində tam təfsilatı ilə izahat verməyə hazıram. Xahiş edirəm məni qəbul edib dinləsinlər, zərərçəkmiş kimi ifadəmi alsınlar. Bu adamlar onlara aylıq haqq vermədiyimə görə mənim övladımı oğurlamağa cəhd ediblər. Başında Eldar Mahmudovun dayandığı qoçu dəstəsi oğlumu oğurlamağa cəhd edib. 2015-ci il aprelin əvvəlində 16 yaşlı oğlum Yasən İbadov hazırlıqdan evə gələndə ona tanımadığı adamlar hücum edib. Oğlum qaçıb canını qurtarmasaydı, onu oğurlayacaqdılar. Həmin vaxt oğlumun telefonu əlindən düşüb. Bu adamlar da telefonu götürmüşdülər. Qonşular qışqır-bağır etməsəydi, oğlum oğurlanacaqdı. Oğluma hücum etmələrinin videosunu müstəntiqə təqdim etmişdim. Baxmadı. O videoda açıq-aşkar "Alik"in oğluma hücumu görünür. Oğlumu xeyli müddət gizlətməyə məcbur oldum. Onlar mənim ofisimə basqın edib başıma silah dirəyib “Land Cruzer” markalı, Az 99 CC 990 nömrə nişanlı maşınımı, “BMV-X5" markalı, Az 90 MC 777 nömrə nişanlı maşınlarımı əlimdən aldılar. Sonradan isə zəng edib deyirdilər ki, gəl notariusa, maşınları adımıza keçir. Getmədim. Özləri yenidən ofisə basqın etdilər. Zorla özləri ilə notariusa aparmaq istədilər. Gördülər ki, müqavimət göstərirəm, məni elektroşokla vurdular. Sonradan bilmişəm ki, 2 saat özümdə olmamışam. Mənə dedilər ki, maşınları verməsən uşağını oğurlayacağıq. Mən də notariusa gedib onlara "dovernost" verdim. Mənə deyirdilər ki, səni istədiyimiz vaxt öldürə bilərik. Eldar Mahmudova güvənən bu qoçu dəstəsi tanıdığım çoxsaylı sahibkarlardan aylıq haqq alırdı. Bu adamların hələ çox açılmayan cinayətləri var. Əfsuslar olsun Qasım Bayramov hələ də öz qoçu dəstəsi ilə dövlətə və dövlətçiliyə qarşı cinayətlər törətməkdə davam edir. Belə şəxslərin sahibkarlar üzərində etdikləri zorakılıq dövlətimizə və prezidentimizə qarşı təxribatdır. Bu adamlar Eldar Mahmudov işdən çıxarılsa da, öz mənfur niyyətlərini hələ də həyata keçirirlər. Onlar məni dəfələrlə fiziki, mənəvi təzyiqə məruz qoyublar".

**Sahibkar deyir ki, dəstə üzvlərinin əməlləri haqda şikayətlərindən biri Bakı Şəhər Baş Polis İdarəsində işləyən Məhərrəm adlı müstəntiq tərəfindən ört-basdır edilib:** “Müstəntiq məni çağırıb ərizəmi geri götürməyimi tələb etdi. Hətta məndən 100 min manat da əlavə pul istədi. Dedi ki, get, başını aşağı sal, ora-bura şikayət etmə. O, mənim tanıdığım sahibkarlardan bir neçəsindən də külli miqdarda rüşvət tələb edib və alıb. Onlar bu gün də mənim ailəmi ölümlə təhdid edirlər. Mən baş prokuror Zakir Qaralovdan, milli təhlükəsizlik naziri əvəzi Mədət Quliyevdən ailəmin və özümün təhlükəsizliyimizi təmin etmələrini xahiş edirəm”.

❑ **E.HÜSEYNOV**

**P.S.** Yazıda adı hallanan hər kəsi dinləməyə, mövqeyini dərc etməyə hazırıq.

# Xədicə İsmayılın həbsindən bir il ötür

## Jurnalist Ali Məhkəməyə müraciət hazırlayır; Leyla Yunusun səhhətinin pisləşməsi onun dekbarın 7-də azadlığa çıxmasına səbəb ola bilərmi?

**Araşdırmaçı jurnalist Xədicə İsmayılın həbsindən 1 il ötür. Tural Mustafayevin şikayəti əsasında həbs edilən X.İsmayıl ilk vaxtlar Cinayət Məcəlləsinin 125-ci maddəsi ilə ittiham olunurdu. Sonralar jurnalistə qarşı 179.3.2 (mənimsəmə və israf etmə- külli miqdarda törədildikdə), 192.2.2 (qanunsuz sahibkarlıq), 213.1(vergi ödəməkdən yayınma) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui istifadə) maddələri ilə yeni ittihamlar elan olundu.**



Leyla Yunus



Xədicə İsmayıl

### Fariz Namazlı: “Xədicə İsmayılın həbsindən öncəki və həbs müddətindəki...”

Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə o, 7 il 6 ay müddətinə azadlıqdan məhrum edilib. Hökmdən verilən apelyasiya şikayəti də təmin olunmayıb. Ali Məhkəməyə müraciət edən X.İsmayıl artıq qadın məhbusların cəza çəkdiyi 4 saylı cəzaçəkmə müəssisəsinə köçürülüb.

**Jurnalistin vəkili Fariz Namazlı** son bir ildə baş verənləri ümumi olaraq belə dəyərləndirdi: “Bir il ərzində prosesin sürətlənməyini gördük. Bakı Ağır Cinayətlər Məhkəməsinə 30-a yaxın vəsatət verdik. Yalnız biri təmin olundu. O da elə bir ciddi əhəmiyyət kəsb etmirdi. Heç bir sübut olmadan verilən 7 il yarım həbs cəzasına şahidlik etdik. Onun qanunsuz olaraq həbs edildiyi 125-ci maddəyə sonda bəraət verildi. Bu onu göstərdi ki, Xədicə İsmayılın həbsi qanunsuzdur. Onun tutulduğu cinayət maddəsi üzrə bəraət hökmü çıxarılır. Bu qərarla özləri də Xədicə İsmayılı qanunsuz həbs etdiklərini təsdiqlədilər. Keçirilən məhkəmə proseslərini ədalətli hesab etmirik. Vəsatətlərimiz təmin olunmadı, məhkəmə prosesləri sürətlə aparıldı. Arqumentlərimizin heç biri nəzərə alınmadı. Yekunda qanunsuz hökm çıxarıldı. Hazırda Ali Məhkəməyə şikayət hazırlayırıq. Ən azından bəraət hökmü çıxarılmasını istəyirik. Məhkəmə artıq düzgün qiymət verməlidir. Amma elə də ciddi ümidimiz yoxdur”.

**Vəkil hüquqlarını müdafiə etdiyi şəxsin azadlığa çıxacağına ümid etmədiyini qeyd edib:** “Bu, məhkəmə müstəvisində həll olunası məsələ deyil. Bir nəfərin iradəsindən asılıdır. O nə zaman istəsə, o zaman qərar olacaq. Xədicə xanımla sonuncu dəfə Apelyasiya Məhkəməsində görüşdük. Çünki apelyasiya qərarından bir gün sonra onu 4 saylı cəzaçəkmə müəssisəsinə köçürdülər. Prosedurlara görə, Penitensiar Xidmət onunla görüşmək üçün bizə icazə kağızı verməlidir. Bu, təxminən 10 gün çəkir. Məktub göndərməyimiz və veriləcək cavab. İcazə məktubu gözləyirik. Xədicə İsmayılın həbsindən öncəki və həbs müddətindəki düşüncələri arasında heç bir fərq yoxdur. Jurnalist olaraq qalır. Düzdür, həbsxana şəraitində fəaliyyətlə bağlı çətinliklər var. Yazıları ciddi şəkildə yoxlanılır. Təcridxanadan kənara yazılarının çıxarılmasına imkan verilmir”.

Dekabrın 7-də hüquq müdafiəçisi Leyla Yunusun apelyasiya şikayəti əsasında növbəti məhkəmə prosesi keçiriləcək. Noyabrın 12-də həyat yoldaşı Arif Yunusun məhkəmə zalından azad edilməsi L.Yunusla bağlı müsbət qərar çıxarılacağına olan ümidləri artırır. A.Yunusun səhhəti ilə əlaqədar azad olunduğunu nəzərə alsaq, L.Yunusun da hazırda səhhətində ciddi problemlər var. Bu barədə onun yaxınları mətbuata məlumat veriblər. Yaxınlarının məlumatında bildirilir ki, hepatit C onun ciyərini dağıtmaqda davam edir, mədəsi çalışmır, güclü diareya başlayıb və bu səbəbdən qida qəbulu ilə bağlı problemləri var. Nəticədə çox arıqlayıb, güclü başgicəllənməsi var.

Eyni zamanda məlum olub ki, Leyla Yunus öd kisəsi daşının çıxarılması ilə bağlı əməliyyat olunmalıdır, lakin bunu həbs şəraitində etmək mümkün deyil.

Yaxınları onu da deyiblər ki, Leyla Yunusun səhhətinin həyatı baxımından təhlükəli hala gəlməsi ilə bağlı ayın 7-də keçiriləcək məhkəmədə müdafiə tərəfinin müraciəti olacaq.

❑ **Cavanşir ABBASLI**



# "Özümü Dövlət Baytarlıq Xidmətinin binası qarşısında yandıracam"

## **İş adamı Asif Hacıyev:** "Özləri üçün preyskurant müəyyənləşdiriblər, 26 min manat dəyərində mal gətirmişəm, onun 10 faizini rüşvət kimi tələb edirlər"

**Dünən redaksiyamıza Asif Hacıyev adlı iş adamı müraciət edib. Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Xidməti rəhbərliyindən şikayət edən iş adamı sözügedən qurumda ondan rüşvət tələb olunduğunu iddia etdi. Müsahibimiz öncə onu bildirdi ki, iş adamı olaraq fiziki şəxs kimi rəsmi qaydada dövlət rüsumunu ödəyərək, qanunun bütün aliliyini nəzərə alaraq ölkəyə mal idxalı ilə məşğuldur. İdxal etdiyi mal isə baytarlıq preparatıdır - zərərvericilərə qarşı vasitə: "Hazırda bu mala ölkədə ciddi tələbat var. Amma onun nə rüsumu var, nə əlavə dəyər vergisi.**

Bu malı 5 ildir rəsmi dövlət qeydiyyatına salmışam. Dövlətin pulunu ödəmişəm, vergini verirəm, Dövlət Sosial Müdafiə Fonduna ödəmələri edirəm. Qabaq Dövlət Baytarlıq Xidmətinin rəisi Siyarə Rüstəmova idi. Heç üzünü də görməmişəm. Gəlirdik, aşağıda dövlətin təyin etdiyi 5-10 manatlıq rüsumu ödəyirdik və bitirdi. Bizə xəbər verilirdi ki, sizin malınız sərhəddədir, məktub ora ötürüləcək və ondan sonra o malı götürə biləcəksiz. İndi bir əjdahanı qoyublar o idarənin başına. Azər Süleymanov adlı sədr əvəzi kor atını çapır ora-bura. Mənim malımın rəsmi sənədlərdə dəyəri 26.000 AZN-dir. Məndən tələb olunur ki, bu məbləğin 10 faizini, yəni 2650 manatını rüşvət kimi verim. Onun yaxın adamı var, Aydın müəllim. Dəfələrlə ona demişəm ki, "belə etmək olmaz. Mən 5 ildir bura gəlib gedirəm. Nə zaman bu pulu sizə vermişəm, verə bilmərəm axı". Mən şəhid ailəsiyəm. Oğlum da səngərdə erməni ilə üzbəüz vuruşur. Hər dəqiqəsi ölümdür. Böyrəkləri çürüyür, mən ona valideyn kimi baş çəkə bilmirəm. Necə ola bilər ki, mən ona imkansızlıqdan baş çəkə bilmədiyim halda gətirib sizə bu qədər pulu rüşvət kimi ödəyim? O, səngərdə vuruşsun, sənsə rahat, isti kreslonda oturasan? O çörəyi necə yeyə bilərlər?"

**Müsahibimiz bir daha şikayətinin detallarını açıqladı. Dedi ki, zavoda müqavilə əsasında 26 min pul köçürüb. Məhsulun maya dəyəri isə beynəlxalq qaimədə də qeyd olunub:** "Bunlar isə deyirlər ki, malın dəyəri 26 mindirsə, 2600 AZN, 30 mindirsə, 3000, 50 mindirsə, 5000 manat rüşvət ödənməlidir. "Niyə ödəməliyəm" deyə soruşanda isə deyirlər ki, bu, bizim qaydalardır, "dolya" budur. Bu yeni qayda Azər Süleymanov gələndən başlanıb. Biz elə bilirdik ki, bütün bəlalar Eldar Mahmudov həbs olunandan sonra bitəcək. Amma bu adam özü üçün yeni qaydalar müəyyən edib. Dəfələrlə yanında olmuşam. Xahiş etmişəm ki, biz iş adamlarını incitmə. Mənə dedi ki, get öz işinlə məşğul ol. Dünən Aydın müəllimlə görüşdüm. O da mənə dedi ki, Azər müəllim deyir, o pulu ödəsin, ya da "Fitosanitariya" idarəsindən sənəd alsın. Halbuki mənim mallarımın o idarəyə heç bir aidiyyəti yoxdur".

**Şikayətçi bildirdi ki, hazırda malları sərhəddədir və buraxılmır. Hər gün malları daşıyan maşının sürücüsünə 100 dollar ödəyir:** "Mənim evim kommersiya bankında girovdadır. O yüküm gəlməsə, mən hərbçi ailəsi olaraq küçədə qalacam. Hərbçinin uşağı da küçədə can verəcək. Bankdan 50 dənə məktub var. Ödəniş etmək iqtidarında deyiləm. Prezident Aparatına da müraciət edəcəm. Orda da işimə baxılmasa, Baytarlıq İdarəsinin qarşısında özümü yandıracam. Rəsmi dövlət adamları buna qarışmalıdılar, buna bir çarə qılmalıdılar. Bu ölkədən hara gedək?

Bu adam vəzifəyə gələndən bəri mən ilk dəfədir ki, mal keçirirəm. İldə bir dəfə bu malı sərhəddən keçirirəm. Mənə demişdilər ki, hazırlaş. Düşünürdüm ki, mənə güzəşt olunacaq, şəhid ailəsiyəm. Amma olmadı".

**"Yeni Müsavat" xidmətin rəis vəzifəsini icra edən, ittihamların ünvanlandığı Azər Süleymanovla da əlaqə saxlayıb. Rəis əvəzi bizə açıqlamasında bildirdi ki, hazırda Zaqataladan paytaxta geri qayıdır və sözügedən iş adamı ilə görüşməsi, ondan rüşvət tələb etməsi iddiaları həqiqətdən uzaqdır:** "Amma sabah şənbə günü olsa da, dediyiniz şəxsin şikayətini araşdıracağıq. Onun dediyi kimi heç bir şey ola bilməz. Əgər konkret müraciəti varsa, biz onu həll edəcəyik və məsələ yoluna qoyulacaq".

❑ **Sevinc TELMANQIZI**

# "Susmağı və səbr etməyi üstün tuturam"

## **Naqif Həmzəyev:** "Mən fəaliyyətimin ilk dövründə istəmirəm ki, jurnalistlərlə məhkəmədə üzləşim; sadəcə, "Rəsulzadə tarixi şəxsiyyətdir..."

**Cümhuriyyətimizin qurucusu Məhəmməd Əmin Rəsulzadəni təhqir edən deputat Naqif Həmzəyev dünən parlamentdə jurnalistlər üçün brifinq keçirdi. Ona verilən sualları təmkinlə qarşılamağa çalışsa da, deputat bir neçə dəfə hövsələdən çıxdı və "məni provokasiyaya çəkməyin" deyə, reaksiya verdi. "Yeni Müsaavat"ın əməkdaşının da iştirak etdiyi brifinqdəki sual-cavabları təqdim edirik:**

***- Siz Məhəmməd Əmin Rəsulzadəni təhqir etdiyinizə görə günahlandırılırsınız. Bu barədə nə deyə bilərsiniz?***

- Mən hər kəsin qarşısında bəyan edirəm ki, mənim tək və yeganə liderim var, o da ümummilli liderimiz Heydər Əliyevdir. Mən demədiyim fikirlərə, etmədiyim əmələ görə heç bir məsuliyyət daşımıram. O cümlədən də Rəsulzadəni təhqir etməmişəm və etmək fikrim də yoxdur. Əsası Həsən bəy Zərdabi tərəfindən qoyulmuş mətbuatın çox təəssüf olsun ki, bəzi nümayəndələri jurnalistikanı biznes maraqlarına qurban veriblər (?-E.P.) və bu gün mən informasiya terrorunun qurbanına çevrilmişəm. Bütün deputat həmkarlarımdan, jurnalistlərdən və ictimaiyyət nümayəndələrindən də xahişim odur ki, bu çirkin əmələ qoşulmasınlar və bu oyunun alətinə çevrilməsinlər.

***- Yəni siz Rəsulzadə haqqında təhqiramiz fikirləri səsləndirməmisiniz?***

- Mən Rəsulzadəni təhqir etməmişəm, etmək fikrim də yoxdur.

***- Ancaq bununla bağlı audiomaterial var. Buna nə deyirsiniz? Həqiqətən təhqir etmədiyinizi bildirirsinizsə, məhkəməyə müraciət edə bilərdiniz...***

- Mən fəaliyyətimin ilk dövründə istəmirəm ki, jurnalistlərlə məhkəmədə üzləşim. Ona görə də sadəcə susmağı və səbr etməyi üstün tuturam. Qeyri-rəsmi şəraitdə edilən bir söhbəti qərəzli şəkildə yazıblar, buna təəssüf edirəm. Səsləndirmədiyim fikirləri mənim



Naqif Həmzəyev

adımdan veriblər. Son 4 ildə Gəncəyə gələn jurnalistləri şəxsən mən qarşılamışam və heç vaxt dilimdən təhqir çıxmayıb. Mənim leksikonumda təhqiramiz fikirlər yoxdur. Xahiş edirəm bu kampaniyaya heç kəs qoşulmasın və dəstək verməsin.

***- Elə isə Rəsulzadə sizinçün kimdir?***

- Mən dedim, mənim tək və yeganə bir liderim var, o da ümummilli lider Heydər Əliyevdir.

***- Söhbət Rəsulzadədən gedir...***

- Rəsulzadə tarixi şəxsdir. Tarixi şəxslərə bizim hörmətimiz var. Gəncə şəhərində ilk növbədə Gəncənin adı ilə bağlı olan Nizami Gəncəvi, Məhsəti Gəncəvinin, Mirzə Şəfi Vazehin yaradıcılığı dərindən öyrənilir (?-E.P.) və onların xatirələrinin əbədiləşdirilməsi üçün lazımi addımlar atılır dövlətimiz tərəfindən. Lazım gələrsə, digər işlər də görüləcək. Millət vəkili nə heykəl qoymur, nə də bu məsələlər onun səlahiyyətlərinə daxil deyil.

***- Amma Rəsulzadənin Gəncədəki büstünün başına torba keçirilməsindən sizin də xəbəriniz olub. Rəsulzadəyə münasibətiniz normal idisə, niyə bu barədə məsələ qaldırmadınız ötən aylarda?***

- Mən fikrimi dedim, mənim açıqlamam da kifayət edir. Xahiş edirəm siz də doğru, düzgün və tərəfsiz bu informasiyanı ictimaiyyətə çatdırasınız. Qeyri-rəsmi ortamda dəfələrlə xəbərdarlıq olunub ki, burada heç bir müsahibədən söhbət gedə bilməz. Çox təəssüf olsun ki, jurnalist etikasına sığmayaraq orda olan dialoq təhrif olunmuş formada ictimaiyyətə çatdırılıb. Mən yenə deyirəm, mənim tək və yeganə liderim var...

***- "Yeni Müsavat"ın baş redaktoru Rauf Arifoğlu bildirib ki, onda səs yazısı var və siz orada Məhəmməd Əmin Rəsulzadəni təhqir etmisiniz...***

- Mən heç vaxt heç kimi təhqir etməmişəm və etmək fikrim də yoxdur. Qısa və konkret.

***- Rəsulzadənin nəvəsi Rəis Rəsulzadə sizi məhkəməyə verəcəyini bəyan edib...***

- Məmnuniyyətlə. Məhkəməyə veriləcək və orda da cavabı veriləcək.

***- Siz Gəncədə yaşayırsınız, indiyədək bir dəfə də olsa, Rəsulzadənin büstünü ziyarət etmisinizmi?***

- Mənim tək bir liderim var və mən ancaq o dahi şəxsin abidəsini mütəmadi olaraq ziyarət edirəm. Mənim birbaşa borcumdur ki, liderimə sadiq olum.

***- Heydər Əliyev özü vaxtilə Rəsulzadənin məzarını ziyarət etmişdi, haqqında xoş sözlər demişdi...***

- Xahiş edirəm provokasiyaya çəkməyin, çox xahiş edirəm(?) Mənim demədiyim sözləri mənim adımdan ictimaiyyətə çatdırıblar.

***-İntizam komitəsinin sədri Ağacan Abıyev deyib ki, sizinlə bağlı məsələ komitəyə çıxarılacaq...***

- Yeni Azərbaycan Partiyası tərəfindən bu məsələ ilə bağlı açıqlama verilib. Orada göstərilib ki, bu prosedur necə olur.

***- Sizin mandatdan məhrum edilməyinizlə bağlı imzatoplama kampaniyası keçirilir...***

- Xahiş edirəm provokasiyaya çəkməyin və qeyri-rəsmi həyata keçirilən proseslərlə bağlı mənim heç bir açıqlamam yoxdur.

***- Sosial şəbəkələrdə bu barədə geniş bəhs olunub...***

- Mən sosial şəbəkədən istifadə etmirəm və ümumiyyətlə, orda gedən proseslərdən də xəbərim yoxdur.

**Redaksiyadan:** *Naqif Həmzəyev facebook istifadəçisidir və onun iki gün öncəyə qədər facebook profili var idi...*

❑ **Elşad PAŞASOY**

# Rəsulzadənin təhqir olunması parlament müzakirəsində - "...görüşsünlər..."

## Fazil Mustafa MM və YAP rəhbərliyini reaksiya verməyə çağırdı; Ziyafət Əsgərov aydınlaşma üçün "Yeni Müsavat"la Naqif Həmzəyevin görüşünü təklif etdi

**Milli Məclisin 4 noyabrdakı plenar iclasında deputat Fazil Mustafa M.Ə.Rəsulzadəni təhqir edən həmkarı Naqif Həmzəyevin hərəkətlərini qınadı. O bildirdi ki, tarixi şəxsiyyətlər haqqında ziddiyyətli fikirləri hər kəs deyə bilər, amma elə personalar var ki, bunlar dövlətin qurucularıdır: "Dövlətin qurucusu olan şəxs haqqında Azərbaycan vətəndaşı hansısa neqativ fikir səsləndirirsə, deməli, o, bu dövlətin vətəndaşı olmaqdan məmnunluq duymur. Çünki onun qurduğu dövlətdir.**

Biz 1918-20-ci illərdə mövcud olan dövləti bərpa etmişik, onun varisiyik. Hər kəsə qarşı tənqidi fikir söyləmək olar, amma təhqiramiz fikir söyləmək, hörmətsiz yanaşmaq qətiyyən yolverilməzdir. Deputat etikası var, Milli Məclisdə ən azı rəhbərlik səviyyəsində münasibət bildirilməlidir ki, gələcəkdə təkrarlanmasın".

**F.Mustafa Rəsulzadənin Gəncədəki büstünün üzərindən çuvalın götürüldüyünü də xatırlatdı:** "Bu, sevindirici haldır. Ən azı, burda müəyyən tənqidlərin olmasından sonra belə bir addımın atılması çox vacib haldır. Biz AXC-də olanda indiki hakimiyyətə, Heydər Əliyevə qarşı çox kəskin, barışmaz mübarizə aparmışıq. Amma Əbülfəz Elçibəy rəhmətə gedəndə Heydər Əliyev gəlib onun məzarının başında duranda inanın ki, cəbhəçilərin böyük əksəriyyətində onun şəxsiyyəti ilə bağlı 180 dərəcə fikir, düşüncə dəyişdi. O masştabda olan adam bilirdi ki, Azərbaycan prezidenti olmuş bir şəxsin siyasi mövqeyini qəbul etməmək, hansısa mövqeyini müsbət



Fazil Mustafa

qiymətləndirməmək olar, amma hörmətsiz yanaşmaq olmaz. Ölkə prezidenti İlham Əliyevin bəlkə də ən böyük addımlarından biri eks-prezidentlərin statusu haqqında qəbul etdiyi qanunun təşəbbüsü olacaq. Azərbaycanın eks-prezidenti Mütəllibova kiminsə münasibəti müsbət olmaya bilər. Amma təsəvvür edin ki, Azərbaycan prezidenti olmuş bir şəxs xaricdə dünyasını dəyişəydi, bu, Azərbaycan üçün hansı imic yaradardı? Dövlətin prezidenti, qurucusu olmuş şəxslərə hörmətsiz yanaşmaq yolverilməzdir və mən bunu qınayıram və istərdim ki, həm YAP, həm Milli Məclis bu məsələyə münasibətini bildirsin".

**İclasa sədrlik edən 1-ci vitse-spiker Ziyafət Əsgərov isə cavabında belə dedi:** "Fazil bəy siz hüquqşünassınız. Bir məsələ haqqında mövqe bildirəndə məsələni araşdırmaq lazımdır. Mən Naqif müəllimin müsahibəsini oxudum, o deyir ki, mən belə söz deməmişəm. Hər halda, bu məsələ araşdırılmalıdır, müsahibə götürənlə müsahibə verən arasında. Məsələ araşdırılandan sonra nəsə demək olar. Müxbir deyir deyib, bu kişi də deyir deməyib. İndi biz nə münasibət bildirək? Həm qəzet redaksiyası, (müsahibəni "Yeni Müsavat"ın əməkdaşı götürüb - E.P.) həm də Naqif Həmzəyev oturub danışarlar, sonra münasibət bildirmək olar".

❑ **Elşad PAŞASOY**

**Redaksiyadan:** *"Yeni Müsavat" qəzeti hörmətli Z.Əsgərovun təklifini qəbul edir və belə bir görüş üçün məkan olmağa hazırdır.*

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



YENİ MÜSAVAT
N 271 (6299) 5 dekabr 2015





# İlin son Qarabağ çağırışları - 2016-ya hansı "miras" saxlanılır?

Həmsədrlər "problemin hərbi yolla həlli yoxdur" deyir, amma sülh danışıqlarını dalandan çıxarmaq istəmirlər; status-kvo köhnə-yeni risklərlə növbəti ilə adlayır; alman siyasətçi: "Dağlıq Qarabağ və ona bitişik 7 rayon hələ də işğal altındadır..."

**Dağlıq Qarabağ məsələsi üçün bir qiymətli il də beləcə tarixə qovuşur. Hətta ilin sonunadək Azərbaycan və Ermənistan prezidentləri arasında görüş baş tutsa belə, bu, nəticəni dəyişməyəcək. Hərçənd bəzi optimistlər bir qədər fərqli fikirdədir.**

Məsələn, **politoloq Qabil Hüseynli** Rusiya-Türkiyə əlaqələrinin hazırkı böhranlı durumunda da növbəti Əliyev-Sərkisyan görüşünün "5 rayon" məsələsi kontekstində məhsuldar ola biləcəyini söyləyib. İşin içində olan siyasət adamları və diplomatlar isə fərqli fikirdədirlər. Bunu ATƏT XİN Başçıları Şurasının təzəcə başa çatan və Qarabağ probleminə ötəri toxunulan Belqrad sammiti də təsdiqləmiş oldu.

"Rusiya Dağlıq Qarabağ münaqişəsinin nizamlanması məsələsində həmrəy hərəkətlər və qarşılıqlı məqbul həll yollarının tapılması prinsiplərini əldə rəhbər tutur". Rusiyanın xarici işlər naziri Sergey Lavrov bunu həmin toplantıda deyib. Onun sözlərinə görə, bu, Dnestryanı və Ukraynadakı münaqişələrə də aiddir. Yəni yenə növbətçi, sıradan və şablon bir açıqlama.

Öz növbəsində **ABŞ dövlət katibi Con Kerri** vurğulayıb ki, ATƏT Qarabağ probleminin nizamlanmasında qətiyyət nümayiş etdirməlidir. "Moldovada, Gürcüstanda dondurulmuş münaqişələr, Ermənistan-Azərbaycan konflikti hələ də nizamlanmayıb" - qeyd edib Kerri.

**Sülh danışıqlarında yaxından iştirak eləməyən, Minsk Qrupu formatında təmsil olunmayan Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Federika Moqerini də Qarabağ problemi ilə bağlı çıxış edib. Diplomat qurumun münaqişənin tənzimlənməsində irəliləyişin olmamasından narahatlıq keçirdiyini söyləyib:** "Avropa Birliyi Dnestryanı konfliktin nizamlanmasında zəif irəliləyişdən, Dağlıq Qarabağ münaqişəsi ətrafında artan gərginlikdən və Gürcüstandakı münaqişənin sonrakı gərginləşməsindən narahatdır. Avropa İttifaqı konfliktin bütün tərəflərini ATƏT-in prinsiplərinə riayət etməklə siyasi həll yollarının tapılması üçün səy göstərməyə çağırır".

***

**Toplantıda həmçinin həmsədr ölkələr Dağlıq Qarabağa dair birgə bəyanatla çıxış edib.** "Biz Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllində vasitəçiliyə sadiq qalırıq". Bu barədə Sergey Lavrov, Con Kerri və Fransanın Avropa məsələləri üzrə dövlət naziri Harlem Desirin qəbul elədiyi sənəddə deyilir.

"Biz ATƏT-in Minsk Qrupu həmsədrlərinin təşkilatçılığı ilə Azərbaycan prezidenti İlham Əliyev və Ermənistan prezidenti Serj Sarkısyan arasında qarşıda gözlənilən görüşü dəstəkləyirik. Baş verən son gərginliklərin fonunda biz tərəfləri münaqişənin sülh yolu ilə həll prosesinə sadiqliyi təkrar nümayiş etdirməyə və sülh prosesində ciddi olmayan istənilən yanlış təsəvvürləri danışıqlar yolu ilə dağıtmağa çağırırıq. Tərəflər 2014-cü ildə hərtərəfli həlli nəzərdə tutan Soçi, Uels v Paris görüşlərindəki danışıqları, 2016-cı ildə də hazırda danışıqlar prosesində olan təkliflər üzrə intensiv dialoqu davam etdirməlidirlər", - deyə bəyanatda vurğulanır.

**Sənəddə daha sonra qeyd olunur ki, təmas xəttində və Ermənistan-Azərbaycan sərhədində zorakılıq hallarının ciddi şəkildə artması ilə bağlı status-kvo bu il qeyri-stabil olub.** "Biz xüsusilə minaatan və digər ağır silahlardan istifadəni pisləyir və bu silahların istifadə olunması səbəbilə dinc insanların xəsarət almasından təəssüf hissi keçiririk. Dağlıq Qarabağ probleminin hərbi yolla həlli yoxdur. Günahsız insanların ölümü və yaralanmasına bəraət qazandırmaq olmaz. Biz tərəfləri ən sərt dillə gərginliyi azaltmağa və insanların həyatını qorumağa çağırırıq. Həmsədrlər riskazaldıcı təkliflər irəli sürüblər. Ümid edirik ki, ATƏT araşdırma mexanizmi də daxil olmaqla, tərəflər bu təklifləri qəbul edəcəklər", - deyə sənəddə ümid ifadə olunur.

***

Dağlıq Qarabağa dair bu il üçün son açıqlama, bəyanat və çağırışlar bundan ibarətdir. Əfsus ki, onların heç biri real irəliləyiş üçün yetərli deyil. Çünki onların hamısı artıq qeyd olunduğu kimi, növbətçi xarakterlidir və əvvəlki illərdə dəfələrlə səslənib. Deməli, Qarabağ məsələsi ətrafında status-kvo bütün köhnə-yeni riskləri ilə növbəti ilə adlayır.

Bu da o anlama gəlir ki, Güney Qafqazda yeni Qarabağ müharibəsinin alovlanması ehtimalı ciddi olaraq qalır və bəlkə də artmaqdadır. Ona görə ki, istənilən sülhün alternativi müharibədir. Mövcud durumu qəlizləşdirən yeni amillərdən biri isə məsələyə kifayət qədər güclü təsir imkanı olan Türkiyə və Rusiya arasında münasibətlərin kəskinləşməsidir.



**Bəzi analitiklərə görə, iki ölkə birbaşa hərbi qarşıdurmada maraqlı olmasa da, Dağlıq Qarabağ münaqişə zonası onların qarşıdurma meydanına çevrilə bilər. Başqa qisim siyasi şərhçilər isə hesab edirlər ki, münasibətlər hər halda qaynar fazaya keçməyəcək.**

"Rusiya-Türkiyə münasibətləri tarixdə ilk dəfə deyil ki, kəskinləşir. Münasibətlər kəskinləşir, sonra istiləşir. Çətin ki, indiki kəskinləşmə yeni rus-türk müharibəsinə gətirsin. Bir şey yəqindir ki, yaranmış vəziyyət Güney Qafqaz üçün yeni təhdiddir və Rusiyanı vadar edəcək ki, bölgədə öz təsirini gücləndirsin. Ancaq Qarabağ məsələsində hazırkı vəziyyəti dəyişməyəcək" - deyib təhlilçilərdən biri.

***

Bu vəziyyət əslində o vaxtadək dəyişməyəcək ki, Qarabağ probleminin Ermənistanın Azərbaycana qarşı ərazi iddiasından doğan bir işğal məsələsi olması hamılıqla, ələlxüsus da vasitəçi güclər tərəfindən etiraf və qəbul ediləcək, sülh prosesi BMT Təhlükəsizlik Şurasının, AŞPA-nın, Avropa Parlamentinin, İslam Əməkdaşlıq Təşkilatının, digər mötəbər təşkilatların Dağlıq Qarabağa dair qəbul elədikləri məlum obyektiv qətnamələri əsasında aparılacaq. Odur ki, xüsusən də Qərb (xristian) dünyasında, onun aparıcı dövlətlərində Azərbaycan ərazilərinin işğal faktının dərki mühüm, bəlkə də həlledici önəm daşıyır.

**"Azərbaycanın Dağlıq Qarabağ və ona bitişik 7 rayonu qanunsuz olaraq işğal altında saxlanılır". Bu sözləri Almaniya Bundestaqının Avropa Birliyi məsələləri üzrə komitə sədri Günter Krixbaum bildirib. Parlamentar etiraf edib ki, Azərbaycan hazırda olduqca həssas vəziyyətdədir, çünki o, xüsusən də Rusiyadan asılı olmayan müstəqil xarici siyasət nümayiş etdirməyə çalışır.**

"Ancaq Dağlıq Qarabağ konfliktinin həlli üçün ölkənin Rusiyaya ehtiyacı var. Biz 1 milyonlu qaçqınları da unutmamalıyıq. Azərbaycan əraziləri hələ də Ermənistan tərəfindən beynəlxalq hüquqa zidd olaraq işğal altındadır. İşğal faktı BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsində əksini tapıb" - əlavə edib alman siyasətçi.

## "Azərbaycanlı və erməni icmaları arasında dialoq qurulmalıdır"



**Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Belqradda keçirilən ATƏT Nazirlər Şurasının 22-ci iclası çərçivəsində Avropa Birliyinin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Herbert Salberlə görüşüb.**

XİN-in mətbuat xidmətindən verilən məlumata görə, görüşdə Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə ATƏT-in Minsk Qrupunun həmsədrlərinin vasitəçiliyi ilə aparılan danışıqlar prosesi haqqında fikir mübadiləsi aparılıb. Münaqişənin regional sülh və təhlükəsizlik üçün başlıca təhdid olduğu qeyd edilib.

Azərbaycan XİN başçısı beynəlxalq hüququn prinsipləri və BMT Nizamnaməsinə uyğun olaraq münaqişənin həlli ilə əlaqədar Avropa Birliyinin qətiyyətli və birmənalı mövqe ifadə etməsinin vacibliyini vurğulayıb. O, Ermənistan-Azərbaycan qoşunlarının təmas xətti və iki ölkənin sərhədi boyunca atəşkəsin pozulması və insidentlərin yaranmasının Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərində qeyri-qanuni mövcudluğundan irəli gəldiyini bildirib. Ermənistanın Azərbaycana qarşı işğalına son qoyulması və Ermənistan qoşunlarının işğal edilmiş ərazilərdən çıxarılmasının mühüm etimad yaradıcı tədbir olacağını qeyd edən nazir Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı və erməni icmaları arasında təmas və dialoqun yaradılmasının vacibliyini nəzərə çatdırıb.

Görüşdə Bakı ilə Brüssel arasında əlaqələrin inkişaf perspektivlərinə dair də fikir mübadiləsi aparılıb.

YENİ MÜSAVAT
N 271 (6299) 6 dekabr 2015

# Şokoladlı "tariximiz"

## Bakıda şokolad-sərgi təşkil olundu; Qız qalasının "tikilməsinə" 70 kilo şokolad sərf edilib

**Bakıda Muzey Mərkəzində dünyanın 40-dan çox ölkəsində qonaq olan "Nikoyla" şokolad muzeyinin sərgisi keçirilir. Sərgidə ümumi çəkisi 900 kiloqram olan 250 şokolad eksponatı yer alıb.**





Burada olan 250-dən artıq şokolad məmulatları, o cümlədən şokolad və marzipan heykəlcikləri, şokolad bagetlərlə çərçivələnmiş şokolad rəsmləri, şokolad miniatür və kompozisiyalar, 70 kiloqramdan artıq çəkisi olan "Qız qalası" şokolad miniatürü, Hökumət Evi, Muzey Mərkəzi, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı, FlameTowers binalarını əks etdirən əsərləri, eləcə də marzipan meyvə və gülləri, şokolad manqalı və digər əsərlər insanı heyrətləndirməyə bilməzdi. Qeyd edək ki, Azərbaycanda özəl hazırlanan şokoladdan Qız qalası maketinin gözəlliyi digər maketlərdən fərqlənirdi. Sərginin keçirildiyi dövrdə müəllif çəkisi 200 kiloqramdan artıq olan və Bakıda keçiriləcək Birinci Avropa Oyunlarına həsr etdiyi dünyanın ən nəhəng şokolad rəsmini təqdim edib. Həmçinin sərgidə hündürlüyü 2 santimetr, çəkisi 45 kiloqram, 512 şokolad hissəsindən istifadə edilmiş şokolad Eyfel Qülləsi də baxanları heyrətləndirirdi.

Muzey işçisi eksponatların saxlanılmasının ən azı onları düzəltmək qədər çətin və məsuliyyətli bir iş olduğunu bildirdi. Bələdçinin sözlərinə görə, bu maketlər çox soyuqda saxlanıla bilməz, çünki donaraq qırılar, çox istidə saxlamaq olmaz əriyər. Bu maketlər 20-25 dərəcə arasında saxlanılır.





Sərgiyə baş çəkənlər dadlı şokoladlardan dada, hətta şokoladdan öz əlləri ilə istədiyi fiquru hazırlaya da bilərlər. Bunun üçün müəllif tərəfindən ustad dərsləri təşkil olunur. Şokoladdan hər hansı bir fiqur düzəltməyin qiyməti 15 manatdır. Ümumi giriş isə biletlədir. Biletlərin qiymətinə gəlincə isə böyüklər üçün (18 yaşdan yuxarı) 7 manat, məktəb (6-18) yaşlı uşaqlar üçün 3 manat, 6 yaşa qədər uşaqlar üçün giriş pulsuzdur. Çoxuşaqlı ailələr və 15 nəfərə qədər qruplara endirimlər nəzərdə tutulub. Hər bir ziyarətçi üçün bir neçə növ şokoladın dequstasiyası təşkil olunur. Həmçinin içəridə foto, video çəkdirmək pulsuzdur.

Şokoladın yaranma tarixinə diqqət etsək, onun bu yerlərə gəlib çatmasında xeyli yol keçdiyini görərik. Belə ki, şokoladın ilk yaranma tarixi bizim eradan 3000 il əvvələ təsadüf edir...

XVII əsrin 70-ci illərində isə Almaniya apteklərində şokolad ümumi qüvvətləndirici vasitə kimi satılırdı. İsveçrə isə şokolad istehsalı hesabına "şokoladlar ölkəsi"nə çevrilib. İlk şokolad plitkası XIX əsrdə düzəldilib. Bu üsul İspaniyadan İtaliyaya köçən və 1819-cu ildə burada ilk şokolad mağazası açan Fransu-Lui Kaye tərəfindən tətbiq olunub. Bütün Avropada məşhurlaşan qozlu şokoladı isə 1828-ci ildə Amede Koler icad edib. XX əsrin əvvəllərində ingiltərəli Con Mars indi də məşhur olan "Mars" şokoladını satışa buraxır. Şokoladdan elə fiqurlar hazırlanıb ki, onlar hazırda Ginnesin Rekordlar kitabına düşüb. Məsələn, ABŞ-da şokoladdan uca bir bina tikilib və bu bina Ginnesin Rekordlar kitabına düşüb. ABŞ-ın göydələnləri ilə məşhur Nyu-York şəhərində ucalan bu bina 6,5 metr uzunluğundadır və saf şokoladdan hazırlanıb. Tikilinin memarı fransız aşpaz Alain Roby 1036 kiloqram qara şokoladdan istifadə etməklə düzəltdiyi bu bina ilə daha bir rekorda imza atıb. 30 saata tikilən bina Ginnesin Rekordlar kitabına adını yazdırıb. Roby arxitekturada heç bir məşhur binanın görünüşündən istifadə etmədiyini bildirib.

Almaniyalı aşpaz Qreqor Pfaff və onun heyəti isə müqəddəs Valentin gününə həsr edilmiş şokoladdan böyük ürək düzəldib. Şokolad ürəyin çəkisi 922 kiloqram, hündürlüyü və eni isə 5 metrdir. Şokolad şah əsəri Banqonkun mehmanxanalarının birində yerləşdirilib.

❑ **Günel MANAFLI**

**Fotolar müəllifindir**


**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

---

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)

**Tel: (050) 213 88-05.**

**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



**Montində, Nərimanov Məhkəməsinin həyətində 2 maşınlıq daş qaraj satılır.**

**Obyekt kimi də istifadə etmək olar. Pultla idarə olunan jalüz qapıları var. Tavanı lambrin, döşəməsi tametdir. Ayrılıqda da istifadəyə yarayır. Sahibindən satılır, qiyməti bazar qiymətindən ucuz. Sənədi var.**

Əlaqə nömrəsi (050) 264 49 99



**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN

Tel: (055) 776-70-34





## Bu gün talassemiyalı İlhamə üçün xeyriyyə aksiyası keçiriləcək

**Dekabrın 5-də və 6-da talassemiya xəstəsi olan İlhamə üçün MEGAFUN istirahət mərkəzində xeyriyyə aksiyası keçiriləcək. Bununla bağlı İlhamənin anasının yaydığı müraciətdə deyilir:**



- Ağrısız, iynəsiz bircə gün də olsun yaşamaq istəyi qədər şirin və vazkeçilməz arzudur ki, İlhamə üçün... Əvvəllər körpə idi deyə onu məhv edən talassemiya xəstəliyinin nə olduğunu bilmirdi. Hər gün ona vurulan və saatlarla bədənində qalan iynələrin də qanunauyğun olduğunu düşünürdü. İndi artıq böyüyüb, 9 yaşın içindədir İlhamə. O böyüdükcə amansız dərdi də özü ilə böyüyüb, sanki İlhamənin həyatının qəsdinə durub bu qəddar xəstəlik. Əvvəllər tez-tez soruşurdu ki, niyə o biri uşaqlara iynə vurmurlar, niyə mənim həmişə ürəyim bulanır, niyə iştaham olmur, niyə həkimlər məni incidirlər. Daha belə suallar da vermir İlhamə. O artıq hər şeyi anlayır. Körpə olmasına baxmayaraq olumla ölüm haqda da düşünür yəqin ki. Körpələr həmişə əziz insanlarının qocalıb öləcəyini dərd edirlər özləri üçün. İlhamə isə öz dərdini çəkir.

Özü də bilir ki, talassemiya çox ağır xəstəlikdir və hər gün 8-9 saat bədəninə disferal infuziya edilməsə, ayda 2-3 dəfə ona başqa adamların qanı köçürülməsə, yaşaya bilməz. Əvvəllər iynə vurulanda çox ağlayırdı, indi artıq bununla da barışıb. Körpə qızcığazın həyatla bağlı bircə ümidi var: hər dəfə Almaniyadakı klinikadan cavab gələndə böyüklər kimi o da özünə yer tapa bilmir. Bütün sevinci və kədəri bu cavablardan asılı olur İlhamənin. Özü də anlayır ki, onun yaşaması üçün real bir şans var və artıq onun üçün donor da tapılıb. Həyat eşqi nə qədər güclüdürsə, 9 yaşlı uşaq nə vaxt əməliyyat olunacağını səbrsizliklə gözləyir.

**Müraciətdə qeyd edilir ki, İlhamənin sağalması üçün bir neçə xeyirxah insan yardım edib və ailənin də topladığı məbləğlə birgə müalicə üçün tələb olunan vəsaitin çox böyük bir hissəsi düzəlib:** "Yerdə qalan cüzi məbləği isə xeyirxah insanların kiçik yardımları hesabına yığacağımıza ümid edirik. Dekabr ayının 5-də və 6-da bu məqsədlə MEGAFUN istirahət mərkəzində ictimai xadimlərin, media nümayəndələrinin və yardımsevər müğənnilərin köməyi ilə son aksiyalardan birini təşkil edəcəyik. Hər kəsi bu balaca qızcığazın həyat eşqini diriltməyə baiskar olmağa, onu yaşatmağa dəvət edirik. Allah böyükdür və bu körpə qəlbi dirildənin mükafatını o verəcək.

Edə biləcəyiniz ən kiçik məbləğ belə İlhamənin sağalması üçün köməkdir.

Əlaqə nömrəsi: 055 989 54 74

MilliÖn ödəmə terminallarından yardım üçün:

Bank xidmətləri

Bank standart

Kod - 427-632

Təvəllüd 1982-11-11

Debit kartina mədaxil.

YENİ MÜSAVAT
N 271 (6299) 5 dekabr 2015

# Parkomat fırıldağı, evakuasiya təhlükəsi - sürücülər diqqətli olsun...

## Sürücülərin şikayətinə səbəb isə ödəniş etmələrinə baxmayaraq, avtomobillərin evakuasiya olunmasıdır

**Bir müddət öncə Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən istifadəyə verilmiş parkomatlar Bakıdakı tıxac və parklama problemini tam həll edə bilməyib, əksinə, yeni problemlər yaratmağa başlayıb. Redaksiyamıza ünvanlanan çoxsaylı şikayət məktublarından sonra qərara aldıq ki, məsələni araşdıraq. Şikayət edənlər əsasən Bakıda yaşayan sürücülərdir. Onların şikayətinə səbəb isə ödəniş etmələrinə baxmayaraq, avtomobillərinin evakuasiya olunmasıdır. Daha dəqiq desək, ödəniş müddəti sona çatdıqdan sonra evakuasiya xidmətinin maşını ərazidən aparması sürücüləri qəzəbləndirib. Şikayətçilər bildirirlər ki, onlar ödənişdən boyun qaçırmırlar. Sadəcə, istəmədən, müəyyən səbəblərdən vaxt bitənə kimi geri qayıda bilməyəndə maşını aparmaq düzgün deyil.**

Məsələni daha dəqiq və dərindən araşdırmaq üçün "Yeni Müsavat"ın əməkdaşı Bakının bəzi ərazilərində müşahidə aparıb. Əvvəlcə sürücülərlə danışan əməkdaşımıza şikayətlənən vətəndaşlar bunları deyiblər: "Keçən gün maşını saxladım park yerində. Parkomata 1 saatlıq ödəniş edib, qəbzi şüşəsilənin altına keçirib krediti ödəmək üçün banka getdim. Elə oldu ki, növbəyə düşdüm və bir saata geri qayıtmağım alınmadı. Həm park yerinə uzaq idim, həm də sıramı qaçıra bilməzdim. İki saat sonra geri qayıdanda gördüm ki, maşınım yoxdur. Nəzarətçi dedi ki, evakuasiya aparıb. Bir xeyli vaxt itirib maşını cərimə meydançasından 40 manat ödəyərək çıxartdım. İndi mənim günahım nədir? Belə şey olarmı? Biz sürücülər ödəniş etməkdən boyun qaçırmırıq. Lakin elə qayda qoysunlar ki, bir az məntiqli olsun. Toyuq damı güdənlər kimi, qəbzdəki saatı güdürlər ki, 20 dəqiqə gecikməyə görə maşını aparsınlar".




**Sürücülərlə söhbətimizdən sonra parklanma ərazilərindən bir neçəsinə baş çəkdik. İlk getdiyimiz parklama ərazisində çalışan nəzarətçi məsələnin başqa tərəflərini danışdı:** "Adam var ki, maşını saxlayır, ödənişini 2 saat üçün edir və gedir. Amma işi uzun çəkir. 3 saat sonra geri qayıdanda görür ki, avtomobili yoxdur və qəzəblənir. Hay-küy salır. Amma ödəniş edərkən aldığı qəbzin arxasını oxumur. Orada açıq-aşkar yazılıb ki, "Əgər nəqliyyat vasitəsinin dayanacaqda durma müddəti keçərsə, yaxud qəbz avtomobilin ön şüşəsinə qaydalara uyğun yapışdırılmazsa, nəqliyyat vasitəsi cərimə meydançasına aparılacaq və ya cərimə protokolu tərtib ediləcək". Ödənişin vaxtı keçərsə, mən bu barədə məlumat verməliyəm. Bu, mənim vəzifə borcumdur. Başqa cür də etmək olmur. Bəzən elə olub ki, sürücünün yerinə öz cibimdən pul ödəmişəm. Sürücü gəlib qəbzi ona göstərib demişəm ki, "maşın müddətdən artıq dayanacaqda qalıb. Evakuasiya aparmasın deyə sizin yerinizə ödəniş etdim. Zəhmət olmasa o ödənişi verin". O isə pulu verməyib. Mən ona yaxşılıq etdim, 40 manat cərimədən xilas etdim. Bunun əvəzində mənə "sağ ol" demək yerinə pulumu vermədi. Bu da mənə dərs olub. Həmin gündən sonra heç kimin yerinə ödəniş etmirəm".

**Nəzarətçi deyir ki, bəzən sürücülər park ödənişini vermədən gedirlər. Hətta nəzarətçi bu sözləri bizə deyən zaman, sürücülərdən biri maşını saxlayıb, ödəniş etmədən getdi:** "Özünüz də şahidi oldunuz. Gözümdən yayındı, ödəniş etmədən getdi. Maşını evakuasiya aparacaq, bu da gəlib məndən hesab soracaq. Biz olmasaq heç kim ödəniş etməz". Nəzarətçi maşının ön şüşəsinə onun parkda dayanma vaxtını qeyd edir ki, sahibi geri qayıdanda ondan ödənişi düzgün istəyə bilsin.

**Buradan uzaqlaşıb, başqa bir əraziyə yollanırıq. Nizami rayonu ərazisindəki bu park yerində çalışan nəzarətçi isə gecə parkingçilərindən şikayət edir:** "Biz axşam saat 22:00-a qədər işləyirik. Biz gedəndən sonra qanunsuz işləyən "Stayanşik"lər küçələrə tökülürlər. Hansı maşının ödəniş qəbzi bayırdadırsa, onu götürürlər. Özləri sürücülərdən pul yığırlar. Bəzən onları polislər tuturlar. Amma sayları 1-2 nəfər deyil, çoxdur. Belələri maşınlardan qəbzləri yığdıqları üçün sürücülərə ziyan dəyir. Çünki evakuasiya xidməti qəbzin olmadığını görür və maşını cərimə meydançasına aparır. Bu yolla da sürücü günahsız yerə cərimə edilir".

Məlumatlara görə, gecə saatlarında sürücülərin park ödənişi etdikləri qəbzləri ön şüşədən götürənlər balaca uşaqlardır. Onlar həmin qəbzləri yığıb, evakuasiya xidmətinə xəbər verirlər. Onlar da gəlib, maşını cərimə meydançasına aparırlar. Sürücülər bu məsələdə daha diqqətli olsunlar. Qəbzləri avtomobillərinin bayırdan deyil, içəridən ön şüşəsinə yapışdırsınlar, bu zaman sürücülər bu kimi fırıldaqçıların qurbanına çevrilməyəcəklər. Bundan başqa, sürücü qanunu bilirsə, cərimədən xilas ola bilər. O, parkomatın üzərində olan telefon nömrəsinə zəng vuraraq, avtomobilinin nömrə nişanını deyib, ödəniş etdiyinə dair sübut əldə edə bilər

❑ **Məhəmməd TÜRKMƏN**
**Foto müəllifindir**

# Bakı metrosunda nə qədər güvəndəyik?

## Paytaxtda başqa ictimai nəqliyyat növlərinin bərpası mümkündürmü...

**Son zamanlar Bakı metrosundan istifadə edənlərin sayı əvvəlki illərlə müqayisədə xeyli çoxalıb. Dövlət Statistika Komitəsinin açıqlamasına görə, bu ilin yanvar-sentyabr aylarında metrodan istifadə edən sərnişinlərin sayı 3,8 faiz artaraq 162,4 milyon nəfərə çatıb. Dünyada belə bir hal mövcuddur ki, insanlar öz sağlamlığının qeydinə qalmaq üçün şəxsi avtomobillərindən imtina edib, ictimai nəqliyyatdan və eləcə də metrodan istifadə etməyə önəm verirlər. Misal üçün, Yaponiyada tədqiqatçılar müəyyən edib ki, metro vasitəsilə işə və evə gedənlərin qan təzyiqi avtomobildən istifadə edənlərlə müqayisədə daha normaldır. Bundan əlavə, onların fikrincə, ictimai nəqliyyatdan istifadə diabetin inkişaf riskini azaldır və artıq çəkinin meydana gəlməsini əngəlləyir.**






Bakı sakinləri arasında etdiyimiz sorğunun nəticəsi olaraq belə qənaətə gəldik ki, Azərbaycanda insanlar metrodan daha çox məcburiyyətdən istifadə edirlər. Orta və yaşlı nəslin nümayəndələrinin fikrincə, vaxtilə paytaxtda fəaliyyət göstərən tramvayların sonradan yığışdırılması heç də yaxşı hal olmayıb. Onların sözlərinə görə, hazırda ictimai nəqliyyatda avtobuslardan başqa alternativin olmaması insanları metrodan istifadəyə vadar edir.

Xatırladaq ki, paytaxtda tramvay və trolleybuslar 2000-ci ildə ləğv edilib. O zaman bu, əhalinin narazılığına səbəb olsa da yenidən bərpa edilmədi. Tramvay xətlərinin ləğvi səbəblərinə gəlincə, o zaman Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbovun tramvay və trolleybusları "köhnəliyin qalığı" kimi təqdim eləmişdi.

Tramvay və trolleybusların olduğu zamanlarda metrodan istifadə edənlərin sayı indiki qədər deyildi. İnsanlar "yer altına" enməkdənsə tramvaylardan istifadəni daha üstün tuturdular. Eyni zamanda 1994-cü ildə metroda terror aktının törədilməsi insanlarda bu nəqliyyat vasitəsinə qarşı sanki bir fobiya yaratmışdı. Həmin zamanlarda metroda gediş haqqı indikindən 4 dəfə ucuz olduğu halda, sərnişinlər də bir o qədər dəfə az idi. Hazırda isə xüsusilə pik saatlarda insan sıxlığı səbəbindən metroya girmək demək olar ki, mümkün deyil. Son günlər metro qatarlarında baş verən texniki nasazlıqları, qatarların tuneldə qalmasını da məhz bu kimi sıxlıqla əlaqələndirirlər.

**Məsələ ilə bağlı musavat.com-a danışan ekspert Azər Allahverənov bildirdi ki, ictimai nəqliyyat bir neçə növdə olmalıdır:** "İnsanlar istənilən nəqliyyat növündən rahat şəkildə istifadə etmək imkanına malik olmalıdırlar. Konkret tramvaydan söhbət gedirsə, Bakıda harada şərait varsa, orada tramvay xətti qurmaq olar. Ola bilər ki, şəhərin müxtəlif yerlərində tramvay xətlərinin çəkilməsi ilə bağlı müxtəlif problemlər yarana bilər. Hətta vaxtilə Səbayel rayonu ərazisində tramvayın fəaliyyəti yox səviyyəsində idi. Yalnız Nəsimi, Xətai, Nərimanov rayonlarında tramvayların hərəkəti mümkün idi. Elə indi də həmin ərazilərdən tramvay xətlərinin inkişafı üçün imkanlar var. Hazırda tramvayların çəkilməsi məsələsi müzakirə olunur. Nəqliyyat növlərinin çoxluğu sərnişin sıxlığının aradan qalxmasına səbəb olan amillərdəndir".

Bakı Metropolitenində sərnişinlərin təhlükəsizliyini təmin etmək məqsədilə 2011-ci ildən SOS aparatları quraşdırılıb və istifadəyə verilib. Onların vasitəsilə hər bir sərnişin təhlükəli vəziyyət barədə məlumat verə bilər. Son zamanlar dünyada baş verən terror hadisələri, eyni zamanda ölkənin də daxilində müəyyən insidentlərin yaşanmasından sonra Bakı Metropolitenində təhlükəsizlik tədbirləri gücləndirilib. Stansiyaların girişində sərnişinlər artıq daha ciddi şəkildə yoxlanılır.

**"Bakı Metropoliteni" QSC-nin mətbuat xidməti və ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi Nəsimi Paşayev yuxarıda bəhs etdiyimiz məqamlara aydınlıq gətirdi. O bildirdi ki, son günlər qatarlarda baş verən texniki nasazlıq heç də böyük problem hesab olunmur və bu, intensiv hal almayıb:** "İlk olaraq onu qeyd edim ki, bizim üçün sərnişinlərin təhlükəsizliyi ən öndə gələn məsələdir. Bunun üçün müvafiq strukturumuz, texniki imkanlarımız mövcuddur. İşimiz hər bir sərnişini təhlükəsiz formada mənzil başına çatdırmaqdır və bunun da öhdəsindən gəlirik. Statistika göstərir ki, son zamanlar metroda baş verən texniki nasazlıqların sayı getdikcə azalır. Ancaq təbii ki, hər hansı bir texnikada nasazlığın baş verməsi qaçılmazdır. Bu, xüsusilə Bakı metrosuna xas olan bir əlamət deyil. Hətta yeni texnikalarda belə nasazlıqlar baş verə bilir. Bizim bir qatarımız gün ərzində 16-18 saat xətlərdə olur. Yəni nadir hallarda hansısa belə hal baş verirsə, bu mümkündür. Təbii ki, çalışırıq heç bir neqativ hal olmasın. Bizim kifayət qədər mütəxəssislərimiz, texnikamız və ehtiyat avadanlıqlarımız var".

**N.Paşayev sərnişin sıxlığının daha çox müşahidə olunduğu "Elmlər Akademiyası" stansiyasında nəzərdə tutulan yeniliklərdən də danışıb:** "Bakı Dövlət Universiteti istiqamətinə "Elmlər Akademiyası" stansiyasının ikinci giriş-çıxışı tikilir. Burada işlər demək olar ki, tamamlanıb. Bu ayın sonunadək həmin giriş-çıxışı istifadəyə verəcəyik. Bu hal oradakı sərnişin sıxlığının aradan qaldırılmasına kömək edəcək. Digər stansiyalarda hələ ki, belə bir giriş-çıxışın tikilməsi planlaşdırılmır".

❑ **Əli RAİS**

YENİ MÜSAVAT

# Son səhifə

N 271 (6299) 5 dekabr 2015



## Facebookda növbəti yenilik

**Dünyanın populyar sosial şəbəkələrindən olan facebook daha bir yeniliyə imza atmağa hazırlaşır. Belə ki, şəbəkədə canlı yayım olacaq. İki milyarddan çox istifadəçisi olan sosial şəbəkə artıq yeniliyin tətbiqinə başlayıb. Yeniliklə bağlı açıqlama da verilib. Məlumatda qeyd edilir ki, bu, istifadəçilərin yaşayışlarını görməyə imkan verəcək canlı videomüşahidə və kollaj rəsm xidməti təqdim edilib.**

"Artıq facebookda paylaşdığınız fotolara da həyat verə bilərsiniz. Bu tətbiq dostlarınız və ailənizin də sizinlə eyni anı yaşamasına kömək edəcək". Əslində bu xidmət avqust ayından istifadəyə verilib. Lakin çox məhdud sayda istifadəçi ondan faydalana bilib. Bir müddət sonra isə hər kəs yenilikdən yararlana bilər. İlk olaraq ABŞ-da istehsal edilən iPhone istifadəçiləri yararlanacaqlar. Yenilik sayəsində istifadəçi yayın zamanı canlı izləyici və qatılan dostlarının adı, şərhlərini real zamanda görə biləcək. İstəsə videonu zaman tunelindən siləcək və ya sonradan dostlarının izləməsi üçün saxlayacaq.

Facebook müntəzəm olaraq yeniliklər etməklə istifadəçilərini sevindirir. Bundan öncə şəkil və video paylaşımları mümkün olsa da, GIF formatlı məzmunları yayımlamaq imkanı yox idi. Uzun müddətdir gözlənilən bu xüsusiyyət istifadəçilərin əksəriyyətinin ürəyincə olub.

# Nanənin faydası

**Nanənin dünyada 25-30-a yaxın növü var. Gəlin onun müalicəvi xüsusiyyətlərinə birlikdə nəzər salaq. Dəriyə tətbiq edilmə üsulu ilə ağrıkəsici xüsusiyyəti var. Baş ağrılarında su ilə qarışdırılmış nanə yağının 10 dəqiqəlik tətbiqi kifayətdir. Burxulmalarda da nanə yağı ilə masaj olunduqda çox yaxşı faydası olur.**



Nanənin qoxusu çox ətirli olur. Nanə və kəklikotu ilə dəmlənən çay çox faydalı və qripə təsirlidir (İçinə qabıqlı limon dilimlənməlidir). Mədə və öd ifrazatını artırır, həzmi asanlaşdırır. Mədə pozğunluğu, soyuqdəymə və ürək bulantısını aradan qaldırır. Həzmsizliyi olanların pis ağız qoxularını önləyir. Mədə spazmasını aradan qaldırır. Qaraciyərin müxtəlif xəstəliklərinin yaxşılaşmasını təmin edir. Qaraciyər ağrılarını aradan qaldırır, öd ifrazatını artırır. Öd daşını tədricən tökür. Mədə və bağırsaqda qazqovucu xüsusiyyətə malikdir, rahatlıq verir. Bağırsaqlarda qida məhv olmasını önləyir, ishalı, spazmanı aradan qaldırır. Astma, qrip, öskürək zamanı nanənin çox xeyri var. Nəfəs almağı asanlaşdırır. Bəlğəm gətiricidir.

# Qazlı sular haqqında bilmədikləriniz

**ABŞ-ın Kaliforniya ştatının keçmiş qubernatoru, eyni zamanda məşhur kinoaktyor Arnold Şvartsnegger sağlam həyat tərzinin təbliğatçısı kimi çıxış edir. Belə ki, o, orta məktəblərdə uşaqların çox sevdiyi qazlı suların satışını qadağan eləmişdi. İndi artıq məktəb bufetlərində yalnız təmiz su, süd və ya meyvə şirəsi içmək olar.**

1 şüşə qazlı suda 7-8 çay qaşığı şəkər olur. Bu isə mədəaltı vəzin işini artırır, diabet riski yaradır. Onun bu addımı uşaqlarda artıq çəki problemi ilə məşğul olan dietoloqlar tərəfindən böyük rəğbətlə qarşılanmışdı. Dietoloqlar qazlı suyu ziyanlı sayırlar. Uşaqlar isə sevirlər. Dietoloqların bu barədə bir sıra tədqiqatları var. Elə isə onların əsas etirazlarına səbəb olan komponentləri nəzərdən keçirək:

**Kofein** - bir qayda olaraq, qazlı suların tərkibində "gümrahlaşdırıcı element" var ki, bu da fiziki və psixoloji asılılıq yaradır. Yəqin ki, məhz kofein qazlı suyun olduqca populyar olmasını təmin edir.

**Karbon qazı** - adi halda zəhərli deyil, lakin mədə-bağırsağın sekresiyasını yüksəldir, mədə şirəsinin turşuluğunu artırır, bağırsaqlarda köp yaradır.

**Turşu** - qazlı sularda çoxlu turşular var.





## Uşaqlar üçün kompüter hazırlanır

**Dünya texnologiyasından yeni və maraqlı xəbərlər hər dəfə olduğu kimi Zaur Əliyevin təqdimatında evlərinizə qonaq gələcək. Əsasən uşaqlar üçün inkişaf etdirilən dizüstü kompüter Infinity, prototip işlərinin ardından Indiegogo da fon dəstəyi toplamağa başlayıb. Qısa müddətdə diqqətləri özünə çəkməyi bacaran hibrid cihazdan həm dizüstü kompüter, həm də tablet olaraq istifadə etmək mümkün olacaq.**

Məhsulun xüsusiyyətlərini, satışa çıxacağı tarix barədə məlumatlar yalnız "Texno Park"dadır. Bundan başqa, Bakutel sərgisindən maraqlı anlar, şirkətlərin təqdim etdikləri yeni texnologiyalar haqda məlumat və dünya texnologiya arenasında baş verən yeniliklər yalnız "Texno Park"da olacaq.

"Texno Park" bazar günü 18:00-da Zaur Əliyevin təqdimatında, "Lider" kanalında!




**QOÇ** - Daxili səsiniz qətiyyətli olmağı tələb edirsə, yalnız irəli atılın. Əmin olun ki, şanslar özü gəlib sizi tapacaq. Yaşlı doğmalarınızın fikirlərinə də hörmətlə yanaşın. Uzaq səfərləri təxirə salın.

**BUĞA** - Fəaliyyətdən daha çox qarşılıqlı münasibətlərə vaxt ayırın. Əgər deyilən istiqamətdə boşluq varsa, tələsin. Savab işlər görün. Vaxt tapıb müqəddəs ziyarətgahlara da getmək olar.

**ƏKİZLƏR** - Ünsiyyətdə olduğunuz hər kəsin hörmətini qazanmağa çalışın. Kosmik durumun xeyrinizə tənzimlənməsi yarımçıq işlərin həllini sürətləndirməyi tələb edir. Dinə zidd addım atmayın.

**XƏRÇƏNG** - Müqəddəs dinimizin ənənələrinə hörmətlə yanaşın, hamıya mərhəmət göstərin, xüsusən də sıx təmasda olduğunuz insanlara. O ki qaldı maliyyə durumuna, bu barədə narahat olmayacaqsınız.

**ŞİR** - İşgüzar sövdələşmələri başa çatdırmaq, yeni layihələri reallaşdırmaq üçün günün şanslarından istifadə edin. Amma hər bir söhbətdə qarşı tərəfi sonacan dinləyib sonra qərar verin.

**QIZ** - Ötən günlərin gərginliyi nahara qədər davam etsə də, təmkinli olmaqla bu müddəti itkisiz başa vura bilərsiniz. Təcrübəli insanların məsləhətlərinə qulaq asın. Ehtiyac sahiblərinə baş çəkin.

**TƏRƏZİ** - Ulduzlar ötən günlərdə hamıdan çox yorulduğunuzu bəyan edir. Bu səbəbdən də bu günü istirahətə həsr etməyə çalışın. Əyləncə və qonaqlıqlara vaxt ayırın ki, yorğunluğunuz getsin.

**ƏQRƏB** - Diş və ya baş ağrılarına mübtəla olmamısınızsa, günün ümumi mənzərəsi sizi qane edəcək. Məhəbbət amilinə isə yalnız söz kimi yanaşmayın. Uzaq olmayan ünvanlara qonaq getmək olar.

**OXATAN** - Həmkarlarınızla davranışları məcrasından çıxarmasanız, gün ərzində hansısa qanqaraçılığı ilə üzləşməyəcəksiniz. Pulla bağlı narahatçılığınız da qismən səngiyəcək.

**OĞLAQ** - İxtiyarınızda olan bu təqvimdə fəaliyyətə ara verib tamam fərqli zəmində iş aparmalısınız. Məhəbbət və qohumluq əlaqələrinə də vaxt ayırın. Gün ərzində maraqlı tanışlıqlar da gözlənilir.

**SUTÖKƏN** - Daxili stresslərinizin çoxalması ətrafda olan hər şeyə narazılığınızı artırıb. Amma bunun yaxşı sonu olmadığı üçün bir qədər genişürəkli olun. Ümidinizi insanlara deyil, Allaha bağlayın.

**BALIQLAR** - Təxminən saat 13-ə qədər praktiki cəhətdən hər hansı yenilik gözlənilməsə də, sonrakı müddətdə vəziyyətin tam fərqli olacağına inana bilərsiniz. Ürəyinizdəki şübhələri qovun.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Xərçəngə qarşı yeni ümid



Amerikalı alimlər insanların xərçəng xəstəliklərinin 30%-nə səbəb olan Ras-proteinlərini tapdıqlarını açıqlayıblar. Normal şərtlərdə hüceyrənin böyüməsinə səbəb olan Ras- proteinin kontrolsuz halda hüceyrələri böyütdüyü və xərçəngə səbəb olduğu məlum olub. Mütəxəssislər bu proteinin inkişafını dərmanlarla dayandıra bilmədiklərini bildiriblər. Professor Mişel Ohh və qrupu isə siçanlar üzərində aparılan araşdırmalar zamanı xərçəng hüceyrəsini 80 % öldürə bildikləri açıqlayıb.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300